## Günün xəbəri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva mayın 2-də Ağdam rayonuna səfər ediblər. Dövlət başçısı və birinci xanım Ağdam şəhərində salınacaq 2-ci və 3-cü yaşayış məhəllələrinin, inzibati binanın, Ağdam Muğam Mərkəzinin, "Azərişıq" ASC-nin Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməlinin qoyulması mərasimlərində iştirak ediblər.

Səhifə ⇨ 9



### Bakı daha bir nüfuzlu beynəlxalq platforma qazanır

### Vaşinqton prosesi Cənubi Qafqaza sülh gətirəcəkmi?



Səhifə ⇨ 9


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 90 (30206) 3 may 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

veb-sayt: www.xalqqazeti.az


# Ağdam Qarabağın mərkəzi şəhəri olacaq

## Dövlətimizin başçısı Ağdam Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməlini qoyub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 2-də Ağdam rayonuna səfər ediblər.**

Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Ağdam şəhərində Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməlini qoyub.

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına mərkəz və kompleks barədə ətraflı məlumat verdi.

*(ardı 2-ci səhifədə)*

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak ediblər



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 2-də Ağdam Muğam Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak ediblər.**

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma layihə barədə məlumat verdi.

*(ardı 2-ci səhifədə)*

## Gözlər Vaşinqtonda: "çətin proses" və közərən ümidlər



Səhifə ⇨ 4

## Fransada etirazlar pensiya islahatları çərçivəsindən çıxır



Səhifə ⇨ 13

# Dostluq və qardaşlığın çağdaş nümunəsi

Səhifə ⇨ 4

## 4 mindən çox şəxsə evlərdə sosial xidmət göstərilib



Səhifə ⇨ 14

## Ölkəmiz regionun avtomobil istehsalçısına çevrilir



Səhifə ⇨ 12

## Orta Dəhliz Qərbi Şərqə qovuşdurur




Səhifə ⇨ 12



## Bu il Avropaya 12 milyard kubmetr qaz ixrac ediləcək

Səhifə ⇨ 12

## Ukraynada "azadlıq əməliyyatı"na hazırlıq davam edir

Səhifə ⇨ 13

# Dövlətimizin başçısı Ağdam Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməlini qoyub



*(əvvəli 1-ci səhifədə)*

Bildirildi ki, Rəqəmsal İdarəetmə Mərkəzi şəhərin müxtəlif təyinatlı infrastrukturunun elektrik enerjisinə tələbatını ödəməklə yanaşı, təchizat sxeminə daxil olan şəbəkələrin real vaxt rejimində və rəqəmsal formatda idarə olunmasını təmin edəcək. Müasir tipli mərkəz vasitəsilə ətraf ərazilərin də elektrik enerjisi ilə təchizatının etibarlılığına və dayanıqlılığına nəzarət təmin olunacaq. Elektrik şəbəkələrinin Rəqəmsal İdarəetmə Mərkəzinin yaradılması elektrik enerjisinin paylanması prosesinə fasiləsiz nəzarətin təmin edilməsinə, enerji səmərəliliyinə, elektrik enerjisinin fasiləsizliyinə və keyfiyyətinin yüksəldilməsinə zəmin yaradacaq. Burada mühəndis–texniki heyətin səmərəli fəaliyyətini təmin edən müasir avadanlıqla təchiz olunmuş iş otaqlarının, vətəndaş qəbulu üçün şəraitin yaradılması nəzərdə tutulub.

Qeyd olundu ki, Təlim-Tədris Kompleksində beynəlxalq tədbirlərin keçirilməsi üçün lazımi şərait yaradılacaq.

Kompleksin Regional Tədris Mərkəzində yerli və xarici təlimçilərin iştirakı ilə elektroenergetika sahəsi üzrə ixtisaslı kadrların hazırlığı, bərpaolunan enerji mənbələrinin tətbiqi və istismarı qaydaları, peşə vərdişlərinin formalaşdırılması, real iş şəraitində təlim və ustalıq yarışlarının təşkili nəzərdə tutulur. Mərkəz təlim-tədris zalından və təlim poliqonundan ibarətdir. Tədris zalı 35/0,4 kV-luq müasir şəbəkə modelinin, 35 və 0,4 kV-luq fiberoptik kabellərin, kompozit şüşə-lifli dayaqların tətbiq sahələri, perspektiv inkişafı və üstünlüklərinin əyani şəkildə təqdim edilməsi üçün nəzərdə tutulub. Burada, həmçinin xüsusi dayaqlarda şəbəkədə istifadə edilən element və ləvazimatlar qurulacaq.

İşğaldan azad edilmiş ərazilərdə yaşıl enerji mənbələrinin (günəş və külək enerji qurğuları) tətbiqinə dair real işlək model də tərtib olunub, həm personalın, həm də gələcəkdə aktiv istehlakçıların maarifləndirilməsi təlimlərində istifadəsi nəzərdə tutulub. Burada elektroenergetika sahəsində əldə olunmuş tarixi nailiyyətləri əks etdirən elektron guşə və əyani vəsait stendləri, müasir uçot cihazları (SMS, Smart, NFC-sayğacları) və təhlükəsizlik texnikası, idarəetmə plakatları təqdim ediləcək.

Məlumat verildi ki, beynəlxalq tədbirlər poliqonu isə peşə ustalığı yarışları və müasir texnologiyaların əyani nümayişi üçün nəzərdə tutulmuş texnoloji ərazidir. Poliqonda günəş və külək enerji mənbələrinin qurulması, istismarı və müasir idarəetmə sistemləri üçün BOEM-təlim sahəsi planlaşdırılıb. Təlim poliqonunda real iş şəraitində istifadə edilən müasir şəbəkə modeli, Yaşıl enerji elementləri (günəş və külək enerji mənbələri) və innovativ layihə maketlərinin yerləşdirilməsi nəzərdə tutulub. Poliqon beynəlxalq peşə ustalığı yarışlarının, elektrotexniki təlim tədbirlərinin keçirilməsi və müxtəlif istiqamətlər üzrə təcrübə mübadiləsinin əyani nümayiş etdirilməsi üçün də geniş imkanlar yaradacaq.

Burada yaradılacaq Regional Logistika Mərkəzi isə region üzrə tələb olunan nəqliyyat, xüsusi texnika və mal-materialın daşınması, təmiri və saxlanması üçün nəzərdə tutulub. Məqsəd tələb olunan texniki vasitələrin vaxt itkisi olmadan əraziyə çatdırılması və saz vəziyyətdə saxlanmasından ibarətdir.

Transformator xidmət sahəsində müasir paylayıcı şəbəkələrdə tətbiq edilən güc transformatorlarının təmiri, sazlanması və müasir cihazlarla təchiz edilməsi həyata keçiriləcək.

Mərkəzi Laboratoriya smart-sayğaclar, kabel, izolyator, qurğu və avadanlıqların test-sınaq-diaqnostika tədbirlərinin həyata keçirilməsi üçün nəzərdə tutulub.

Dövlətimizin başçısına işğaldan azad olunmuş ərazilərdə “Azərişıq” ASC tərəfindən paylayıcı elektrik şəbəkəsinin qurulması istiqamətində görülmüş işlər barədə də məlumat verildi. Qeyd edildi ki, Ağdam rayonu ərazisində yerləşən infrastruktur və strateji obyektlərin ilkin mərhələdə elektrik təchizatı üçün 28 kilometr məsafədə 10 kV-luq hava elektrik verilişi xətləri çəkilib, 7 ədəd müxtəlif gücdə komplekt transformator məntəqəsi quraşdırılıb. Hazırda isə 35 kV-luq “Ağdam-1” və “Ağdam-2” yarımstansiyalarının tikintisi və bu yarımstansiyaların qidalandırılması üçün 35 kV-luq kabel xətlərinin çəkilməsi işləri görülür. Kəlbəcər rayonu üzrə dayanıqlı elektrik təchizatı üçün 31 kilometr uzunluğunda 110 kV-luq hava xətti çəkilib, 110/35/6 kV-luq “Daşkəsən yarımstansiyası yenidən qurularaq, 33,7 kilometr uzunluğunda 110 kV-luq hava xətləri bərpa edilib. Hazırda 35/0,4 kV-luq “Kəlbəcər” yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi, 35 kV-luq “Çaykənd-Zod” kabel xəttinin çəkilməsi işləri aparılır. Laçın rayonunda da bir çox işlər görülüb, o cümlədən Azərbaycan-Ermənistan şərti dövlət sərhədi istiqamətində qurulan sərhəd-keçid məntəqəsini elektrik enerjisi ilə təmin etmək üçün 1,8 kilometr uzunluğunda 0,4 kV-luq kabel xətləri çəkilib və 160 kVA gücündə 2 transformator quraşdırılıb. Hazırda Kilsəlidağ, 6-cı rayon və Şəlvə əraziləri istiqamətində 66 kilometr uzunluğunda 35 kV-luq elektrik verilişi xətlərinin çəkilməsi və müxtəlif gücdə komplekt transformator məntəqələrinin quraşdırılması işləri aparılır.

Prezident İlham Əliyev Ağdam Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməlini qoydu.

***AZƏRTAC***

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak ediblər



*(əvvəli 1-ci səhifədə)*

Mərkəzin binasının birinci mərtəbəsində kafe, kinozal, kitabxana, 637 yerlik konsert və iki rəqs zalının yaradılması nəzərdə tutulur. İkinci mərtəbədə isə inzibati otaqlar olacaq. Mərkəzdə 15 dərs otağı, sərgi salonu, iclas zalı, müəllimlər və müdir otaqları yaradılacaq, ərazisində isə min kvadratmetrlik açıq amfiteatr inşa ediləcək.

Qeyd edək ki, qədim və zəngin mədəniyyətimizin vizit kartı muğam, eyni zamanda, xalqımızın malik olduğu milli mədəniyyətin koloriti, hər birimizin mənəvi və ruhi qidasıdır. Bütün azərbaycanlıların həyat hekayətinə çevrilən muğamın təbliğinə son illərdə istər ölkəmizdə, istərsə də onun hüdudlarından kənarda dövlət səviyyəsində yüksək diqqət və qayğı göstərilir. Muğamın yaşaması, dünyada layiqincə təbliği və gələcək nəsillərə ötürülməsi baxımından son dövrlərdə yaradılan muğam mərkəzlərinin müstəsna əhəmiyyəti var.

Bəşəriyyətin şifahi və mənəvi irsinin incilərindən olan muğamın təbliği və inkişafı istiqamətində dövlətimiz tərəfindən son illərdə görülən sanballı işlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da layiqli töhfələr verir. Fondun həyata keçirdiyi layihələrin nəticəsidir ki, 2003-cü ildə UNESCO həm milli, həm də bəşər mədəniyyəti üçün Azərbaycan muğamının bədii dəyərini etiraf etdi. Muğam UNESCO-nun “Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri” siyahısına salınıb. Son illərdə muğam müsabiqələrinin keçirilməsi bu əvəzsiz sənət incisinin yaşadılması istiqamətində mühüm hadisə kimi tarixə düşüb. Azərbaycan milli musiqi mədəniyyətinə görkəmli muğam ifaçıları bəxş etmiş Ağdam rayonunda Muğam Mərkəzinin inşası işğaldan azad olunmuş ərazilərimizdə digər sahələr kimi, mədəniyyətin də sürətlə



dirçəldilməsi istiqamətində ardıcıl işlərin görüldüyünü göstərir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin təməlini qoydular.

***AZƏRTAC***

# Ağdam şəhərində 3-cü yaşayış məhəlləsinin təməlqoyma mərasimi olub




**Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində salınacaq 3-cü yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak ediblər.**

Dövlətimizin başçısına və xanımına əvvəlcə Ağdam şəhər 1 saylı məktəbin yeni binasında tikinti işlərinin gedişi barədə məlumat verildi. Bildirildi ki, 960 şagird yerlik bu məktəbdə təhsil üçün hər cür şərait yaradılacaq.

Qeyd edək ki, bu məktəbin binasının təməli 2021-ci il mayın 28-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Fəaliyyətə 1883-cü ildə başlayan bu təhsil ocağı Qarabağ bölgəsinin ən qədim məktəbidir.

Məlumat verildi ki, ümumi sahəsi 17 hektara yaxın olan yaşayış məhəlləsinin salınacağı ərazinin bir hissəsi çoxfunksiyalı zonanı əhatə edir və bu hissələrdə əhalinin sıxlığı azdır. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumi sahəsi 120 min kvadratmetr təşkil edən 1239, o cümlədən 25 birotaqlı, 396 ikiotaqlı, 533 üçotaqlı, 285 dördotaqlı mənzil olacaq.

Yaşayış məhəlləsindəki binaların inşasında istilik tutumlu təbii materiallardan istifadə olunacaq. Binalar daimi su, elektrik və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək.

Məhəllədə, həmçinin idman meydançaları, velosiped və avtomobil dayanacaqları yaradılacaq.

Dövlətimizin başçısı Ağdam şəhərində 3-cü yaşayış məhəlləsinin təməlini qoydu.

***AZƏRTAC***

# Ağdam şəhərində salınacaq 2-ci yaşayış məhəlləsinin təməli qoyulub





**Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində salınacaq 2-ci yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak ediblər.**

Dövlətimizin başçısına və birinci xanıma yaşayış məhəlləsi barədə məlumat verildi.

Bildirildi ki, ümumi sahəsi 14 hektara yaxın olan yaşayış məhəlləsinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Məhəllə Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınacaq. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumilikdə 1268 mənzil olacaq. Mənzillərdən 114-nün birotaqlı, 464-nün ikiotaqlı, 536-nın üçotaqlı, 154-nün isə dördotaqlı olması planlaşdırılır.

Məhəllədəki binaların inşasında modern memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunacaq. Burada idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması, geniş yaşıllıq zolaqlarının salınması nəzərdə tutulur.

Bütün binalar daimi su, elektrik və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii inşaat materiallarından istifadə olunacaq.

Dövlətimizin başçısı Ağdam şəhərində 2-ci yaşayış məhəlləsinin təməlini qoydu.

***AZƏRTAC***

# Ağdam şəhərində inzibati binanın təməli qoyulub



**Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində tikiləcək inzibati binanın təməlinin qoyulması mərasimində iştirak ediblər. Dövlətimizin başçısına və birinci xanıma layihə barədə məlumat verildi.**

Bildirildi ki, zirzəmi və beş mərtəbədən ibarət olacaq binanın tikinti sahəsi ümumilikdə 24,5 min kvadratmetr təşkil edəcək. Zirzəmi qatında avtomobil dayanacağı, mülki müdafiə sığınacağı, texniki otaqlar, anbar, mətbəx, auditoriya yaradılacaq. Binanın birinci mərtəbəsində rayon statistika idarəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rayon şöbəsi, Qida Təhlükəsizliyi Agentliyinin, Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin regional bölmələri, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin yerli bölməsi, rayon mədəniyyət şöbəsi, Məşğulluq Mərkəzi (DOST mərkəzi), Dövlət Aqrar İnkişaf Mərkəzi, Dövlət Vergi Xidmətinin Ərazi Vergilər İdarəsi, iclas otağı və arxiv olacaq.

İkinci mərtəbədə 7 iclas otağı, 8 açıq ofis, zal, katiblik fəaliyyət göstərəcək. Üçüncü mərtəbədə Azərbaycan Respublikasının Prezidentinin xüsusi nümayəndəliyinin qərargahı, iki hissəyə bölünə bilən ziyafət zalı yaradılacaq. Dördüncü və beşinci mərtəbələrdə də ofislər, görüş, iclas və digər otaqlar olacaq.

İnzibati binanın qarşısında tədbirlərin keçirilməsi üçün parad meydanının, sahəsi 17,5 min kvadratmetr olan park və şəhər meydanının da tikintisi nəzərdə tutulub.

Prezident İlham Əliyev inzibati binanın təməlini qoydu.

***AZƏRTAC***

# Prezident İlham Əliyev Bərdə-Ağdam dəmir yolu xəttinin tikintisi ilə tanış olub



**Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bərdə-Ağdam dəmir yolu xəttinin tikintisi ilə tanış olub.**



Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Qeyd edək ki, Azərbaycan Prezidentinin 2020-ci il 24 noyabr tarixli sərəncamına əsasən inşa olunan bu dəmir yolu xəttinin tikintisinin 2023-cü ildə başa çatdırılması nəzərdə tutulur. Uzunluğu 47,1 kilometr (yan yolları ilə birlikdə 57 kilometr) olan bu dəmir yolu təkxətlidir və elektrikləşdiriləcək. Yol boyunca Bərdə, Köçərli, Təzəkənd və Ağdam stansiyaları fəaliyyət göstərəcək. Dəmir yolunun üzərində 3 körpü inşa olunacaq. Yolun keçdiyi ərazi minalardan təmizlənib.

Bildirildi ki, dəmir yolu xəttinin layihələndirilməsi işləri 90 faiz yerinə yetirilib, Ağdam vağzalının təməli qoyulub. Həmçinin Bərdə və Ağdam mənzillərində 3 platforma, həmin platformalar üçün əlavə yolun və iki yoldəyişənin layihələndirilməsi nəzərdə tutulur. Dəmir yolu xəttinin 32,8 kilometrlik hissəsində relslər quraşdırılıb. Həmçinin torpaq işləri, mühəndis qurğularının tikintisi, yolun üst quruluş elementlərinin və yoldəyişənlərin quraşdırılması birinci mərhələ üzrə tam başa çatdırılıb. Hazırda 45-ci və 47-ci kilometrlərarası ərazidə üst quruluş elementlərinin quraşdırılması və Ağdam stansiyasının 6-cı yolunun torpaq işləri davam etdirilir.

Diqqətə çatdırıldı ki, tikinti-quraşdırma işləri iki mərhələdə həyata keçirilir. Yolun Bərdə-Təzəkənd hissəsində işlərin 80 faizi icra edilib. Təzəkənd-Ağdam istiqamətini əhatə edən ikinci mərhələdə isə icra vəziyyəti 71 faizdir.

Dövlətimizin başçısına Ağdam şəhər dəmir yolu və avtovağzal kompleksi barədə də məlumat verildi.

Bildirildi ki, kompleks vahid nəqliyyat qovşağı kimi dizayn olunub. Bu da sərnişinlərin rahat hərəkətinə imkan yaradacaq. Milli memarlıq üslubunda inşa olunacaq kompleksin binasında şüşə elementlər üstünlük təşkil edəcək.

Avtovağzalda ilkin mərhələdə şəhərlərarası (rayonlararası) müntəzəm avtobus marşrutlarının sayının 10 olması planlaşdırılır. Dəmir yolu vağzalında gündəlik 1000, avtovağzalda isə 1500 nəfərədək sərnişinin qəbul edilməsi nəzərdə tutulur.

***AZƏRTAC***

# Hikmət Hacıyev NATO Baş katibinin müavini ilə Ermənistanla normallaşma prosesini müzakirə edib

**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Brüsseldə NATO Baş katibinin köməkçisi general David Katler arasında görüş olub.**

Tərəflər NATO-Azərbaycan tərəfdaşlığının cari vəziyyəti və perspektivləri, həmçinin enerji təhlükəsizliyində Azərbaycanın rolu barədə danışıblar.

H.Hacıyev və D.Katler eyni zamanda Azərbaycanla Ermənistan arasında normallaşma prosesi barədə fikir mübadiləsi aparıblar.

# Müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir

**Bakıda Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş Azərbaycandan kənarda təhsil almış mütəxəssislərin toplantısı keçirilib.**





Mayın 2-də Bakıda, Heydər Əliyev Sarayında Azərbaycandan kənarda təhsil almış mütəxəssislərin toplantısı keçirilib. Toplantı ümummilli liderin anadan olmasının 100 illiyinə həsr edilib.

Ulu öndərin hakimiyyət illərində xaricdə təhsil almış həmvətənlərimizin qatıldığı toplantıda dövlət və hökumət nümayəndələri də iştirak ediblər.

Əvvəlcə Sarayın foyesində ulu öndərin hakimiyyətinin hər iki dövründə Azərbaycan təhsilinə qayğısından bəhs edən fotosərgi ilə tanışlıq olub.

Toplantı açıq elan edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov çıxış edib.

Bu günlərdə xalqımızın böyük tarixi şəxsiyyət, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinin böyük təntənə ilə qeyd edildiyini bildirən Baş nazir deyib ki, ulu öndərin 100-cü ildönümü onun ideya və arzularının gerçəkləşdiyi, tövsiyə və vəsiyyətlərinin yerinə yetirildiyi tarixi şəraitdə keçirilir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" sərəncamında qeyd edildiyi kimi, davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

1974-cü ildə Moskva şəhərində Plexanov adına Xalq Təsərrüfatı İnstitutuna daxil olduğunu, 1978-ci ildə həmin İnstitutu bitirdiyini xatırladan Ə.Əsədov deyib: "O illərdə belə nüfuzlu ali məktəblərə qəbul olmaq biz gənclər üçün böyük şərəf idi. Bu istiqamətdə atılan addımların hansı qlobal məqsədə xidmət etdiyi barədə təsəvvürümüz olmasa da, üzərimizə düşən məsuliyyəti – Azərbaycan üçün gərəkli mütəxəssis kimi yetişməyin əhəmiyyətini dərk edir, respublika rəhbərinin xeyir-duasından daha da ruhlanırdıq. İllər sonra ulu öndər özü etiraf edirdi ki, bu uzaqgörən strategiyanın məqsədi bir çox ixtisaslar üzrə milli kadrların hazırlanması ilə yanaşı, həm də Azərbaycan gənclərinin dünya görüşlərinin genişləndirilməsi idi. Bugünkü toplantının iştirakçıları Azərbaycanın ictimai-siyasi həyatının müxtəlif sahələrində fəaliyyət göstərən, Vətənimizin hərtərəfli inkişafına töhfələr verən insanlardır. Hər birimiz böyük həyat yolu keçərək şəxsiyyət kimi formalaşmışıq, müxtəlif peşələrə yiyələnmişik, müxtəlif vəzifələr tutmuşuq. Lakin bizi birləşdirən mühüm bir faktor var – əksəriyyətimiz ulu öndərin böyük diqqət və qayğısı nəticəsində Azərbaycandan kənarda ali təhsil almaq şərəfinə nail olmuşuq. Bu gün biz böyük iftixar hissi ilə deyirik ki, Heydər Əliyev məktəbinin məzunları, Heydər Əliyevin kadrlarıyıq".

Əli Əsədov bildirib ki, Azərbaycanın qədim tarixi və zəngin dövlətçilik ənənələri, bu ənənələri yaradan və yaşadan böyük xalqı, doğma Vətənin tarixinə öz adını əbədi yazdıran qəhrəman övladları, dahi şəxsiyyətləri var. Ancaq ulu öndər Heydər Əliyev onların arasında xüsusilə seçilir. Yüz il əvvəl qədim Naxçıvanda sadə, zəhmətkeş ailədə dünyaya göz açan, uşaqlığı əyalət şəhərində keçən Heydər Əliyev iş fəaliyyətinə hələ gənc yaşlarında dövlət qulluğunda başlamışdı. Sonralar onun nəhəng bir ölkənin rəhbərlərindən olması, dünya miqyasında şöhrət qazanaraq öz xalqını şərəfləndirməsi, onun əsl lider kimi çox mürəkkəb və məsuliyyətli missiyanı şərəflə yerinə yetirməsi ulu öndərə qismət olan bənzərsiz bir taledir. "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna da nail olmağa çalışıram və çalışacağam", – ulu öndər həyat amalını belə ifadə etmiş və bu amala daim sadiq olmuşdur.

Ulu öndərin 1972-ci ildən etibarən hər il yüzlərlə azərbaycanlı gənci SSRİ-nin böyük təcrübəyə malik ali hərbi təhsil məktəblərinə oxumağa göndərdiyini xatırladan Əli Əsədov diqqətə çatdırıb ki, o illərdə məhz ulu öndərin şəxsi təşəbbüsü ilə böyük çətinliklərlə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradıldı. "Belə təşəbbüslər irəli sürüləndə, milli hərbi kadrların hazırlanmasına xüsusi diqqət yetiriləndə heç kim təsəvvür edə bilməzdi ki, 2020-ci ilin bir payız günündə yüngül silahlarla Şuşanın sıldırım qayalarını aşan Azərbaycan Ordusuna məhz Heydər Əliyevin xeyir-duası ilə hərbi təhsil almış milli kadrlar rəhbərlik edəcək və bu kadrlar onun layiqli varisi, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin əmri ilə xalqımızın Qarabağ və Şuşa həsrətinə son qoyacaq. Ümummilli liderimizin təməlini qoyduğu, möhkəmləndirdiyi təhsil siyasəti bu gün etibarlı zəmin üzərində inkişaf etdirilir. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin böyük səyləri sayəsində elm və təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının mühüm istiqamətlərindən birinə çevrilib", – deyə Baş nazir vurğulayıb.

Ə.Əsədov qeyd edib ki, "2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 32 ölkənin 350-dən çox ən nüfuzlu ali təhsil müəssisəsində təhsil almaları məqsədilə ümumilikdə 3500-dən artıq gənc xaricə göndərilmiş və onlara təqaüd verilib, bu məqsədlər üçün 200 milyon manat vəsait xərclənib. Prezident İlham Əliyev 2022-ci il 28 fevral tarixli Sərəncamı ilə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı"nı təsdiq edib. Dövlət Proqramının icrası müddətində hər il 400 nəfər olmaqla, ümumilikdə 2000 nəfərədək vətəndaşın xaricdə nüfuzlu ali təhsil müəssisələrində bakalavriat və magistratura səviyyələrində təhsil alması təmin ediləcək.

"Bu gün öz Vətənini, xalqını, dövlətini sevən hər bir Azərbaycan vətəndaşının qəlbində Heydər Əliyev abidəsi ucaldılıb. Nə qədər Azərbaycan xalqı, Azərbaycan dövləti var, Heydər Əliyev də yaşayacaq. Bu gün Azərbaycan Prezidentinin ətrafında sıx birləşmiş xalqımız əmindir ki, əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan müstəqil dövlətimizin inkişafı etibarlı əllərdədir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun otuz ilə yaxın Ermənistanın işğalı altında olan torpaqları azad etməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması müstəqil dövlətçilik tariximizin ən şərəfli səhifəsidir", – deyə Baş nazir vurğulayıb.

Sonra ulu öndərin Azərbaycan təhsilinə diqqət və qayğısından bəhs edən "Təhsil millətin gələcəyidir" filmi nümayiş olunub.

Toplantı digər çıxışlarla davam edib.

Azərbaycandan Kənarda Təhsil Almış Mütəxəssislər İctimai Birliyinin sədri Natiq Əhmədov, ABŞ-ın Kolumbiya Universitetinin 2012-ci il məzunu, elm və təhsil naziri Emin Əmrullayev, Moskva Dövlət Universitetinin 1975-ci il məzunu, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, Moskva Dövlət Universitetinin 1980-ci il məzunu, Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Moskva Dövlət Universitetinin 1973-cü il məzunu, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının baş katibi Asəf Hacıyev, Leninqrad Dövlət Universitetinin 1986-cı il məzunu, Milli Məclisin komitə sədri Səməd Seyidov, Moskva Dövlət Universitetinin 1975-ci il məzunu, Almaniyanın Münxen şəhərində "Holmholtz" Elmi-Tədqiqat Mərkəzində "Dinamik sistemlər" şöbəsinin müdiri, Əməkdar elm xadimi Məsud Əfəndiyev bildiriblər ki, Heydər Əliyev ictimai-siyasi quruluşda Azərbaycana uğurla rəhbərlik edib. Hər iki sistemdə Azərbaycanın iqtisadiyyatını möhkəmləndirib, onun şöhrətini, nüfuzunu yüksəklərə qaldırıb, milli mənafeyini, milli mentalitetini, mədəni və mənəvi dəyərlərini qoruyub.

*(ardı 8-ci səhifədə)*

# Dostluq və qardaşlığın çağdaş nümunəsi

**Son 20 ildə Azərbaycan–Türkiyə əməkdaşlığı ən yüksək səviyyəyə çatıb. Əlaqələrin möhkəmlənməsində Azərbaycanın və Türkiyənin ölkə liderlərinin müstəsna rolu olub. İki liderin ortaya qoyduğu güclü iradə, siyasi və iqtisadi münasibətlər əsas olmaqla, bütün sahələrdə öz töhfəsini verib.**



Aparılan düzgün siyasət Azərbaycan və Türkiyənin qlobal səviyyədə siyasi mövqelərini gücləndirib. Təhlükəsizliyin, sabitliyin bərqərar olması, nəqliyyat-logistika imkanlarının dəyərləndirilməsi, birgə layihələrin icrası hər iki ölkənin region üzərində təsir imkanlarının artması üçün əlverişli imkan yaradıb. Bu, eyni zamanda, başqa ölkələrin bölgəyə təsirlərini məhdudlaşdırıb.

Azərbaycan və Türkiyə münasibətləri, sadəcə, siyasi sahədə deyil, həm də iqtisadi sektorda özünü göstərib. Ölkələr arasında ticarət həcmi sürətlə artıb, qoyulan investisiya miqdarı isə milyardlarla dollar təşkil edib. Azərbaycan–Türkiyə iqtisadi əlaqələri ölkəmizin müstəqilliyinin ilk illərindən etibarən inkişaf etməyə başlayıb. Bu istiqamətdə ilkin olaraq 1992-ci il noyabrın 1-də imzalanmış "Azərbaycan–Türkiyə arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında Saziş" mühüm rol oynayıb. İkitərəfli iqtisadi münasibətlərin hərtərəfli inkişafı baxımından 1994-cü ildən sonra həyata keçirilmiş tədbirlər və hüquq-müqavilə bazasının təkmilləşdirilməsi istiqamətində atılmış addımlarla xüsusi mərhələnin əsası qoyulub.

Türkiyə Azərbaycan iqtisadiyyatına ən çox investisiya yatıran dövlət kimi tanınıb. 1995-2021-ci illər ərzində qardaş ölkədən respublikamıza cəlb edilən birbaşa investisiyaların həcmi 13,3 milyard ABŞ dolları (10,4 milyard ABŞ dolları neft sektoru, 2,9 milyard ABŞ dolları (1-ci yer) qeyri-neft sektoru) təşkil edib. Türk şirkətlərinin fəaliyyəti enerji, sənaye, telekommunikasiya, bank, sığorta, inşaat, nəqliyyat, qida, yüngül sənaye (tekstil), səhiyyə kimi sahələrdə daha çox diqqət çəkib. Azərbaycan da Türkiyə iqtisadiyyatına ən çox investisiya yatıran ölkələrdən biridir və son zamanlar bu investisiyalarda mühüm artım müşahidə olunur. Belə ki, hazırda Türkiyədə Azərbaycan sərmayəli 2 minə yaxın şirkət fəaliyyət göstərir.

Xatırladaq ki, 1995-2021-ci illər ərzində Azərbaycandan Türkiyəyə yatırılan birbaşa investisiyaların həcmi 20,3 milyard ABŞ dollarına (17,1 milyard ABŞ dolları neft-kimya sektoru, 3,2 milyard ABŞ dolları qeyri-neft sektoru) çatıb. Sadəcə SOCAR-ın 2018-ci ilin sentyabr ayında 6,3 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda "Petkim" neft-kimya kompleksinin ərazisində inşasını tamamlayaraq istifadəyə verdiyi "Star" neft emalı zavodu Türkiyəyə birdəfəlik yatırılan ən böyük investisiya kimi qeydə alınıb. Ümumilikdə, Türkiyədə investisiya qoyan azərbaycanlı iş adamları həm firma sayı, həm də investisiya həcmi baxımından Mərkəzi Asiya və Qafqaz ölkələri arasında ilk yerdə qərarlaşıb.

Azərbaycan–Türkiyə münasibətlərində regional iqtisadi əməkdaşlıq da xüsusi yerə malikdir. İki dövlətin birgə həyata keçirdiyi fəaliyyətin nəticəsi olaraq, beynəlxalq əhəmiyyətli bir sıra regional layihələr bunun bariz ifadəsidir. Bakı–Tbilisi–Ceyhan neft kəməri (BTC), Bakı–Tbilisi–Ərzurum qaz kəməri (BTƏ), Trans–Anadolu təbii qaz boru xətti (TANAP), Trans–Adriatik boru xətti (TAP) və Bakı–Tbilisi–Qars dəmir yolu xətti (BTQ) layihələri bu baxımdan ən ümdə nümunələrdir.

Yeri gəlmişkən, BTC layihəsinin reallaşması istiqamətində mühüm addım kimi 29 oktyabr 1998-ci il tarixində Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri arasında Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Boru Kəmərinin tikintisi ilə bağlı imzalanmış Ankara Bəyannaməsi, 18 noyabr 1999-cu il tarixində isə ATƏT-in İstanbul Zirvə toplantısında xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti əraziləri ilə Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə nəql edilməsinə dair imzalanmış sazişin icrası nəticəsində 13 iyul 2006-cı il tarixində Türkiyənin Ceyhan limanında Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri istifadəyə verilib.

BTC kimi Bakı–Tbilisi–Ərzurum qaz kəməri də iki ölkə arasındakı regional xarakterli ən mühüm layihələrdən biri olaraq daim dəyərləndirilib. 2007-ci ildən etibarən bu xətt ilə Türkiyəyə qaz nəqlinə başlanıb. BTC əsas ixrac boru kəmərinin fəaliyyətə başlaması, BTƏ qaz boru kəmərinin istismara verilməsi və bununla da, Azərbaycanın dünya bazarına neft və qaz ixrac etmək imkanı əldə etməsi ölkələrimizin imkanlarını daha da genişləndirib.

Sonda onu da qeyd edək ki, işğaldan azad edilən torpaqlarımızın reinteqrasiyası və reabilitasiyası prosesinə türk iş adamlarının cəlbi Türkiyə ilə iqtisadi əlaqələrimizin yeni sahəsini formalaşdırır. Belə ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastruktur layihələrinin, yolların tikintisində türk şirkətləri fəal iştirak edirlər. Bununla yanaşı, işğaldan azad olunmuş ərazilərimizdə turizm, kənd təsərrüfatı, dağ-mədən və hasilat sənayesi, tikinti materialları istehsalı, alternativ enerji kimi potensial sektorların yenidən canlandırılması və ölkə iqtisadiyyatına inteqrasiyası, habelə bölgədə yeni nəqliyyat-logistika dəhlizlərinin formalaşdırılması istiqamətində həyata keçiriləcək tədbirlər Türkiyə ilə əlaqələrimizin genişləndirilməsində yeni perspektivlər vəd edir.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***

# Gözlər Vaşinqtonda: "çətin proses" və közərən ümidlər

## *Kreml Peskovun dili ilə indidən Vaşinqtonda sülh dialoqunun nəticələrini tanımayacağını açıq şəkildə bəyan edib*

**Rəsmi Bakı hələ üç ay bundan əvvəl əmin olduğunu bildirmişdi ki, çətinliklərə baxmayaraq, çoxillik düşmənçilik səhifəsini çevirmək və beynəlxalq hüquq normalarına əsaslanan sülh müqaviləsini bağlamaq mümkündür. Bəli, inam və xoş mərama söykənən dialoq mütləq müsbət nəticə ilə bitməlidir. İndi Vaşinqtona dikilmiş baxışlarda ümid həmişəkindən daha çoxdur...**

ABŞ Dövlət katibi Antoni Blinkenlə Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında baş tutan təkbətək görüşlərdən sonra mətbuata açıqlama verən ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Luis Bono bildirib ki, sülh danışıqları bir çox məsələləri əhatə etdiyi üçün "çətin prosesdir".

Dövlət katibinin hər iki ölkənin xarici işlər nazirləri ilə ötən ilin noyabrında, daha sonra Münxen Təhlükəsizlik Konfransında bir araya gəldiyini deyən L.Bono "danışıqlardan sonra tərəflərin sülh prosesinə sadiq olduğunu gördük. Bu məqamı nəzərə alaraq, Birləşmiş Ştatlar Bakı və İrəvana bir neçə gün müzakirə üçün yenidən imkan yaratdı" deyib. Vaşinqtonun Cənubi Qafqazda dinc gələcəyi hədəfləyən danışıqlara yardım etməkdən məmnunluq duyduğunu və "iki ölkə arasında sülhün və əmin-amanlığın bərpası üçün çalışdığını" qeyd edən diplomat son qərarın onların özündən asılı olacağını vurğulayıb.

Qeyd edək ki, Ceyhun Bayramov və Ararat Mirzoyan Vaşinqtonda Blinkenlə təkbətək və birgə görüşlərinin ardınca hər iki ölkənin nümayəndə heyətləri arasında geniş tərkibdə dialoq baş tutub.

### Qapalı proses nə ilə bitəcək?

Bağlı qapılar arxasında davam edən ikitərəfli danışıqlarla bağlı Birləşmiş Ştatların Dövlət katibi Antoni Blinkenin "problemin yeganə həll yolu və möhkəm sülhə nail olmağın açarı birbaşa dialoqdur" açıqlamasını onun mətbuat katibinin müavini Vedant Patel də təkrarlayıb. Bəs, Ağ evin təşəbbüsü ilə baş tutan ikitərəfli görüşlərə Moskvanın reaksiyası necədir? Əlbəttə, Cənubi Qafqazda sülh təşəbbüslərinin okeanın o tayına adlamasında İrəvanı əsas təqsirkar sayan Kreml bunun əvəzini hansısa formada çıxmağa çalışacaq və bunu mütləq büruzə verəcək. Amma necə?

Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskovun Vaşinqton görüşləri ilə bağlı "Ermənistan və Azərbaycan arasında vəziyyətin nizamlanmasına kömək etmək alqışlana bilər, ancaq Rusiya ilə birgə imzalanmış üçtərəfli sazişlər əsasında" açıqlamasını birbaşa ABŞ Dövlət Departamentinin təşəbbüsünə təhdid kimi də dəyərləndirmək mümkündür. Kreml rəsmisi açıqlamasında daha irəli gedərək açıq mətnlə söyləyib: "İki ölkə arasında mövcud problemlərin həlli və regionda gərginliyin azaldılmasına yönəlmiş bəzi birgə hərəkətlərin və addımların mümkün inkişafı ilk növbədə Rusiya ilə birgə imzalanan üçtərəfli sənədlər əsasında mümkündür. Hələlik nizamlanmaya töhfə verəcək başqa hüquqi əsaslar yoxdur. Müvafiq olaraq, hələlik üçtərəfli sənədlərin heç bir təsiri yoxdur". Yəni, cənab Peskovun demək istədiyi budur ki, Vaşinqtonda qəbul ediləcək, yaxud imzalanacaq sənəd Moskva üçün heç bir hüquqi qüvvəyə malik olmayacaq.

**Bu barədə fikirlərini qəzetimizlə bölüşən Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov** Rusiyanın açıq



şəkildə sülhə qarşı çıxmayacağını bildirir: "Sadəcə olaraq, burada qısqanc yanaşma var. Bu, xarici işlər naziri Lavrovun, onun sözçüsü Zaxarovanın açıqlamalarında olub, indi də Peskovun dilindən eşidirik. Onlar deyirdilər ki, vasitəçi kimi Rusiyanın sülh missiyasına ABŞ, yaxud Avropa İttifaqı sahib çıxmaq istəyir. Biz, eyni zamanda, onu da müşahidə edirik ki, Rusiya İrəvana təzyiqləri kifayət qədər artırıb. Elə Ermənistanın süd məhsullarının, guya sanitariya qaydalarına görə, Rusiya bazarına girməsinə qoyduğu qadağanı misal göstərmək olar. Gürcüstandan Rusiya ərazisinə keçən yol təmirlə bağlı qismən bağlandı və ermənilərə məxsus nəqliyyat vasitələri geri qaytarılır. Nəhayət, Krasnodar diyarında birdən-birə qaz kəmərində təmirə ehtiyac yarandı və Rusiya Ermənistana qazın nəqlini dayandırdı".

**Mövzuya münasibətini bildirən politoloq Yeganə Hacıyeva** da Vaşinqton görüşlərinin, eləcə də bölgədə və münaqişə ətrafında baş verənlərin Kremldə qıcıq yaratmasının səbəbkarının elə Rusiyanın özü olduğunu bildirir: "Çünki Kreml status-kvonu saxlamaq, sülhə aparan yolu uzatmaq istəyir. Hazırda sülh,



qarşılıqlı dialoqla bağlı ikitərəfli, üçtərəfli danışıqların moderatorluğu Vaşinqtonun əlindədir. Çünki postmüharibə dövründə Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında sülh gündəliyi başladı, daha sonra Avropa Birliyi bu platformaya cəlb olundu. Amma nə Rusiyanın, nə Fransanın timsalında Avropa



Birliyinin, nə də yenə Kremlin razılığı ilə İranın bölgədəki yeni reallığa müdaxilələri heç bir nəticə vermədi. Çünki onlar bu məsələlərdə yalnız öz maraqlarını güdürdü. Amma ABŞ-ın mövqeyi ondan ibarət idi ki, tərəflər arasında birbaşa görüş, üz-üzə müzakirələr olmalıdır. Beynəlxalq münasibətlərdə tətbiq edilən təcrübəyə görə, tərəflərin "tet-a-tet" görüşləri daha faydalı olur".

Əsəblərin kifayət qədər tarıma çəkildiyi indiki məqamda sülh meydanının sahibi ABŞ-dır. Oyunun qaydalarını da o, diktə edir.

"Azərbaycan və Ermənistanın xarici işlər nazirləri arasında ABŞ-da keçirilən danışıqlar bir neçə gün davam edəcək". Bu barədə Azərbaycan XİN-in mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə məlumat verib: "Danışıqların əsas mövzusunu sülh sazişi təşkil edir. Hazırda təfərrüatları açıqlaya bilmirik. Görüşlər bir neçə gün davam edəcək".

### Ağ ev közərən ümidləri yandıra biləcəkmi?

"Turan" informasiya agentliyi ABŞ-dakı diplomatik mənbələrə istinadən bildirib ki, görüş zamanı tərəflər sülhə aparan "yol xəritəsi"ni müzakirə edirlər. Agentlik diplomatik mənbələrə istinadən yazır ki, Vaşinqton danışıqlarında "yol xəritəsini" hazırlamaq mümkün olsa, "bir neçə həftə ərzində" sülh müqaviləsini imzalamaq üçün Azərbaycan və Ermənistan liderlərinin görüşü Avropada baş tuta bilər. Amma Vaşinqtonun ardınca eyni formatda görüşün Moskvada keçiriləcəyinin anonsunu Rusiya XİN-in mətbuat katibi Mariya Zaxarova vermişdi: "Belə bir görüş haqqında razılıq əldə edilib, konkret tarix daha sonra elan ediləcək".

Y.Hacıyevanın fikrincə, Ağ ev bu gün sülh niyyətində səmimidir: "Sülh danışıqlarında üçüncü tərəfin iştirakının zərərli tendensiya olduğunu açıq bildirən Vaşinqton həftənin əvvəlindən sülh sazişinin imzalanması yolunda fasiləsiz addımlar atır. Artıq mətnin qaralama versiyası mövcuddur, danışıqlar bunun üzərindən aparılır. Bəli, gərgin və çətin müzakirələr ərazi bütövlüyünün tanınması, beynəlxalq hüququn təmin olunması və regional təhlükəsizliyin digər məsələlərini əhatə edir. Əslində bütün sadalananların hər biri Azərbaycanın maraqlarına uyğundur və bu müzakirələrin sonundan müsbət gözləntilərimiz var".

### "İki ölkə arasında sülh mümkündür"

Belə məlum olur ki, bu minvalla Vaşinqtonda ABŞ Dövlət katibinin iştirakı ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin və heyətlərin görüşü bir həftə də davam edə bilər. Bu məsələ, həqiqətən də, gərgin iş və uzlaşma nöqtələrinin axtarılıb tapılmasını tələb edir. Sonda isə hansısa sənədin qəbul olunacağı mütləqdir. Əks halda Ağ evin təşəbbüsü fiaskoya uğramaqla yanaşı, supergücün beynəlxalq imicinə, nüfuzuna xeyli ziyan dəymiş olacaq.

"Xoş məqam ondan ibarətdir ki, hər iki ölkənin liderləri də artıq sülhün əldə edilməsində maraqlı olduqlarını bəyan ediblər. ABŞ hər zaman olduğu kimi, Cənubi Qafqazda dinc, demokratik və çiçəklənən gələcəyin qurulması üçün töhfə verməyə daim hazırdır", - bunu Patel deyib.

İrəvan ABŞ-ın moderatorluğu ilə keçirilən görüşdə göstərməyə çalışır ki, guya, sülh sazişinin imzalanmasında maraqlıdır. Həm onların baş naziri, həm də XİN rəhbəri üzdə bu prosesin davam etməsi, onların məsələnin həllinə təşəbbüs göstərməsi ilə bağlı açıqlamalar verirdilər. Fəqət onların belə riyakar açıqlamalarından bir neçə gün sonra tamamilə əks mövqedən bəyanatla çıxış etdiklərini eşitdik, ardınca sərhəddə təxribatlarını gördük. Haylar onu da yaxşı anlayırlar ki, məsələ xoşluqla həllini tapmasa, Bakı sülhətəhriketmə missiyalı antiterror əməliyyatlarını dövriyyərə buraxa bilər. Bu, son variantdır.

Vaşinqton dialoquna optimist yanaşan politoloq R.Musabəyov bizimlə müəyyən proqnozlarını da bölüşdü: *"Vaşinqtonda Azərbaycan və Ermənistan XİN rəhbərləri arasında sülh müqaviləsinin başlanğıcı kimi çərçivə sənədi imzalana bilər. Çərçivə sənədin qəbul olunmasına paralel olaraq, "yol xəritəsi" cızıla bilər. Ardınca, qarşılıqlı əlaqələrin bərpası, kommunikasiyaların açılması və bütün bunların iki ölkənin parlamentləri səviyyəsində paraflanması gözlənilləndir. Sülhün əldə olunmasına ümidlər bu imkanı itirmək ehtimalından daha böyükdür".*

***İmran BƏDİRXANLI,***
***"Xalq qəzeti"***



# Azərbaycanı dünyaya tanıdan milli ideologiyanın banisi

**Dünya şöhrətli filosof və alim Yusif əl-Kərdavi yazırdı ki, "Müstəmləkəçiliyin növlərindən ən təhlükəlisi ideya müstəmləkəçiliyidir. O, torpaqları deyil, zehinləri zəbt edir, zəka isə toplardan deyil, qələmdən istifadə edir". Milli ideologiyanın kamilliyi, hər bir fərd üçün cəlbediciliyi dünya iqtisadiyyatının transmillləşdiyi və sivilizasiyaların dialoqunun yenidən vüsət aldığı hazırkı dövrdə bütöv bir toplumun, etnosun milli indentikliyinin mühafizəsi baxımından son dərəcə vacib amildir. Müasir dövrdə dayanıqlı ideoloji sütunlara söykənməsi hər bir millətə üzləşdiyi çətinliklərin və problemlərin öhdəsindən inamla gəlmək, milli məsələlərdə birlik nümayiş etdirmək, qloballaşmanın neqativ təsirlərini dəf etmək imkanı yaradır.**

Tarixi təcrübə sübut edir ki, milli ideologiyanın cəmiyyətdə özünə möhkəm dayaqlar tapması, ictimai təfəkkürdə möhkəmlənməsi görkəmli tarixi şəxsiyyətlərin siyasi və dövlətçilik fəaliyyəti ilə bilavasitə bağlıdır. Əminliklə deyə bilərik ki, bu il anadan olmasının 100 illiyi ölkəmizdə və onun hüdudlarından kənarda ehtiramla qeyd edilən ümummilli lider Heydər Əliyev xalqımızın qəlbində təkcə xilaskar və qurucu lider kimi deyil, eyni zamanda, əsrlər boyu ayrı-ayrı komponentləri formalaşmış azərbaycançılıq ideologiyasını vahid sistem halına salan, cəmiyyətdə üstün mövqeyə malik olmasını, ictimai şüurda möhkəmlənməsini təmin edən dahi strateq kimi yaşayır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" sərəncamında ümummilli liderin milli ideologiyanın formalaşmasındakı tarixi xidmətləri xüsusi qeyd edilir: "Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur".

Ulu öndər Heydər Əliyevin hələ Azərbaycana birinci rəhbərliyi dövründə sovet rejiminin ideoloji buxovlarından qoruyub inkişaf etdirdiyi, ikinci rəhbərliyi illərində isə xalqın mənəvi istinadgahına çevirdiyi azərbaycançılıq ideologiyası əsrlər boyu mürəkkəb tarixi təkamül proseslərindən keçərək, öz qayəsində xalqın dünyagörüşünü, mentalitetini, adət-ənənələrini, psixologiyasını, milli kimliyini, dilini, dinini, folklorunu və s. təcəssüm etdirib, ictimai təfəkkürdə özünə möhkəm dayaqlar tapıb.

Xalqımızın milli ideologiyasının formalaşmasında mühüm dövr XX əsrin əvvəllərinə – mədəni intibahın və maarifçilik hərəkatının geniş vüsət aldığı bir dövrə təsadüf edir. "Türkləşmək, müasirləşmək və islamlaşmaq" formulu bu dövrdə yaşayıb-yaratmış görkəmli maarifçilərin milli şüurun oyanışına, cəmiyyətin ideoloji sütunlarının möhkəmlənməsinə xidmət edən əsərlərinin əsas leytmotivini təşkil edib.

Müsəlman Şərqinin ilk demokratik respublikasının – Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranması isə milli ideologiyanın formalaşması prosesini daha yüksək mərhələyə çatdırıb. Cümhuriyyət dövründə dövlət rəmzləri, milli pul vahidi, milli ordu, ana dili, gənclərin xaricdə təhsili və s. vacib məqamlarla bağlı qəbul olunmuş qərarlar xalqda özünüdərk hissini daha da gücləndirib. Milli dövlətin bolşevik Rusiyasının işğalı nəticəsində 1920-ci ilin aprelində süquta uğramasından sonra Azərbaycanda milli düşüncəli ziyalılar, eləcə də xalqımızın tarixən formalaşmış adət-ənənələri onilliklər ərzində keçmiş sovet imperiyasının sərt təzyiqlərinə məruz qalıb, repressiv tədbirlərlə milliləşmə prosesinin, azərbaycançılığı şərtləndirən dəyərlərin qarşısına ideoloji sipər çəkilib.

Yalnız milli düşüncəli, xalqına qəlbən bağlı, vətənpərvər bir şəxsiyyətin – Heydər Əliyev dühasının 1969-cu ildə respublika rəhbərliyinə irəli çəkilməsi ilə bu neqativ proseslərin qarşısı alınıb, xalqın zəngin tarixinin təbliği, milli-mənəvi irsinin, adət-ənənələrinin, mədəniyyətinin, dilinin, bir sözlə, milli özünəməxsusluğunu şərtləndirən dəyərlərin qorunması istiqamətində ardıcıl addımlar atılıb. Azərbaycanın görkəmli alimlərinin, yazıçılarının, filosoflarının keçmiş rejimin təqiblərindən qorunması, repressiya qurbanlarına bəraətin verilməsi, Nəriman Nərimanovun, Hüseyn Cavidin, Cəfər Cabbarlının, Mehdi Hüseynzadənin Bakıda möhtəşəm abidələrinin ucaldılması, Nizami Gəncəvinin, Əcəmi Naxçıvaninin, İmadəddin Nəsiminin, Nəsirəddin Tusinin, Aşıq Ələsgərin, Molla Pənah Vaqifin, Səməd Vurğunun və başqalarının yubileylərinin İttifaq miqyasında keçirilməsi, Azərbaycan teatrının 100 illiyinin geniş qeyd olunması, habelə digər tədbirlər azərbaycançılıq ideologiyasının ictimai təfəkkürdə möhkəmlənməsində misilsiz rol oynayıb.

Ötən əsrin 70-80-ci illərində xalqın tarixi, ana dili ilə bağlı yazılmış sanballı əsərlərin dövlət mükafatlarına təqdimat edilməsi, milli kinomuzun qızıl fonduna daxil olmuş "Nəsimi", "Dədə Qorqud" "Babək" və digər tarixi filmlərin çəkilişi, Hüseyn Cavidin nəşinin 1981-ci ildə uzaq Sibirdən ölkəyə gətirilməsi, Azərbaycan SSR-nin 1978-ci il tarixli Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusunun təsbit edilməsi, Elmlər Akademiyasının Dilçilik İnstitutunun yaradılması, azərbaycanlı tələbələrin respublikadan kənarda ali təhsil almalarına geniş imkanların yaradılması, Novruz bayramının dövlət səviyyəsində qeyd olunması ulu öndərin insanlarımızda milli özünüdərk hissini gücləndirməyə xidmət edən möhtəşəm qərarlarının çox kiçik bir siyahısıdır.

Ümummilli liderin Azərbaycan dilinə qayğısı xüsusi maraq doğurur. "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı biri-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir". – Ulu öndər Heydər Əliyev çox sonralar Azərbaycan dilinin inkişafı üçün gördüyü işləri belə izah edirdi.

Ümumiyyətlə, həmin dövrlə bağlı aparılan araşdırmalar birmənalı şəkildə deməyə əsas verir ki, böyük strateq Heydər Əliyevin respublikaya rəhbərliyinin bütün fəlsəfəsi, reallaşdırdığı layihələr mahiyyətcə milli dirçəlişə və xalqın gələcək müstəqilliyinə siyasi, iqtisadi və ideoloji əsasların formalaşdırılmasına xidmət edib. 1993-cü ildə xalqın təkidli istəyi ilə hakimiyyətə qayıdan, müdrik qərarları ilə respublikanı üzləşdiyi vətəndaş qarşıdurması və parçalanma təhlükəsindən xilas edən, qanunsuz silahlı birləşmələri zərərsizləşdirən, ictimai-siyasi sabitliyi, hüquq qaydalarını təmin edən ümummilli lider Heydər Əliyev, eyni zamanda, dünya azərbaycanlılarının milli birlik və həmrəyliyinə xidmət edən kompleks tədbirlər həyata keçirib.

Ümummilli lider Heydər Əliyev peşəkar strateq kimi onu da yaxşı bilirdi ki, gənc müstəqil dövlətin qarşısında duran vəzifələrin, milli hədəflərin uğurla reallaşdırılması üçün Azərbaycan hüdudlarında tarixən dinc yanaşı şəraitdə yaşamış xalqların nümayəndələrini birləşdirə biləcək vahid dövlət ideologiyasına ehtiyac var. Bu ideologiya olmadan nə ümumxalq birliyinə nail olmaq, nə cəbhədəki uğursuzluqların qarşısını almaq, nə də daxili sabitliyi təmin etmək mümkün idi. Ölkədə yaşayan milli azlıqların qəbul edəcəyi, ətrafında sıx birləşəcəyi ən kamil ideologiya isə məhz azərbaycançılıq məfkurəsi ola bilərdi. Məsələ burasındadır ki, Sovetlər Birliyi dövründə mövcud olmuş beynəlmiləlçilik ideologiyası yeni ictimai-iqtisadi formasiyada özünü doğrultmurdu. Dini dəyərlərin üstünlüyünə əsaslanan islamçılıq ideologiyası isə dünya sivilizasiyası tərəfindən qəbul edilməməklə yanaşı, Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit olunmuş dünyəvi, demokratik və hüquqi dövlət modeli ilə ziddiyyət təşkil edirdi. Bu reallıqları müdrik siyasətçi kimi düzgün dəyərləndirən ulu öndər haqlı olaraq bu nəticəyə gəlmişdi ki, ölkənin ərazi hüdudlarında yaşayan etnosları birləşdirə biləcək yeganə məqbul ideologiya azərbaycançılıqdır. Tarix bir daha təsdiqlədi ki, məhz bu kamil ideologiya hər bir fərdin dil, din və adət-ənənə kimi üç əsas özül əsasında formalaşan milli kimliyinin qorunmasının real təminatçısı qismində çıxış etmək imkanındadır.

Böyük strateq Heydər Əliyev respublikaya ikinci rəhbərliyi dövründə azərbaycanlıların vahid xalq kimi monolitliyinin möhkəmləndirilməsi baxımından ana dilinin roluna da xüsusi önəm verib. Çıxışlarında xüsusi qeyd edib ki, milli dövlət quruculuğunun mühüm şərtlərindən biri də milli ədəbi dil zəminində rəsmi dil üslubunun formalaşmasıdır. Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan dilinin dövlət dili kimi qəbuluna əlverişli şərait yaransa da, bu məsələdə ulu öndər Heydər Əliyevə qarşı çıxanlar, min bir əziyyətlə yaratdığı dövlətçiliyimizə zərbə vurmaq istəyənlər də az deyildi. Bu maneələri inamla dəf edən, 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmiş ilk milli Konstitusiyamızda Azərbaycan dilinin ana dili kimi təsbit olunmasına nail olan ulu öndər Heydər Əliyevin 9 avqust 2001-ci il tarixdə imzaladığı fərmanla hər il 1 avqust respublikamızda Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir. Bu tarixi fərman xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açmaqla yanaşı, latın qrafikalı Azərbaycan əlifbasının tam şəkildə bərpasını, 2002-ci ildə isə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun qəbulunu təmin edib.

Ulu öndər müstəqil Azərbaycana rəhbərliyi dövründə dövlətin din siyasətində də çoxmillətliliyi nəzərə alıb, tolerantlıq prinsiplərini hər zaman ön plana çəkib. Bu da təsadüfi deyil – din, vicdan azadlığı ilə bağlı anlayışdır və milli kimliyin qorunub saxlanmasında mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Konstitusiyasında hər bir ölkə vətəndaşının vicdan azadlığı birmənalı təsbit edilərək 48-ci maddəsində (Vicdan azadlığı) qeyd edilir ki, "Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək; hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqat etmək; yaxud heç bir dinə etiqat etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır. Dini mərasimlərin yerinə yetirilməsi, ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyilsə, sərbəstdir".

Konstitusiyamızın 18-ci maddəsinin 1-ci və 3-cü bəndlərində göstərilir ki, Azərbaycan Respublikasında din dövlətdən ayrıdır, bütün dini etiqadlar qanun qarşısında bərabərdir, insan şəxsiyyətini alçaldan, insanlıq prinsiplərinə zidd olan dinləri yaymaq və təbliğ etmək qadağandır. Bundan əlavə, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu hər bir şəxsin dinə münasibətini müəyyənləşdirmək və ifadə etmək hüququna, bu hüququ həyata keçirməyə təminat yaradır.

Azərbaycan bu gün dünyanın nadir ölkələrindən biridir ki, burada nəinki İslam dininin, habelə digər səmavi dinlərin təbliği ilə məşğul olan, qanuni əsasda fəaliyyət göstərən dini qurum və konfessiyalara dövlət büdcəsindən maddi yardımlar edilir. Bunda məqsəd, şübhəsiz, həmin qurumların merkantil maraqlarını güdən müxtəlif dağıdıcı-destruktiv qüvvələrin təsiri altına düşməsinə, dini dəyərlərdən çirkin məqsədlər naminə istifadə edilməsinə yol verməməkdir. Respublikamız insanlığın nicatına, humanizmə, insanpərvərliyə çağırış edən bütün sağlam dini qurumların fəaliyyətinə normal şərait yaratsa da, ifrat radikalizmi, ekstremizmi, zorakılığı təşviq edən, qeyri-qanuni mübarizə üsullarına, terrora çağırışlar edən dini-klerikal qruplaşmalara qarşı qanun çərçivəsində barışmaz mövqe tutur.

İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlər (dini cərəyanlar) istisna olmaqla, ölkədə digər dinlərin (dini cərəyanların) yayılması və təbliğinə məhdudiyyət qoyulmur. Respublikamız insanlığın nicatına, humanizmə, insanpərvərliyə çağırış edən edən bütün sağlam dini qurumların fəaliyyətinə normal şərait yaradıb və bu da azərbaycançılıq ideologiyasının mahiyyətindən irəli gəlir.

Ümummilli lider tolerantlığı, polietnik zənginliyi özündə ehtiva edən azərbaycançılıq ideologiyasını Azərbaycanın monoetnik Ermənistanla apardığı informasiya mübarizəsində güclü siyasi və təbliğati silah kimi dəyərləndirirdi. Belə ki, ifrat ksenofobiya, davakar millətçilik üzərində köklənən ermənilik ideologiyasından fərqli olaraq, azərbaycançılıq sağlam vətənpərvərlik ideologiyasıdır. Onun mayasında başqa xalqlarla sülh içində yaşamaq, milli və dini dözümlülük fəlsəfəsi dayanır. Bu baxımdan dünyaya açıq, mütərəqqi ümumbəşəri dəyərlərin təcəssümü olan azərbaycançılıq özünütəcrid üzərində köklənən, qonşu xalqlara düşmənçilik, milli nifrət aşılayan ermənilik ideyasının tam əksidir.

Milli-mədəni irsə yüksək qayğı ilə yanaşan Heydər Əliyev mənəviyyatın, milli əxlaq və düşüncə modellərinin qorunub saxlanılmasını da vacib şərt hesab edirdi. Bu baxımdan, ulu öndərin 13 avqust 2001-ci il tarixli bəyanatı milli-mənəvi dəyərlərin qorunmasına, gənc nəslin tərbiyəsinə mənfi təsir göstərən neqativ amillərin aradan qaldırılmasında mühüm rol oynadı.

Əminliklə deyə bilərik ki, 32 illik müddətdə dövlət müstəqilliyinin Azərbaycan üçün ən böyük töhfələrindən biri sovet dövründə basqılara, təzyiqlərə məruz qalan milli-mənəvi irsin tam bərpa edilməsi, yeni dövrün tələblərinə uyğun gənc nəslə təqdimatıdır. Sovet Azərbaycanına rəhbərliyi dövründə formalaşdırdığı mütərəqqi ənənələri müstəqillik illərində də inamla davam etdirən ulu öndər Heydər Əliyev Azərbaycanın görkəmli şairlərinin, yazıçılarının, elm və incəsənət xadimlərinin yubileylərinin keçirilməsinə, ev-muzeylərinin yaradılmasına xüsusi qayğı ilə yanaşıb.

Cəmiyyətin təkamül prosesində, tərəqqisində və monolitliyində aparıcı amilə çevrilən azərbaycançılıq ideologiyası ümummilli liderə xalqı ətrafında birləşdirmək, milli ideallar ətrafında səfərbər etmək imkanı yaradıb. Ulu öndərin dövlət siyasəti səviyyəsinə yüksəltdiyi azərbaycançılıq ideologiyası dövlətin perspektiv inkişafının əsas yollarını və istiqamətlərini müəyyənləşdirib, dilimizin, mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin qorunmasında öz sözünü deyib.

Bu ideogiyanın inkişafı və onun əsasında milli diaspor hərəkatının genişlənməsi baxımından ən mühüm, taleyüklü hadisələrdən biri ulu öndər Heydər Əliyevin müvafiq sərəncamı əsasında 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi olub. Ümumilkdə, son 20 ildə keçirilən beş qurultay bir daha təsdiq edib ki, azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində Azərbaycan dövlətinin qarşısında duran vəzifələri, onların respublikamıza münasibətdə üzərlərinə düşən mənəvi öhdəlikləri, azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən mükəmməl konsepsiyadır.

Ulu öndər Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin son 20 ildə yürütdüyü siyasət azərbaycançılıq ideologiyasının cəmiyyətdə tam mahiyyəti üzrə qavranılmasına, mənimsənilməsinə, xalqın milli məqsədlər ətrafında səfərbər olunmasına təminat yaradıb. Məhz bu siyasət nəticəsində müstəqil respublikamız qloballaşan dünyanın real təhdidlərinə rəğmən, milli indentikliyini, mədəni-mənəvi dəyərlərini, dilini, dinini, adət-ənənələrini qoruyub saxlayır, sivil bəşəri ideallara sadiqlik göstərir.

Qloballaşma proseslərinin nəticəsi kimi meydana çıxan neqativ meyillərin qarşısında sipər rolunu oynayan azərbaycançılıq ideologiyası gənc nəslin vətənpərvər, milli-mənəvi dəyərlərə sadiqlik ruhunda yetişməsinə də yardımçı olur. Prezident İlham Əliyev qabaqcıl dünya mədəniyyətinin öyrənilərək əxz edilməsi vacibliyini qeyd etməklə yanaşı, xalqın özünəməxsusluğunu şərtləndirən milli-mənəvi dəyərlərin qorunmasını hər zaman vacib məsələ kimi diqqətə çatdırır. Cənab İlham Əliyevin bu sahədəki xidmətləri təkcə milli özünəməxsusluğunu şərtləndirən dəyərlərə yox, həm də xalqın mədəniyyətinə, ədəbiyyatına, folkloruna, incəsənətinə yüksək diqqəti kimi dəyərləndirilməlidir. Milli ideologiyamızın vacib komponentlərini təşkil edən dəyərlərin cəmiyyətdə geniş intişar tapması, möhkəmlənməsi istiqamətində atılan addımlar tarixi irsin gələcək nəsillərə çatdırılması, qəbul olunması üçün həyata keçirilən məqsədyönlü strategiyanın tərkib hissəsidir.

Dahi ingilis yazıçısı Uilyam Şekspir yazırdı: "Hər bir millətin istər tərəqqisi, istərsə də tənəzzülü həmin millətin gənclərinin alacaqları tərbiyədən asılı olur. Gənclik müdrikliyi mənimsəmək, qocalıq isə bu müdrikliyi tətbiq etmək dövrüdür". Bu gün Prezident İlham Əliyevin yeni çalarla zənginləşdirdiyi azərbaycançılıq ideologiyası ətrafında birləşən müasir Azərbaycan gəncliyinin üstün keyfiyyətlərindən biri də onların liberal baxışlara, yüksək tolerantlıq mədəniyyətinə malik olmaları, multikulturalizm ideyasına milli birliyi təmin edən mühüm vasitə kimi yanaşmalarıdır. Hər bir gənc dərk edir ki, etnik və dini mənsubiyyətindən asılı olmayaraq Azərbaycan burada yaşayan bütün vətəndaşların vahid və bölünməz Vətənidir. Müasir gənclik İslam həmrəyliyini yalnız İslamın müxtəlif təriqətləri arasında deyil, həm də bütün səmavi dinlər arasında birləşdirici vasitə kimi dəyərləndirir. Azərbaycan gəncləri tərəfindən milli münasibətlər zəminində heç bir cinayət hadisəsinin qeydə alınmaması da ölkəmizin ciddi uğurlarından biridir.

Müasir gənclik dövlətçilik atributlarına hörmətlə yanaşır, tariximizin, milli-mənəvi dəyərlərimizin, dövlət sərhədlərimizin qorunmasını, Vətən, torpaq uğrunda mübarizəni özünün vətəndaşlıq borcu sayır. Sevindirici haldır ki, İkinci Qarabağ müharibəsinin tarixi Zəfərlə yekunlaşmasında xalq-hakimiyyət birliyi, müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, müdrik diplomatiyası və mükəmməl ordu quruculuğu strategiyası ilə yanaşı, gənclər siyasəti də həlledici rol oynayıb. Başqa sözlə, ölkə gənclərinin kamil milli ideologiya əsasında yetişdirilməsi Vətən müharibəsindəki layiqli Qələbəmizi təmin edib.

Prezident İlham Əliyev 2022-ci ilin idman yekunlarına həsr olunan tədbirdə bununla bağlı deyib: "Tarixi Zəfərimiz hər bir azərbaycanlı üçün, hər bir vətəndaş üçün, bütün dünya azərbaycanlıları üçün qürur mənbəyidir. Biz gələcək nəsli də vətənpərvərlik ruhunda tərbiyə edəcəyik, necə ki, bunu həmişə etmişik. Elə gözəl gənc nəsil yetişdirmişik ki, həm idman arenalarında ölkəmizin bayrağını qaldırır, həm də döyüş meydanında. İkinci Qarabağ müharibəsində iştirak edənlərin mütləq əksəriyyəti gənclər idi – bizim siyasətimiz əsasında yetişən, həm cəmiyyətdə, həm də ailələrdə gözəl tərbiyə alan gənclər idi. Bu amil, əlbəttə ki, bütün sahələrdə özünü göstərir".

Ümumiyyətlə, 44 günlük Vətən müharibəsi azərbaycançılıq ideologiyasının aprobasiyası olub: etnik mənsubiyyətindən, irqindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əqidəsindən asılı olmayaraq, hər bir fərdin ərazi bütövlüyümüzün bərpasında fəal iştirak etməsi, müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında yumruq kimi birləşməsi bu ideologiyanın qüdrətini bütün dünyaya göstərib.

Xüsusi vurğulamaq istərdik ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın həm ali dövlət vəzifəsində, həm də ulu öndər Heydər Əliyevin adını daşıyan əlahiddə statuslu ictimai təşkilatın rəhbəri olaraq həyata keçirdiyi çoxşaxəli layihələr azərbaycançılıq ideologiyasının ictimai təfəkkürdə daha da möhkəmlənməsini təmin edib. Heydər Əliyev Fondunun prezidentinin təşəbbüsü ilə mədəniyyət, musiqi, səhiyyə, elm, təhsil, ekologiya, idman və digər sahələrdə reallaşdırılan layihələr cəmiyyətin mənəvi yüksəlişinə, sosial rifaha, insanlarda humanizm və insanpərvərlik hisslərinin güclənməsinə, ən başlıcası isə, azərbaycançılığın tam mahiyyəti üzrə dünyaya təqdimatına xidmət edir.

Cəmiyyəti milli ideologiya ətrafında toparlayan Azərbaycan Prezidenti İlham Əliyev postmüharibə dövrü üçün müəyyən etdiyi milli hədəfləri – azad edilmiş ərazilərdə bərpa və quruculuq layihələrini, "Böyük Qayıdış" proqramını, Qarabağ ermənilərinin reinteqrasiyası prosesini uğurla reallaşdırır. Dövlət başçısının siyasi iradəsi ilə bir müddət əvvəl Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsinin quraşdırılması müstəqil Azərbaycanın İkinci Qarabağ müharibəsindən sonrakı ikinci ən böyük uğurudur.

Bu möhtəşəm hadisə bir daha göstərir ki, heç bir xarici təzyiq və təhdiddən çəkinməyən, qətiyyətli siyasət yürüdən Prezident İlham Əliyev milli maraqlarımızın, ərazi bötövlüyümüzün, suverenliyimizin ən böyük qarantıdır. Son proseslər fonunda xalqımız bir daha əmin olub ki, ulu öndər Heydər Əliyevin əbədiyaşar ideyalarına tapınan dövlət başçısı Azərbaycanı yaxın illərdə nəinki regionun, ümumən Avropanın ən qüdrətli dövlətlərindən birinə çevirəcək.

***İsaxan VƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının hüquq kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor***

# Azərbaycanda meliorasiya və su təsərrüfatı sisteminin inkişafı ulu öndərin adı ilə bağlıdır

*(əvvəli “Xalq qəzeti”nin ötən sayında)*

1991-1993-cü illərdə respublikamızda cərəyan edən mürəkkəb proseslər – siyasi böhranın, anarxiya mühitinin dərinləşməsi, xalqın canı-qanı bahasına əldə etdiyi dövlətçiliyin itirilməsi təhlükəsinin yaranması bu reallığı bir daha təsdiqlədi ki, yalnız böyük etimada malik liderlər xalqlarının müstəqilliyinə etibarlı təminat yarada, onu qoruyub saxlaya bilərlər.

“Olum, ya ölüm” dilemması qarşısında qalan xalq 1993-cü ilin iyununda qəti qərar verərək böyük dövlət xadimi Heydər Əliyevin Bakıya dəvət olunmasını, hakimiyyətin ona verilməsini tələb etmişdir. Xalq öz tələbində israrlı idi, çünki Heydər Əliyevi tanıyırdı, heç bir qüvvə onu bu qərarından döndərə bilməzdi. 1993-cü il iyunun 9-da xalqın israrlı tələblərindən sonra Heydər Əliyev Bakıya gəldi. Xalq dərindən nəfəs aldı, rahatlıq tapdı: ağıl və zəka, Heydər Əliyev dühası düşmən qarşısında ən etibarlı sipər idi.

Siyasi hakimiyyətə qayıdan Heydər Əliyev böyük dövlətçilik təfəkkürü ilə Azərbaycanda cövlan edən mürəkkəb prosesləri təhlil edərək, məmləkətin tarixi taleyinin xilası yolunda qəti addımlar atdı.

Müstəqilliyin ilk illərində ulu öndər Heydər Əliyev Azərbaycanda siyasi sabitliyin bərpasına nail olmaqla yanaşı, ölkənin iqtisadi müstəqilliyinin əsaslarını yaratmaq imkanlarını nəzərdən keçirdi. Bunun üçün, ilk növbədə Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarının ölkənin gələcək inkişafına yönəldilməsini nəzərdə tutan neft strategiyası işlənib hazırlandı. Ümummilli liderin müəllifi olduğu yeni neft strategiyası müstəqil Azərbaycanın dinamik inkişafı üçün möhkəm təməllər yaratdı.

Ulu öndər Heydər Əliyev dahi və nüfuzlu bir şəxsiyyət olaraq özünün parlaq zəkası ilə Azərbaycanı olduqca mürəkkəb zamanın dalğaları arasından salamat çıxarıb ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırdı. Ümummilli lider respublikamızı üzləşdiyi bir çox faciələrdən qurtardı, müdrik və uzaqgörən addımları ilə onu davamlı, sabit inkişaf yoluna çıxardı, irəli sürdüyü dövlətçilik konsepsiyası mahiyyət etibarı ilə Azərbaycanın tarixi ənənələrini və müasir Avropa dəyərlərini birləşdirən yeni inkişaf modeli kimi özünü doğrultdu.

İctimai - siyasi sabitliyi və sosial- iqtisadi inkişafı bu modelin əsas dayağına çevirən Heydər Əliyev cəmiyyətdə dayanıqlı milli birliyə nail olmaq üçün hər şeydən öncə, insan hüquq və azadlıqlarının maksimum təminatı məsələsinə xüsusi diqqət yetirdi. Özünəməxsus müdrikliklə bəyan etdi ki, siyasi sabitlik yaratmadan yeni idarəetmə sisteminə keçidi reallaşdırmaq, bazar iqtisadiyyatı və demokratiya kimi fundamental prinsiplərin tətbiqinə nail olmaq mümkün deyildir. O, Azərbaycanda milli dövlətçiliyin prioritet inkişaf istiqamətlərini müəyyənləşdirərkən xalqın milli mentalitetinin səciyyəvi cəhətlərini də nəzərə aldı.

Ümummilli lider özünün zəngin iqtisadi bilik və təcrübəsi əsasında Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirmiş, bu sahədə mövcud problemlərin həlli yollarını elmi-nəzəri və praktiki əsasda göstərmiş, ictimai-iqtisadi formasiyadan azad bazar iqtisadiyyatına optimal keçid modelini özünəməxsus entuziazmla irəli sürmüş, onun həyata keçirilməsinə çalışmışdır. Demokratik inkişaf yolu ilə irəliləyən Azərbaycanda da bazar iqtisadiyyatı prinsipləri – xüsusi mülkiyyətçilik, azad sahibkarlıq fəaliyyəti, özəlləşdirmə, qeyri-neft sektorunun, sənayenin inkişafı və sosial infrastrukturun yeniləşdirilməsi prioritet seçilmişdir. İqtisadi sahədə həyata keçirilən islahatların əsasında bazar iqtisadiyyatının formalaşdırılması yolu ilə ümumi daxili məhsul istehsalını artırmaq, qeyri-neft sektorunun sürətli inkişafını təmin etmək məqsədi dayanmışdır.

1993 -1995 - ci illərdə Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli və məqsədyönlü tədbirlər ölkədə əvvəllər baş alıb gedən özbaşınalıqlara və xaosa son qoymuş, ictimai-siyasi sabitliyi təmin etmiş, respublikada hərtərəfli sosial - iqtisadi siyasət aparmaq və beynəlxalq iqtisadi sistemə inteqrasiya olunmaq üçün əlverişli şərait yaratmışdır. 1995 - ci ildən başlayaraq ardıcıl aparılan islahatlar nəticəsində iqtisadiyyatın inkişafında mühüm irəliləyişlərə, xüsusilə də aqrar sahədə yüksək nəticələrə nail olunmuşdur. Aqrar islahatlar başa çatdıqdan sonra kənd təsərrüfatında böyük uğurlar qazanılmış və rekord göstəricilər əldə edilmişdir.

Aqrar islahatının bir hissəsi olaraq meliorasiya və su təsərrüfatı sahəsində islahatların torpaq islahatı ilə birlikdə, kompleks şəkildə aparılması nəzərdə tutuldu. İslahatların normativ-hüquqi bazası yaradıldı. Bu məqsədlə 30-dan artıq normativ-hüquqi sənəd hazırlandı.

Bu sənədlərdən ən mühümü ümummilli lider tərəfindən 1996-cı ildə imzalanmış “Meliorasiya və irriqasiya haqqında” Azərbaycan Respublikasının Qanunu və onun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1996-cı il tarixli fərmanıdır.



Bu qanunla meliorasiya və irriqasiya sahəsində fəaliyyətin əsas istiqamətləri və prinsipləri, meliorasiya və irriqasiya obyektlərinin mülkiyyət hüququ müəyyənləşdirildi. Qanun meliorasiya və irriqasiya sahəsində dövlət idarəçiliyinin əsaslarını, meliorasiya və irriqasiya tədbirlərinin aparılma qaydalarını müəyyən etdi.

Yaranmış vəziyyətdən çıxmaq, sudan istifadənin səmərəliliyini yüksəltmək, meliorasiya və irriqasiya obyektləri üzərində mülkiyyət münasibətlərini təkmilləşdirmək və sahənin gələcək inkişafına xarici investisiyaların cəlb olunmasını təmin etmək məqsədilə müvafiq islahatların həyata keçirilməsinin vacibliyini vurğulamışdır.

Müstəqilliyinin başlanğıcında ölkəmizin iqtisadi çətinliyinə baxmayaraq, ulu öndərin göstərişlərini əsas tutaraq respublikaya qoyulan xarici investisiyalar ilk növbədə meliorasiya və su təsərrüfatı sahəsinə yönəldilmişdir. Xarici investisiyaların səmərəliliyini təmin etmək məqsədilə tikintisi yarımçıq qalmış 150 obyektdən respublika üçün mühüm əhəmiyyət kəsb edən 11 obyekt seçilmiş və onlardan iqtisadiyyatımız üçün ən vacib olan üç obyektin - Baş Mil - Muğan kollektorunun tikintisinin, Samur - Abşeron suvarma sisteminin yenidən qurulmasının və Naxçıvan Muxtar Respublikasında Vayxır su anbarının tikintisinin birinci növbədə maliyyələşdirilməsi qərara alınmışdır.

Həmin illərdə Azərbaycanın maliyyə vəziyyəti içməli su təchizatı sektorunda da böyük layihələri həyata keçirməyə imkan vermirdi. Bunu nəzərə alan ümummilli lider əhalinin su təminatının yaxşılaşdırılması üçün beynəlxalq maliyyə təşkilatlarından kredit cəlb etmək təşəbbüsünü irəli sürür. 1995-ci ildə Ceyranbatan və Kür sutəmizləyici qurğularının yenidən qurulması üçün Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankından dövlət zəmanətli kreditlərin cəlbi üçün danışıqlara başlanıldı. O zaman beynəlxalq maliyyə qurumları yenicə müstəqillik qazanmış postsovet ölkələrinə irihəcmli güzəştli kredit ayırmağa ehtiyatla yanaşırdı. Heydər Əliyevin nüfuzu sayəsində bu məsələ də müsbət həllini tapdı və “Böyük Bakının su təchizatı sisteminin yenidən qurulması” layihəsinə güzəştli şərtlərlə 88,7 milyon dollar güzəştli kredit ayrıldı. Bu vəsait hesabına Kür və Ceyranbatan sutəmizləyici qurğularında, 250-dən artıq məhəllədaxili nasos stansiyasında əsaslı yenidənqurma işləri aparıldı, su təsərrüfatının maddi-texniki bazası gücləndirildi. Həyata keçirilmiş tədbirlər nəticəsində suyun keyfiyyət göstəricilərinin standartlara uyğunlaşdırılması paytaxt sakinlərinin təmiz içməli su ilə təminatına imkan yaratdı.

Ümummilli lider Heydər Əliyevə İslam dünyasının böyük hörmətinin və ehtiramının rəmzi olaraq, İslam İnkişaf Bankının rəhbərliyi Baş Mil-Muğan kollektorunun tikintisinin davam etdirilməsinə güzəştli kredit və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması sxeminin hazırlanmasına əvəzsiz olaraq vəsait ayırdı.

Xarici maliyyə qurumlarının krediti və respublika büdcəsindən ayrılan vəsait hesabına 2000-2006-cı illərdə 81,2 kilometr uzunluğunda Baş Mil-Muğan kollektorunun tikintisi yüksək keyfiyyətlə tikilərək istifadəyə verildi.

Baş Mil-Muğan kollektorunun istismara verilməsi ilə 500 min hektar suvarılan torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılmasına və onun xidmət etdiyi ərazidə kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına imkan yarandı.

Samur - Abşeron suvarma sistemi ölkəmizin şimal bölgəsinin, eləcə də Bakı - Sumqayıt şəhərlərinin və Abşeron yarımadasının yaşayış məntəqələrini, kənd təsərrüfatı və sənaye müəssisələrini içməli, suvarma və texniki su ilə təmin edən irimiqyaslı kompleks su təsərrüfatı obyektləri olduğunu müəyyən edən ulu öndərimiz Samur çayı üzərində baş sugötürücü qurğunun və Samur-Abşeron kanalının Vəlvələçaya qədər olan hissəsinin yenidən qurulması, Xanarx kanalının, Vəlvələçay-Taxtakörpü, Taxtakörpü-Ceyranbatan kanallarının və Taxtakörpü su anbarının tikintisinin başa çatdırılması ideyasını verdi.

Hazırda bu sistemin istifadəyə verilməsi ilə respublikanın şimal bölgəsinin 150 min hektara yaxın torpaq sahəsinin suvarma suyu ilə təminatı yaxşılaşdırılmış və 30 min hektar yeni suvarılan torpaqlar su ilə təmin olunmuş, Bakı, Sumqayıt şəhərlərinin, habelə Abşeron yarımadasının içməli, suvarma və texniki suya olan tələbatının 60 faizi təmin edilmişdir.

1990-cı illərin ikinci yarısında neft gəlirlərinin artımını nəzərə alaraq, böyük uzaqgörənlik nümayiş etdirən Heydər Əliyev Bakının dayanıqlı və keyfiyyətli su təchizatı üçün Oğuz-Qəbələ zonasının yeraltı sularından istifadə ilə bağlı təşəbbüslə çıxış etdi. 2002-ci il dekabrın 19-da keçirilən müşavirədə ulu öndər paytaxta yüksək keyfiyyətli bulaq suyunun gətirilməsi vaxtının çatdığını bildirdi. Bu məqsədlə Oğuz-Qəbələ zonasının yeraltı sularının öyrənilməsi barədə tapşırıq verdi. Ulu öndərin irəli sürdüyü bu ideya Heydər Əliyev kursunun layiqli davamçısı möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirildi. 2007-ci ilin mart ayında dövlət başçısının iştirakı ilə təməli qoyulmuş Oğuz-Qəbələ-Bakı su kəməri 28 dekabr 2010-cu ildə istismara verildi. Dövlət Neft Fondunun vəsaiti hesabına maliyyələşdirilən Oğuz-Qəbələ-Bakı su kəmərinin istifadəyə verilməsi ilə Bakı şəhərinin içməli su təchizatında sabitlik təmin olundu.

Ulu öndərin “Bakıya bol-bol su gətirəcəyik” ideyasına sadiq qalan Prezident İlham Əliyev paytaxtın dayanıqlı içməli su təminatı üçün yeni təşəbbüslərlə çıxış etdi. 2011-ci ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə Ceyranbatan gölünün yaxınlığında ultrasüzgəc texnologiyasına əsaslanan yeni kompleksin təməli qoyuldu. Ən son texnologiya əsasında tikilən kompleks 2015-ci ilin oktyabrında istifadəyə verildi. Məhsuldarlığı saniyədə 6 kubmetr olan bu qurğu Abşeron yarımadasında yaşayan 1 milyona yaxın insanın içməli su təminatına öz töhfəsini verməkdədir. Eyni zamanda, ulu öndər Heydər Əliyevin 1970-1980-ci illərdə başladığı işlərin məntiqi davamı olaraq, cənab Prezidentin rəhbərliyi ilə Bakı şəhəri və Abşeron yarımadası ilə yanaşı, ölkənin regionlarında da mühüm su və kanalizasiya layihələri icra olundu. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq 33 şəhər və rayon mərkəzində içməli və tullantı su, 13-də içməli su şəbəkələrinin, 20-də isə tullantı sutəmizləyici qurğularının tikintisi, əhalisinin sayı 1 milyon 500 min nəfər olan 1000-dən çox kəndin içməli su təchizatının yaxşılaşdırılması ilə bağlı işlər başa çatdırıldı.

“Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır” – deyən ulu öndər bütün dövrlərdə doğma xalqına sədaqətlə xidmət etmişdir.

Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında ən böyük tarixi xidmətlərindən biri dünyanı bürümüş iqtisadi böhranların, münaqişələrin hökm sürdüyü çətin bir şəraitdə ölkəmizin onun tərəfindən əsası qoyulmuş uğurlu inkişaf strategiyasının davam etdirilməsi kimi çox böyük məsuliyyətli və taleyüklü bir vəzifəni şərəflə irəli apara biləcək unikal dövlət idarəçiliyi təfəkkürünə malik olan cənab İlham Əliyevi xalqımıza bəxş etməsidir.

Azərbaycan xalqı dövlətimizin əldə etdiyi bütün uğurlara görə ulu öndər Heydər Əliyevə minnətdardır. Xalqımız ümummilli liderə həm də ona görə minnətdardır ki, İlham Əliyev kimi lideri bizə bəxş etdi. Çünki məhz İlham Əliyevin sayəsində bu gün Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. Bu gün bütün dünya Azərbaycana qibtə edir, uğurlarımız, qələbələrimiz heyranlıqla qarşılanır. Xüsusilə 44 günlük Vətən müharibəsindəki tarixi Zəfərimiz Azərbaycanı bütün dünyaya qalib ölkə, xalqımızı isə qəhrəman xalq kimi tanıtdı. Ardıcıl olaraq həyata keçirilmiş məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətini daha da gücləndirdi və 44 günlük Vətən müharibəsində parlaq Qələbənin qazanılmasına güclü zəmin yaratdı.

İki ildir ki, böyük qürurla bəhs etdiyimiz tarixi zəfərimiz və onun əsasında işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri böyük səylərin, qətiyyətin, dəyişməz mövqeyin, ümumiləşdirilmiş şəkildə qeyd etsək, ədalətə və beynəlxalq hüquqa əsaslanan müstəqil siyasətin nəticəsidir.

Çox böyük fəxarətlə qeyd etmək olar ki, Azərbaycan dövlətinin yaradıcısı Heydər Əliyevin siyasi xətti və ideyaları möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən layiqincə və müvəffəqiyyətlə davam etdirilir. Azərbaycanda müstəqil, demokratik, hüquqi dövlət quruculuğu sahəsində, iqtisadiyyatımızın yenidən qurulmasında, davamlı inkişaf yoluna çıxmasında, milli adət-ənənələrimizin qorunub saxlanılmasında və digər istiqamətlərdə böyük nailiyyətlər əldə olunur.

Möhtərəm Prezidentimizin rəhbərliyi altında ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atmış, beynəlxalq nüfuzu artmış, 30 ilə yaxın bir müddətdə işğal altında olan əzəli və doğma Qarabağımız işğaldan azad edilmişdir. Ölkədə aparılan siyasi-iqtisadi islahatlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Ölkəmizdə təhlükəsizlik və sabitlik təmin olunub.

Hazırda Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin kollektivi fenomen şəxsiyyət Heydər Əliyevin anadan olmasının 100 illiyinin qeyd edilməsinə böyük coşqu ilə hazırlaşır və onun əziz xatirəsinə ehtiram əlaməti olaraq, Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi altında iqtisadiyyatımızın inkişafında mühüm əhəmiyyət kəsb edən meliorasiya və su təsərrüfatı sahəsində müasir idarəetmə sisteminin təşkili, innovativ metodların, yeni suvarma texnologiyalarının və texnikanın tətbiqi, coğrafi elektron informasiya sisteminin yaradılması, işğaldan azad olunan ərazilərdə Xaçınçay, Köndələnçay su anbarının və magistral kanalının təmir-bərpası, Tərtərçay sol sahil kanalının yenidənqurulması və digər bu kimi işlər uğurla davam etdirilir. Eyni zamanda, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının ərazilərində meliorasiya və su təsərrüfatı komplekslərinin bərpası, eləcə də Qız qalası su anbarından su götürən magistral kanalın tikintisinin, su tutumu 90,8 milyon kubmetr olan Həkəriçay və Qubadlı rayonu ərazisində yerləşən sututumu 67 milyon kubmetr olan Bərgüşadçay su anbarlarının texniki-iqtisadi əsaslandırmasının və layihə sənədlərinin hazırlanması, Qubadlı və Zəngilan rayonlarının 12 min hektara yaxın əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi üçün sututumu 26,7 milyon kubmetr olan Zabuxçay su anbarının və magistral boru kəmərlərinin layihələndirilməsi və tikintisi işlərinin aparılmasına başlanılmışdır.

Cari ildə Zəngilan, Qubadlı, Kəlbəcər və Laçın rayonları üzrə meliorasiya və su təsərrüfatı komplekslərinin bərpası ilə əlaqədar texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədlərinin hazırlanması işlərinə başlanılacaqdır.

Şuşa və Laçın şəhərləri, Kəlbəcər, Qubadlı, Zəngilan, Ağdam, Cəbrayıl və Füzuli rayonlarında içməli su təchizatının bərpası məqsədilə təxirəsalınmaz işlər görülmüşdür. Bəzi ərazilərdə yeni layihələrin icrasına başlanılmışdır.

2021-ci ildə Şuşa şəhərinin içməli su təchizatı sistemlərinin yenidən qurulması layihəsi üzrə işlərə başlanılmış, Kiçik Kirs-Şuşa magistral su kəmərinin istismara yararsız 5,3 kilometrlik hissəsi polad borularla yenilənmiş, şəhərin perspektiv inkişafı nəzərə alınaraq alternativ mənbə yaradılmışdır. Layihə çərçivəsində Zarıslı çayının məcrasında tutumu 25 min kubmetr olan sutoplayıcı bənd, nasos stansiyası, 2,6 kilometr uzunluğunda yeni kəmər inşa edilmiş və 2022-ci ilin dekabrında mənbədən şəhərə suyun verilməsi təmin olunmuşdur. Hazırda şəhərin relyef baxımından hündür nöqtələrində mərkəzi su anbarlarının tikintisi davam etdirilir. Növbəti mərhələdə şəhərdaxili su, kanalizasiya və yağış suları şəbəkələrinin, içməli və tullantı sutəmizləyici qurğuların, nasos stansiyasının inşası nəzərdə tutulur.

Laçın şəhərinin içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin icrası da uğurla davam etdirilir. Layihə perspektiv inkişaf nəzərə alınmaqla 18 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinə hesablanmışdır. Şəhəri dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə Sus kəndi ərazisində 6 subartezian quyusu bərpa edilir, quyu zonasında sutoplayıcı anbar və nasos stansiyası, zərərsizləşdirici qurğu inşa olunur. Su mənbəyindən 426-114 mm diametrli polad borularla 10 kilometr uzunluğunda yüksəktəzyiqli magistral su kəmərinin, nasos stansiyasının, ümumi tutumu 4 min kubmetr olan 9 anbarın tikintisi və bərpası işləri davam etdirilir. İnşası planlaşdırılan 58 kilometrlik içməli su və 49 kilometr tullantı su şəbəkəsinin böyük hissəsi artıq inşa edilmişdir.

Ağdam, Füzuli və Cəbrayıl şəhərlərinin baş planlarına uyğun olaraq, su mənbələri müəyyən edilərək anbarların, magistral su kəmərlərinin şəhərdaxili içməli və tullantı su şəbəkələrinin, təmizləyici qurğuların layihələri hazırlanmışdır.

Suqovuşan qəsəbəsinin və Talış kəndinin dayanıqlı su təminatı məqsədilə subartezian quyuları bərpa edilmiş, quyu zonasından 3 kilometr uzunluğunda magistral su xətti çəkilmiş, paylayıcı şəbəkələr yenidən qurulmuşdur.

Bu və digər tədbirlərin həyata keçirilməsi su ehtiyatlarından səmərəli istifadə edilməsinə, əhalinin içməli suya olan tələbatının ödənilməsinə, suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılmasına və nəticədə ölkə əhalisinin daxili istehsal hesabına çörək və ərzaq məhsulları ilə etibarlı təminatına geniş imkanlar yaradacaqdır.

Fəxarət hissi ilə qeyd etməliyik ki, meliorasiya və su təsərrüfatı sahəsində qazandığımız hər bir uğurun əsasında məhz ulu öndərin ideyaları, vaxtı ilə müəyyən etdiyi strateji təməllər dayanır.

Böyük dövlət xadimi və dahi şəxsiyyət Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf kursu, Heydər Əliyev siyasəti, Heydər Əliyev fəlsəfəsi, Heydər Əliyev ideologiyası bu gün Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən əzm və uğurla davam etdirilir. Heydər Əliyev kimi siyasət və idarəçilik korifeyindən sonra ölkənin idarə edilməsi nə qədər çətin görünsə də, möhtərəm Prezidentimiz cənab İlham Əliyev bu işin öhdəsindən layiqincə gəlir və öz fəaliyyəti ilə artıq sübut etmişdir ki, Azərbaycan xalqını xoşbəxt gələcəyə aparan böyük liderdir.

Bütün Azərbaycan xalqı kimi, biz çoxminli melioratorların və su təsərrüfatı işçilərinin də ümummilli liderə, bu dahi şəxsiyyətə ehtiramı və ümumxalq sevgisi əbədidir. Bu gün hər bir Azərbaycan vətəndaşı kimi, biz də dərin iftixar hissi ilə qeyd edirik ki, müasir müstəqil Azərbaycan dövləti ümummilli liderimizin şah əsəridir, onun öz xalqı qarşısında tarixi xidmətidir.

İllər ötəcək, əsrlər keçəcək, nəsillər dəyişəcək, amma Azərbaycanda Heydər Əliyevin adı daim yaşayacaq, xatirəsi hörmət və ehtiramla yad ediləcəkdir.

***Zaur MİKAYILOV,***
***Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri***

# Ümummilli liderin Azərbaycan Respublikasının Konstitusiyasının qəbulunda, inkişafında və gələcəyində rolu

**Hələ Sovet İttifaqı dövründə ümummilli liderin 21 aprel 1978-ci il tarixdə qəbul edilmiş Azərbaycan SSR-in Konstitusiyasının hazırlanmasında, qəbulunda və həmin konstitusiyaya Azərbaycan dilinin dövlət dili olması haqqında 73-cü maddənin daxil edilməsi ilə bağlı böyük xidmətləri olmuşdur. Bu, ümummilli liderin ana dili məsələsindəki prinsipiallığının nəticəsidir.**



***"Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə".***

**Heydər ƏLİYEV**

Azərbaycan Sovet İttifaqı dövründə ana dilinə Konstitusiya səviyyəsində dövlət dili statusu verilmiş yeganə müsəlman respublikası idi. Başqa cür ifadə etsək, həmin dönəmdə Sovet İttifaqının 15 respublikasından yalnız ikisində – Gürcüstanın və Ermənistanın konstitusiyalarında dövlət dili haqqında maddə var idi. Digər respublikaların heç birinin əsas qanunlarında, o cümlədən, Baltikyanı respublikaların konstitusiyalarında belə bir maddə əks olunmamışdı.

Ümummilli liderin rəhbərliyi ilə hazırlanmış Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasının 33-cü maddəsində göstərilirdi ki, Azərbaycan SSR-də qadınlar və kişilər bərabər hüquqlara malikdirlər. Qeyd etmək vacibdir ki, Azərbaycan Sovet İttifaqının tərkibində olmasına baxmayaraq, məhz qadın hüquqları məsələsində dünyanın bir sıra aparıcı və demokratik ölkələrini üstələmişdi.

Əsas Qanun respublikamızın hər bir vətəndaşına təhsil almaqda, seçdiyi ixtisas üzrə işləməkdə bərabər hüquq və təminatlar verir, hərtərəfli ahəngdar inkişaf üçün hər cür şərait yaradırdı.

Ümummilli liderin 1969–1982-ci illərdəki əvəzsiz xidmətlərinə nəzər saldıqda bir daha aydın olur ki, Heydər Əliyev hələ o dövrdə böyük təcrübəsi və siyasi iradəsi sayəsində ölkəmizdə qanunçuluğun möhkəmləndirilməsinə nail olaraq müstəqilliyimizə zəmin yaradan uzaqgörən və müdrik addımlar atmışdır.

Ümummilli lider 1993-cü ildə xalqı və dövləti böyük təhlükələrdən qorumaq üçün xalqın təkidli xahişinə cavab verərək hakimiyyətə qayıtdıqdan sonra ölkədə ictimai-siyasi sabitliyi, qanunçuluğu bərpa etmiş, eyni zamanda insan hüquq və azadlıqlarının təminatına xidmət edən hüquqi islahatların müəllifi olmuşdur. Ulu öndərin müstəqil Azərbaycana rəhbərliyi illərində bütün sahələrin inkişafında tərəqqi dövrü başlanmışdı. Məhz bu dövrdə ölkəmizin inkişafı və çiçəklənməsi üçün fundamental işlər görülmüşdü.

Heydər Əliyev şəxsiyyətinin rəhbərliyi ilə hazırlanaraq 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi müəyyən etdi. Konstitusiyanın 48 maddəsi əsas insan və vətəndaş hüquq və azadlıqlarına həsr olunmuşdur.

Azərbaycan Respublikasının Konstitusiyası insan hüquqlarının təsbitində paternalizm konsepsiyasından qətiyyətlə imtina etdi. Əsas Qanunda insan hüquq və azadlıqları dövlət hakimiyyəti iradəsinin təzahürü kimi insanın mövcudluq faktı, insanın təbiəti ilə şərtlənən azadlıq ölçüsü kimi götürülməklə, insan hüquqlarının təsbiti və müdafiəsi təbii hüquq norması üzərində quruldu.

Konstitusiyanın 24-cü maddəsinin ikinci hissəsində bildirilir ki, "hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır". Bu müddəanın söykəndiyi fəlsəfəyə görə insan hüquqları onların normativ təsbitindən kənar və asılı olmayaraq mövcuddur və konstitusiyamızda öz əksini tapmış əsas hüquq və azadlıqların siyahısına daxil olmaqla insan hüquqlarının qanunvericilikdə, xüsusilə, Əsas Qanun səviyyəsində pozitivləşdirməklə onların dəqiq hüquqi prosedurlar vasitəsilə lazımi müdafiəsi üçün prinsipial əhəmiyyət kəsb edir.

İnsan hüquqları sahəsində beynəlxalq standartları adekvat əks etdirməklə yanaşı, Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin ikinci hissəsində, eyni zamanda belə bir mütərəqqi müddəa nəzərdə tutulmuşdur – "Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir".

İnsan hüquqlarının konstitusiya təsbitinin əsasında duran mühüm prinsiplərdən biri də Əsas Qanunun 25-ci maddəsində əks olunmuş bərabərlik hüququdur. Belə ki, bərabərlik hüququnu təmin etmədən insanın bütün digər hüquq və azadlıqlarının real qorunmasına nail olmaq mümkün deyildir. Buna görə də konstitusiyanın 25-ci maddəsində göstərilir ki, hamı qanun və məhkəmə qarşısında bərabərdir. Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır. Dövlət irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

Konstitusiyada Azərbaycan Respublikası vətəndaşlarının siyasi hüquq və azadlıqları da geniş təsbit olunmuşdur. Seçki və dövlətin idarə olunmasında iştirak etmək hüququ bütün digər siyasi hüquq və azadlıqları ehtiva edən ən ümumi hüquqlardır.

Konstitusiyada öz əksini tapmış digər siyasi hüquq və azadlıqlar arasında vətəndaşlıq hüququnu, cəmiyyətin siyasi həyatında iştirak etmək hüququnu, dövlət orqanlarına şəxsən və ya kollektiv surətdə şikayət və təkliflər göndərmək və bu orqanların fəaliyyətini tənqid etmək imkanı verən müraciət hüququnu qeyd etmək olar.

Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaşların sosial-iqtisadi və mədəni hüquq və azadlıqlarının təsbit edilməsində də prinsipcə yeni ideologiyaya əsaslanır. Bu, ilk növbədə, onunla bağlıdır ki, vətəndaş cəmiyyətinin mənafeyinin dövlət mənafeyindən üstün olduğu elan edilir. Buna əsaslanaraq, Əsas Qanun mühüm hüquq olan mülkiyyət hüququna, o cümlədən əqli mülkiyyət hüququna təminat verir. Əmlakın tam müsadirəsinə yol verilmir.

Ümummilli lider Heydər Əliyev göstərirdi ki, "bizim konstitusiyamız Azərbaycan Respublikasının tarixi ənənələrini, xüsusiyyətlərini əks etdirir. O, Azərbaycan Respublikasında demokratik hüquqi dövlətin qurulmasını, ölkəmizdə olan bütün vətəndaşların hüquq və azadlıqlarını təmin edəcəkdir. Bu, bizim özümüzün Konstitusiyamızdır, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır". Ulu öndər yazırdı: "Konstitusiya elə bir sənəddir ki, o, gərək uzun müddət yaşasın. Onun ömrü uzun olmalıdır. Konstitusiya elə bir sənəddir ki, o dövlətin təməl dirəklərindən birini təşkil etməklə yanaşı, uzunmüddətli proseslərə təsir gücünə malik olaraq həm bu günü, həm də gələcəyi tamamilə əks etdirə bilməlidir".

Konstitusiyanın 23-cü maddəsi Azərbaycan dilinin dövlət dili olmasını özündə əks etdirir. Ümummilli lider söyləyirdi: "Dil ən böyük sərvətdir. Dilimiz zəngindir, çox ahəngdar dildir, dilimizin söz ehtiyatı çox böyükdür, şəxsən mən bu dili sevirəm. Ana dilini bilməyən tarixini bilməz". Ölkəmizdə bələdiyyələrin yaranması, formalaşması və hüquqi bazası ümummilli liderin adı ilə bağlıdır. Belə ki, yeni konstitusiyada seçkili bələdiyyə orqanlarının yaradılması nəzərdə tutulmuşdur. Əsas Qanunun dördüncü bölməsi bütövlükdə yerli özünüidarəetməyə həsr olunmuşdur. Adıçəkilən bölmədə öz əksini tapmış 142-ci maddədə göstərilir ki, yerli özünüidarəni bələdiyyələr həyata keçirir. Bələdiyyələr seçkilər əsasında yaradılır. Bələdiyyələrin statusunun əsasları Konstitusiya ilə, bələdiyyələrə seçkilərin qaydaları isə qanunla müəyyən edilir.

Ulu öndərin təşəbbüsü ilə 2 iyul 1999-cu ildə "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu və "Bələdiyyələrə seçkilərin qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu, 7 dekabr 1999-cu ildə "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu, 14 aprel 2000-ci il tarixdə "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu, habelə bələdiyyələrlə bağlı digər qanunlar qəbul edilmişdir.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası nəinki ölkənin, habelə xalqın dövlətçilik iradəsini, suverenliyini ifadə edən hüquqi sənəd olmaqla, cəmiyyətin ictimai-siyasi institutlarının fəaliyyətini, vətəndaş cəmiyyətinin formalaşmasının və inkişafının hüquqi təminatçısı qismində çıxış edir. İlk dəfə olaraq konstitusiyada hakimiyyətin yeganə mənbəyinin xalq olması prinsipi öz əksini tapmışdır. Həmçinin hakimiyyət bölgüsü – qanunverici, icra və məhkəmə hakimiyyətləri kimi təsbitini taparaq onların səlahiyyətləri, hüquq və vəzifələri müəyyən edilmişdir.

Prezident Heydər Əliyevin gərgin əməyinin bəhrəsi olan Konstitusiyanın suveren Azərbaycanın müstəqillik yolunda daha inamla addımlamasında, mədəniyyətimizin və milli-mənəvi dəyərlərimizin qorunmasında, əhalinin rifahının yaxşılaşdırılmasında rolu danılmazdır. Əsas Qanunda öz əksini tapmış bir çox müddəalar, əslində, dahi şəxsiyyətin ideya və baxışlarının, hüquqi düşüncələrinin təcəssümüdür.

Ümummilli liderin hakimiyyətə yenidən gəldiyi gündən gördüyü işlərə nəzər saldıqda çox əhəmiyyətli bir inkişaf dialektikasının şahidi oluruq. Belə ki, əvvəl dövləti yaratmaq, sonra şəxsiyyətin ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar hüquqlarına təminat verilməsi konstitusiyanın mühüm müddəalarından biridir. Bu müddəa hüquqi yardım almaq, məhkəmədə müdafiə olunmaq, vəkilin köməyindən istifadə etmək, məhkəmə qərarlarından şikayət vermək, təqsirsizlik prezumsiyası hüququnu və digər hüquqları əhatə edir.

Ulu öndərin apardığı humanist siyasət nəticəsində 1995-ci ildə amnistiya və əfv təsisatları bərpa edilmişdir. Ümummilli liderin hakimiyyəti dövründə 1996–2003-cü illər ərzində 7 amnistiya aktı qəbul edilmiş, əfv qaydasında 3091 şəxs müxtəlif cəzalardan azad edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının qəbulu ilə hüquq yaradıcılığı əhəmiyyətli dərəcədə fəallaşdı və qüvvədə olan qanunvericilik aktlarının konstitusion normalara uyğunlaşdırılmasına başlanıldı.

Ölkəmizdə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi, bu kontekstdə insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi üçün səmərəli mexanizmlərin yaradılması, habelə qanunların aliliyinin təmin olunması üçün bir sıra mühüm addımlar atıldı. İslahatların hüquqi bazasının yaradılması, insan hüquq və azadlıqlarının qorunması sahəsində mühüm sənədlər qəbul edildi, respublikamız müxtəlif konvensiyalara qoşuldu, qanunvericilik, icra və məhkəmə hakimiyyətinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirildi. Cəmiyyətdə hüquq münasibətləri sisteminin xarakterində müsbət dəyişikliklər baş verdi, genişmiqyaslı məhkəmə-hüquq islahatları nəticəsində məhkəmə icraatının mahiyyətcə yeni modelinin yaranması prosesinə başlanıldı.

Ümummilli liderin təşəbbüsü ilə həmçinin 10 iyun 1997-ci il tarixdə Azərbaycan Respublikası Konstitusiyasının müddəaları əsasında işlənib hazırlanmış "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Qanun ölkədə üçpilləli məhkəmə sistemini nəzərdə tutur. Apellyasiya qaydasında işlərə baxılması prosedurunu özündə ehtiva edən prinsip də həmin Qanunla müəyyənləşdirilir. Ölkəmizdə bu sistem üzrə yaradılmış məhkəmələr 1 sentyabr 2000-ci il tarixdən fəaliyyət göstərir.

Azərbaycan Respublikasının Konstitusiyası əsasında 29 dekabr 1998-ci il tarixdə Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu qəbul edildi. Ulu öndərin təşəbbüsü ilə 24 avqust 2002-ci il tarixdə keçirilmiş referendumda Əsas Qanun daha da təkmilləşdirildi və ilk dəfə olaraq Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) təsisatının yaradılması ilə bağlı müddəalar öz əksini tapdı. 24 avqust 2002-ci il tarixdə Konstitusiyaya edilmiş dəyişikliklər mühüm əhəmiyyətə malik olmuş, həmçinin Konstitusiya Məhkəməsinin fəaliyyətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına imkan vermişdir. Belə ki, 2002-ci il Konstitusiya islahatlarından sonra ayrı-ayrı şəxslərə, məhkəmələrə və Ombudsmana da Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək hüququ verilmişdir. Şübhəsiz ki, bütün bunlar, ilk növbədə, Konstitusiya Məhkəməsinin timsalında hüquqların müdafiəsi üçün əhəmiyyətli bir vasitənin əldə edilməsi deməkdir. Xüsusilə də konstitusiya şikayətinin verilməsinin mümkün olduğu məsələlərin dairəsi daha geniş müəyyən edilmişdir. Təcrübəyə əsaslanaraq deyə bilərik ki, fərdi şikayət institutu Konstitusiyanın aliliyinin təmin edilməsinin səmərəli vasitələrindən biri kimi insan hüquq və azadlıqlarının müdafiəsi baxımından kifayət qədər effektiv imkanlar yaradır.

Bildirməyi zəruri hesab edirik ki, Konstitusiya Məhkəməsinin mövcud olduğu ölkələrin əksəriyyətində şikayətin predmeti yalnız iş üzrə tətbiq edilən və ya edilməli olan qanunun Konstitusiyaya uyğunluğu məsələsi ola bilər. Halbuki ölkəmiz daha mütərəqqi təcrübəni qəbul edərək konstitusiya şikayətinin predmetinə normativ hüquqi aktlarla yanaşı, məhkəmə və bələdiyyə aktlarının Konstitusiyaya və qanunlara uyğunluğunun yoxlanılmasını da daxil etmişdir.

Ümummilli liderin təşəbbüsü ilə 24 dekabr 2002-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu tənzim etdiyi məsələlərin dairəsinə görə xüsusi önəm kəsb edir. Həmin Konstitusiya Qanunu Azərbaycanda insan hüquq və azadlıqlarının həyata keçirilməsini "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" beynəlxalq Konvensiyaya uyğunlaşdırmaq məqsədi daşıyır. Ümummilli lider qeyd edirdi ki, insan hüquqları olmayan ölkədə vətəndaşlıq hüququndan danışmaq yersizdir. Məhz insan hüquqlarının genişləndirilməsi cəmiyyətin inkişafına, demokratiyanın təntənəsinə şərait yaradır. Hər bir insan azaddır, lakin hər bir vətəndaşın hüquqlarını ölkənin demokratik qanunları müəyyənləşdirir.

Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikada dövlət quruculuğu prosesi təşkil etmək idi ki, ümummilli lider bunu uğurla həyata keçirdi. İnsan, söz və din azadlığı – bunların hamısı demokratik, sivilizasiyalı cəmiyyətin yaranmasına inkan verən şərtlərdir ki, müstəqil Azərbaycan dövlətində məhz 1993-cü ildən başlayaraq, bu prinsiplər bərqərar olmağa başladı. Ümummilli liderin hakimiyyətə gəlişi ilə insan hüquqlarının qorunması üçün bütün təminatlar yaradıldı. Ulu öndər and içdiyi kimi, Azərbaycan Respublikasının demokratik hüquqi dövlət kimi inkişaf etdirilməsinin təminatçısı oldu.

Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycan bu gün də çox etibarlı və mübariz əllərdədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkə rəhbərliyinə gəldiyi ilk illərdən başlayaraq, kompleks islahatlar həyata keçrilməklə, qanunvericiliyin təkmilləşdirilməsi, ordu quruculuğu və ümumiyyətlə, bütün sahələrdə iri addımlarla inkişaf mərhələsinə qədəm qoyuldu. Cənab Prezidentin böyük səyi nəticəsində ölkəmiz tamhüquqlu dövlət kimi dünya siyasi xəritəsində öz layiqli yerini tutmaqla, regionda söz sahibinə çevrildi.

Məhz Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və peşəkarlığı ilə 30 illik işğala son qoyuldu. Bu tarixi zəfərlə məğlubiyyət damğasını üzərimizdən götürdük və bütün dünyada qalib dövlət, qalib xalq kimi yenidən tanındıq, xalqımız qalibiyyət sevincini yaşadı.

Bu qələbənin müəllifi İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusudur. Azərbaycan Respublikası ordu quruculuğunu intensiv şəkildə həyata keçirən, müasir döyüş imkanlarına malik ölkə kimi 44 günlük Vətən müharibəsi ilə Azərbaycan Ordusunun tarixi qələbəsi ilə yadda qaldı.

***Ənvər SEYİDOV,***
***hüquq elmləri doktoru,***
***yazıçı***

# Müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir

*(əvvəli 3-cü səhifədə)*

Qeyd olunub ki, hələ sovet hakimiyyəti illərində ulu öndərin təşəbbüsü ilə sosial-iqtisadi və mədəni sahələrdə həyata keçirilən tədbirlər, qazanılan nailiyyətlər ölkəmizin dövlət müstəqilliyi dövrü üçün mühüm sosial-iqtisadi və mədəni baza, təməl rolunu oynayıb. Həmin illərdə ümummilli liderimizin xalq qarşısında ən böyük xidmətlərindən biri də təhsilin və elmin inkişafı, milli kadr potensialının, həmçinin Azərbaycanın müxtəlif sahələrdə ehtiyac duyduğu nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması idi. Ulu öndər həm Sovet İttifaqı dövründə, həm də müstəqillik illərində bu sahələrə xüsusi diqqət yetirərək, onları dövlət səviyyəsində əsas prioritetlər kimi müəyyən etmişdi. Ulu öndərin yorulmaz səyləri nəticəsində 1970-1980-ci illərdə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən məşhur ali məktəblərində 80-dən artıq sahəni əhatə edən 250-dən çox ixtisas üzrə 15 minədək azərbaycanlı gəncin ali təhsil alması, yüksəkixtisaslı mütəxəssislər kimi hazırlanmasına şərait yaradıldı.



Bildirilib ki, əgər 1969-cu ildə SSRİ-nin tanınmış ali məktəblərinə 50-dən az adam göndərilirdisə, 1973-cü ildə onların sayı 140-dan artıq, 1974-cü ildə 357, 1975-ci ildə 700-ə yaxın və 1976-cı ildən başlayaraq 800-900 nəfərə çatdırıldı. 1980-ci illərin əvvəllərindən isə 1000-dək Azərbaycan gənci respublikadan kənarda SSRİ-nin məşhur ali təhsil müəssisələrinə təhsil almağa göndərilmişdi. Azərbaycandan kənarda təhsil alanların milli tərkibində azərbaycanlıların xüsusi çəkisi 1970-ci ilədək cəmi 40 faiz təşkil edirdisə, 1976-cı ildə bu rəqəm 85 faizə, 1977-ci ildə 92 faizə, 1980-ci illərin əvvəllərində isə 98 faizə yüksəldi. Əvvəlki illərlə müqayisədə həm tələbələrin, həm ali məktəblərin və həm də ixtisasların sayı sürətlə artdı.

Daha sonra Yaroslavl Ali Hərbi Maliyyə Məktəbinin 1988-ci il məzunu, Dövlət Sərhəd Xidmətinin rəisinin müavini, general-leytenant Cavid Abdullayev, Moskva Dövlət Universitetinin 1982-ci il məzunu, Azərbaycan Tibb Universiteti, Bioloji kimya kafedrasının müdiri, biologiya elmləri doktoru, professor Gülnarə Əzizova, Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun 1982-ci il məzunu, Əməkdar incəsənət xadimi Ayaz Salayev, Moskva Dövlət Universitetinin 1983-cü il məzunu, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin üzvü Gülşən Paşayeva, Kolumbiya Universitetinin 2008-ci il məzunu, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf, Nyu-York Universitetinin 1999-cu il məzunu, İ.M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru Əziz Əliyevin çıxışları dinlənilib.

Bildirilib ki, ulu öndər Azərbaycandan kənarda təhsil alan gəncləri hər zaman diqqət mərkəzində saxlayır, onların inkişafına hər cür qayğı göstərirdi. Hər il avqust ayının axırlarında Vətəndən kənarda təhsil almağa tələbə gənclərlə görüşür, öz dəyərli tövsiyələrini verirdi. 1969-cu ildən 1982-ci ilin avqust ayına qədər bir il də olmayıb ki, ümummilli liderimiz tələbələrlə görüş keçirməsin. Azərbaycandan kənarda təhsil almağa göndərdiyi gəncləri öz doğma övladları adlandıran ulu öndər deyirdi: "Vaxt gələcək ki, bu kadrlar Azərbaycana lazım olacaqlar. Vaxt gələcək ki, nəhayət, Azərbaycan müstəqil olacaqdır və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəkdir".

Qeyd olunub ki, ümummilli liderin müəllifi olduğu davamlı inkişaf strategiyasının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində dinamik sosial-iqtisadi tərəqqisini təmin edən Azərbaycan regionun lider dövlətinə çevrilib. Ulu öndərin müəllifi olduğu strateji inkişaf konsepsiyasının əsas istiqamətlərindən biri də insan kapitalının gücləndirilməsi və yüksəkixtisaslı kadr potensialının formalaşdırılması olduğunu xatırladan natiqlər bildiriblər ki, ulu öndər Azərbaycandan kənarda təhsil alan gənclərin fəaliyyətini daim diqqət mərkəzində saxlayır, onların inkişafına yüksək qayğı göstərir, onları "Azərbaycanın milli sərvəti" adlandırırdı.

Toplantıda Azərbaycanın Xalq artisti Samir Cəfərov fortepianoda Roza Səlimovanın müşayiəti ilə "Sən elə bir zirvəsən", Əməkdar artist İlham Nəzərov fortepianoda Roza Səlimovanın müşayiəti ilə "Sənsiz" romansını ifa ediblər, ulu öndərin "Alagöz" və "Küçələrə su səpmişəm" mahnılarını səsləndirdiyi görüntülər təqdim olunub. Sonra ekranda ulu öndərin Səməd Vurğunun "Azərbaycan" şeirini səsləndirməsi nümayiş etdirilib. Toplantı Əməkdar artist Xəyyam Mustafazadənin ifasında "Azərbaycan" mahnısı ilə yekunlaşıb.

# Ulu öndərin milli kadrları onun adını daşıyan sarayda

## *Bir vaxt onlar dünyaya buradan pərvazlanmışdılar*

**Həyatımızın istənilən sahəsinə üz tutduqda xalqımızın dahi oğlu Heydər Əliyevin fədakar əməyinin, çoxşaxəli fəaliyyətinin şahidi oluruq. Hələ sovetlər dönəmində ölkəmizə rəhbər seçilən ulu öndər Azərbaycanı böyük inkişaf yoluna çıxarmağa müvəffəq olmuşdu. Bu inkişaf yolunda da ona vaxtilə Azərbaycandan kənara təhsil almağa göndərdiyi gənclər kömək etmişdilər. Hər il avqustun son günlərində həmin gənclərin növbəti qrupu hazırda Heydər Əliyevin adını daşıyan bu saraydan ulu öndərin xeyir-duası ilə SSRİ-nin ən nüfuzlu ali məktəblərinə yola salınırdılar. Onlara nəvazişlə "kənar şəhərlilər" də deyirdilər.**

Dünən "kənar şəhərlilər" Heydər Əliyev Sarayına toplaşdılar. Toplaşdılar və böyük şəxsiyyətin sayəsində Azərbaycanın dövlət kimi güclənməsindən və bu misilsiz dühа sahibinin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətənimizin qalib ölkə kimi inkişafından söz açdılar, xatirələrini, təəssüratlarını bölüşdülər, tariximizin Heydər Əliyevli illərinə ekskursiya etdilər.

Qələbəliyin ilk ünvanı Heydər Əliyev Sarayının foyesi idi. "Kənar şəhərlilər" orada ulu öndərə həsr olunmuş foto-stendə baxırdılar. Tədbir barədə fikirlərini öyrənmək məqsədilə onlara - ulu öndərin milli kadrlarına yaxınlaşdıq.

**Vaqif Mustafayev,**
**Kinorejissor, ssenarist, Azərbaycan Respublikasının Xalq artisti:**



- Belə bir proqramın olduğundan xəbərim var idi. Sevindirici haldır ki, tədbirdə bu qədər insan iştirak edir. Hamının üzündə sevinc, çöhrəsində təbəssüm var. Gözəl mənzərədir, vaxtilə ulu öndərin xaricə təhsil almağa göndərdiyi həmvətənlərimiz bir aradadır.

Heydər Əliyev milli kadrların hazırlanmasına müstəsna önəm verirdi. Bura toplaşanların hər biri tanınmış ziyalı, mütəxəssis, ictimai xadim və cəmiyyətimizin ictimai-siyasi həyatında mühüm rol oynayan insanlardır. Əksəriyyətini tanıyıram.

Xatırlayırsınızsa, ötən əsrin 70-ci illərinin əvvəllərindən ulu öndərin rəhbərliyi ilə respublikada hərbi işlərin təşkili, hərbi ənənələrin bərpası, Azərbaycan gənclərinin hərbi işlərə marağının artırılması istiqamətində çox böyük işlərə başlanılmışdı. Məhz həmin illərdə mövcud istiqamətdə təhsilin təşkili bugünümüzün güclü ordusunu formalaşdırmağa imkan verdi. Digər sahələrdə də eyni mənzərəni müşahidə etmək olar.

Hesab edirəm ki, tədbiri çox gözəl düşünüblər. Konsepsiyası əladır. Təşkilatçılara təşəkkür edirəm.

**İsa Hüseynov,**
**Lənkəran Dövlət Universitetinin kimya və fizika kafedrasının müdiri, kimya üzrə fəlsəfə doktoru:**



- Mən də ulu öndər Heydər Əliyevin vaxtilə xaricə təhsil almağa göndərdiyi gənclərdən olmuşam. Ümummilli liderimiz savadlı və milli dəyərlərə sədaqətli kadrların hazırlanmasını inkişafın ən vacib amili kimi müəyyənləşdirmiş və mövcud sahədə sistemli tədbirlər həyata keçirmişdi. Respublikamız üçün vacib ixtisaslara yiyələnmələri məqsədilə onları keçmiş SSRİ-nin qabaqcıl ali məktəblərinə göndərmişdi. Nəticədə Azərbaycanın elmi və kadr potensialının yüksəlməsinə nail olmuşdu. Hazırda istər ölkəmizdə, istərsə də xaricdə fəaliyyət göstərən yüksəkixtisaslı kadrların böyük əksəriyyəti Heydər Əliyev məktəbinin məzunlarıdır. Həmin məzunların sırasında yer aldığıma görə xoşbəxtəm.

**Afaq Başirova,**
**SİRDAŞ psixologiya mərkəzinin defektoloqu və loqopedi:**



- Bilirsiniz, ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycan gənclərinin gələcəyinə işıq saçmışdı. Məhz 1970-1980-ci illərdə ulu öndərin sayəsində Azərbaycandan kənarda ehtiyac duyulan ixtisaslar üzrə minlərlə azərbaycanlı gənc ali təhsil almışdı. Mən də həmin gənclərdən biri idim, 1976-1980-ci illərdə Moskva Dövlət Pedaqoji İnstitutunda defektoloq-loqoped ixtisası üzrə təhsil almışam. Bugünkü nailiyyətlərimdə xaricdə aldığım təhsilin böyük payı var. Buna görə ulu öndər Heydər Əliyevə sonsuz dərəcədə minnətdaram. Onun milli kadrların hazırlanmasına olduqca həssas yanaşmasının nəticəsidir ki, biz hamımız Azərbaycanın inkişafına layiqli töhfəmizi verməyə çalışmışıq.

Bu tədbirin keçirilməsini çox yüksək qiymətləndirir, təşkilatçılara minnətdarlığımı bildirirəm.

**Rəqsanə Məmmədova,**
**Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun pediatriya kafedrasının müdiri:**



- Bu gün burada olmaqdan çox şadam. Çünki təşrif buyuranların hər birinin mütəxəssis kimi formalaşmasında böyük rol oynamış dahi şəxsiyyət Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbirdə iştirak edirik. Ulu öndər daim ölkənin gələcəyini düşünür, Azərbaycan gənclərinin təhsilinə xüsusi önəm verirdi. Heydər Əliyev Azərbaycan gənclərini xarici ölkələrin ən yaxşı universitetlərində oxumağa göndərirdi.

Mən də 1982-1984-cü illərdə Moskva Pediatriya İnstitutunda təhsil almışam. Sonra təhsilimi Almaniyada davam etdirmişəm və doktorluq dissertasiyamı orada müdafiə etmişəm. Ulu öndərin dəstəyi sayəsində indi əldə etdiyim zirvələrə çatmışam. Tədbirə gəldikdə, həqiqətən, möhtəşəmdir və belə də olmalıdır. Xoşbəxtəm ki, ulu öndərlə bir əsrdə yaşamışam.

**Nailə Məmmədova,**
**Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, professor:**



- Biz hamımız ulu öndər Heydər Əliyevin hələ sovetlər dövründə misilsiz xidmətlərini bu gün iftixarla xatırlayırıq. 1969-1987-ci illərdə o, Azərbaycanın kadr potensialının inkişafında inqilabi addımlar atmışdı ilə hər birimizin yaddaşında iz buraxdı. 1969-cu ildə ümummilli lider Heydər Əliyev ölkə rəhbərliyinə gəldikdən sonra gəncləri keçmiş SSRİ-nin tanınmış ali məktəblərinə oxumağa göndərmişdi. Bu, Azərbaycanın kadr potensialının inkişafının başlanğıcı idi.

O zaman və indi xaricdə təhsil almış minlərlə gənc bu gün ölkənin dövlət quruculuğunda iştirak edirlər. Mən də Moskva şəhərində ali təhsil almışam. Sonra Vətənimdə təhsilimi davam etdirmişəm. Bu gün digər həmvətənlərim kimi, ölkəmizin inkişafına töhfə verməyə çalışıram. Ulu öndərin bizə dəstəyini heç zaman unutmuruq və azərbaycanlı olmağımızla fəxr edirik.

Ümumiyyətlə, möhtəşəm günlər yaşayırıq. Bütün Azərbaycan ulu öndər ilə yanaşı, böyük alim, oftolmoloq Zərifə xanım Əliyevanın da 100 illiyini qeyd edir. Belə tədbirin keçirilməsini yüksək qiymətləndirir və təşkilatçılara təşəkkürümü bildirirəm.

**Məhəmməd Kərimov,**
**Tibb elmləri doktoru, professor:**



-Bu tədbirin keçirilməsi təqdirəlayiqdir. Çünki milli kadrların hazırlanmasında misilsiz rol oynamış, böyük siyasi xadim Heydər Əliyevin 100 illiyi tamam olur. Ulu öndərin 1969-cu ildə siyasi hakimiyyətə gəlməsindən sonra Azərbaycan təhsilində gördüyü işləri əsl inqilab, epoxal dəyişikliklər dövrü adlandırmaq olar. O dönəmdə mən də təhsilimi yenicə bitirmiş gənc həkim kimi bu proseslərdən kənarda qalmadım.

Ulu öndərin yaratdığı münbit şəraitdən istifadə edərək xaricdə təhsilimi davam etdirdim. 1983-cü ildə Moskva şəhərində SSRİ Tibb Elmlər Akademiyasının A.V. Vişnevski adına Cərrahiyyə İnstitutunda məqsədli kliniki ordinaturaya daxil oldum. İki il sonra həmin insititutda aspirantura təhsilimə başladım və 1988-ci ildə damar cərrahiyyəsi üzrə namizədlik dissertasiyası müdafiə etdim. Buna görə də buraya toplaşan bir çox mütəxəssislər kimi mən də elmdə qazandığım bütün nailiyyətlərə görə ulu öndərimizə minnətdaram.

Tədbirin keçirilməsinin əhəmiyyəti ondan ibarətdir ki, toplantıda həm də vaxtilə görülən işlərə dəyər verilir. Buraya toplaşanların sayı göstərir ki, bu qədər insanın təhsil alması üçün xaricə göndərilməsi asan iş deyil. Bu, yalnız Heydər Əliyev dühasının sayəsində olmuşdur. Tədbirin keçirilməsi gənc nəsil üçün də önəmlidir. Gənclər də görürlər ki, vaxtilə xaricdə təhsil almış şəxslər bu gün Azərbaycanda müxtəlif sahələrin inkişafında yaxından iştirak edirlər. Yəni, bu tədbir onlar üçün böyük motivasiyadır.

**Gülşən Paşayeva,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin üzvü:**



- Sovet dövründə ümummilli lider Heydər Əliyevin sayəsində xaricdə təhsil imkanı əldə etmək böyük xoşbəxtlik idi. 1978-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinə qəbul olmuş, 1983-cü ildə oranı müvəffəqiyyətlə bitirmişəm. Böyük xoşbəxtlik idi ki, biz o dövrdə oxumaq üçün xaricə getdik. O vaxt SSRİ-nin ən məşhur universitetləri həm müəllim, həm də təhsil mühiti baxımından, tamamilə, başqa idi.

Məhz ulu öndər Heydər Əliyevə görə bu cür imkana sahib olmaq bir azərbaycanlı üçün böyük xoşbəxtlik idi. Ulu öndər Heydər Əliyevin ideyalarından biri gənclərin təhsil almaq üçün Azərbaycandan kənara göndərmək idi. Bu, çox möhtəşəm fikir idi. 1969-cu ilə qədər, yəni, ümummilli liderdən əvvəlki dövrdə xaricə göndərilmək üçün 40 nəfəri güclə tapırdılar, onların çoxu rus, erməni və ya başqa millətlərin nümayəndələri olurdu. Azərbaycanlıların sayı çox az idi. Keçmişə baxanda o dövrdə azərbaycanlıların gedib xaricdə oxumaları böyük fürsət idi. Nəzərə alaq ki, orada, eyni zamanda, böyük rəqabət var idi.

**Seyfəddin Mustafayev,**
**təqaüdçü:**



- Ulu öndər Heydər Əliyevin himayəsi ilə Sverdlovsk şəhərində defektologiya üzrə ikinci təhsil almışam. Sverdlovsk Dövlət Pedaqoji Universitetinin defektologiya fakültəsinin sağlamlıq imkanları məhdud uşaqları ilə 35 il işləmişəm.

Quruculuq işləri, Prezident İlham Əliyevin planlarının hamısı ümummilli liderin strategiyasının davamıdır. Dövlətimizin başçısının gördüyü praktiki işlər, təcrübəsi ulu öndərdən qaynaqlanır. Bu gün də dahi rəhbərin siyasəti davam etdirilir. Çox şadam ki, böyük Heydər Əliyevin təhsil almaq üçün xaricə göndərdiyi tələbələrdən biriyəm.

**Ədalət Məmmədov,**
**Tərtər Rayon Statistika İdarəsinin rəisi:**



- Ulu öndər Heydər Əliyevin dəstəyi ilə mən də 1982-ci ildə xaricdə təhsil alan tələbələrin sırasında olmuşam. Ukraynanın Xarkov Mühəndislik və İqtisadiyyat İnstitutunda mühəndis-iqtisadçı ixtisası üzrə təhsilimi bitirib Vətənə qayıtmışam.

1982-ci ildə ulu öndər bizi valideynlərimizlə birlikdə qəbul etdi. Təntənəli görüşdə bizə qiymətli hədiyyələr təqdim etdi. Avqust ayında hər birimizə tələbə təqaüdü təyin olundu. Sayımız 800-ə yaxın idi, ödənişsiz təyyarə ilə təhsil alacağımız şəhərlərə yollandıq. Orada oxuduğumuz müddətdə də ulu öndərin qayğısından kənarda qalmadıq. Ümummilli lider 1998-ci ildə bizimlə görüş keçirdi.

Mənimlə təhsil alan insanlardan bəziləri qalıb orada yaşayıblar. Sonradan Azərbaycan diasporunun formalaşmasında həmin şəxslərin böyük xidmətləri olub. Artıq ulu öndərin 30 il bundan qabaq gördüyü işlər bəhrəsini verir. Prezident İlham Əliyev uğurla Heydər Əliyev siyasətini davam etdirir. 44 günlük Vətən müharibəsində də Azərbaycan xalqının müzəffər Ali Baş Komandanla birlikdə belə möhtəşəm bir Qələbə qazanması hər şeyin sübutudur.

**Elmira Əliyeva,**
**Azərbaycan Tibb Universitetinin I mamalıq-ginekologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor:**



- Azərbaycanda təhsilin inkişafında, gənclərin xarici ölkələrdə təhsil almalarında ümummilli lider Heydər Əliyevin hər zaman müstəsna xidmətləri olub. Ulu öndərin təşəbbüsü ilə 1970-1980-ci illərdə çox sayda azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində müxtəlif ixtisaslar üzrə təhsil alıb və yüksəkixtisaslı mütəxəssis kimi Vətənə qayıdıb.

Mən 1985-ci ildə ulu öndərin təşəbbüsü və dəstəyi ilə Moskvada məqsədli aspiranturada oxumuşam. Sonra isə 12 il müddətində Moskvada məqsədli doktoranturada mamalıq-ginekologiya ixtisası üzrə təhsil almışam. Təhsil aldığımız müddətdə hər zaman çalışmışam ki, ulu öndərin etimadını doğruldum. Təkcə mən yox, hamımız onun etimadını doğrultmaq əzmindəydik.

*Hazırladı:*
***Səbuhi MƏMMƏDOV,***
***Elşən AĞALAR (foto),***
***"Xalq qəzeti"***

# Vaşinqton prosesi Cənubi Qafqaza sülh gətirəcəkmi?

## *Azərbaycan və Ermənistan münasibətləri: Qərb nizamlanması, Rusiya amili və mövcud ziddiyyətlər*

**Azərbaycan və Ermənistanın xarici işlər nazirləri Ceyhun Bayramovun və Ararat Mirzoyanın Vaşinqtonda görüşməsi Cənubi Qafqaz regionunun gündəmini təşkil edən başlıca mövzudur. Diplomatik mənbələrin məlumatları görüşün bir neçə gün, hətta, bir həftə belə davam edəcəyini söyləməyə əsas verir. Təbii, gün söhbəti nisbidir. Hər şey hansı məqamların müzakirə ediləcəyindən və nələrin razılaşdırılacağından, ümumən, təmasın nə dərəcədə effektiv alınacağından asılıdır.**



Hələlik isə məlum olan odur ki, nazirlər regionda təhlükəsizlik sahəsindəki vəziyyətlə, dövlətlər arasındakı normallaşma prosesi ilə bağlı müzakirələr aparıblar. Ermənistanın Xarici İşlər Nazirliyinin məlumatına inansaq, diskussiya predmetinə çevriləcək məsələlərdən biri də Laçın-Xankəndi yolunda Azərbaycana məxsus sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulmasıdır. Nazirlik bu məsələ barədə bildirərkən həmin məntəqənin qeyri-qanuni yaradıldığını xüsusi vurğulayır. Elə bu deyimdən İrəvanın danışıqlarda tutacağı mövqenin konstruktiv olub-olmayacağına dair qənaət formalaşdırmaq mümkündür. Hərçənd, daxili auditoriyaya hesablanmış belə fikirlərlə reallıq arasında fərqin olduğunu da bilirik.

***

Əlbəttə, İrəvanın məsələyə pozitiv yanaşacağını gözləmək sadəlövhlük olardı. Nə də düşünmək mümkündür ki, Ermənistan danışıqlarda əldə ediləcək nəticələr üzərində dayanacaq və onları pozmayacaqdır. Çünki belə görünür, Ermənistanın baş naziri Nikol Paşinyan üçün anti-Azərbaycan ritorikasını daim gündəmdə saxlamaq vacibdir. İndidən sərhəd məntəqəsinin qeyri-qanuniliyi vurğulanırsa, deməli, Laçın-Xankəndi yolunda azərbaycanlı fəalların və qeyri-hökumət təşkilatları təmsilçilərinin aksiyaları kimi, bu məsələ də ölkəmizə qarşı siyasətin vacib tərkib hissəsidir. Halbuki, aksiya da Azərbaycan ərazisində idi, sərhəd də həmçinin. Yəni, prinsip etibarilə, məsələnin üzərində dayanmaq tam mənasızdır.

Bəli, mənasızdır və Azərbaycan Prezidenti İlham Əliyev, bütövlükdə, Azərbaycan diplomatiyası bunu həm Ermənistana, həm də dünya ictimaiyyətinə başa salmağa çalışır. Nəzərə alsaq ki, Vaşinqtonda Bayramov–Mirzoyan danışıqlarının hələ bir neçə gün davam edəcəyi gözlənilir, başlıca vəzifə də elə bu olacaqdır. Yəni, anlatmaq, daha doğrusu, reallığa inandırmaq, onu qəbul etdirmək.

***

Rəsmi İrəvanın normallaşma prosesi ilə bağlı son mövqeyi budur ki, Azərbaycan Laçın yolunu, guya, 4 ay bağladıqdan sonra (azərbaycanlı fəalların Laçın-Xankəndi yolunda keçirdikləri aksiya nəzərdə tutulur – red.) 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın 6-cı bəndini kobud şəkildə pozaraq aprelin 23-də Rusiya sülhməramlılarının məsuliyyət zonasında nəzarət-buraxılış məntəqəsi yaradıb və dəhlizi rəsmən bloklayıb. Ermənistan Xarici İşlər Nazirliyi belə qənaətdədir ki, bu, növbəti, lakin məzmun baxımından sözügedən bəyanatın müddəalarının ən təhlükəli pozulmasıdır.

Onu da bildirək ki, Vaşinqton görüşü ərəfəsində ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenin Azərbaycan Prezidenti İlham Əliyevlə və Ermənistan baş naziri Nikol Paşinyanla telefon danışığı olub. Bununla bağlı Azərbaycan tərəfinin yaydığı məlumatda təmas zamanı başlıca müzakirə mövzusunun Azərbaycan-Ermənistan normallaşması olduğu önə çəkilib. Mövcud xüsusda Blinkenin ölkəmizin sərhəd məntəqəsi qurmasını qabartdığı vurğulanıb. Buna cavab olaraq dövlətimizin başçısının həmin məntəqənin yaradılmasının Azərbaycanın suveren hüququ olduğuna dair fikri də önə çəkilib. Ermənistan XİN-in telefon danışığı ilə bağlı yaydığı məlumatda bildirilən isə odur ki, Blinken-Paşinyan təması zamanı başlıca müzakirə mövzusu Azərbaycanın qurduğu sərhəd məntəqəsinin qanunsuzluğuna söykənib. Təbii ki, İrəvan özünə sərfəli məqamı qabardır.

***

Ancaq Ermənistan cəmiyyətindəki fikir bundan ibarətdir ki, bütövlükdə, ABŞ Dövlət katibinin çağırışlarının əsas məqsədi tərəfləri dinc dialoqun davam etdirilməsinə hazırlamaqdır. Bunu Dövlət Departamentinin yaydığı, Bakı və İrəvan arasında birbaşa sülh danışıqlarının vacibliyini vurğulayan məlumat da təsdiqləməkdədir. Elə buna görə Ermənistan cəmiyyətində danışıqlarla bağlı isterik durum var.

Bu durumun bir detalını diqqətə çatdıraq. Məsələn, Ermənistan müxalifətini maraqlandıran suallardan biri budur ki, nə üçün danışıqlara cavabdeh ölkə parlamentinin vitse-spikeri Ruben Rubinyandır? Nə üçün o, birdən-birə Azərbaycanın xarici işlər naziri ilə danışıqlara qatılır? Bu proseslərin əlaqəsi varmı? Hətta, Mirzoyana inamın olmaması amili üzərində də dayanılmaqdadır. Bütün bunlara görə müxalifətçilər, xüsusən, Ermənistanın Milli Assambleyasının müxalif kəsimi əmindir ki, hakimiyyət danışıqlarda real vəziyyəti ictimaiyyətdən gizlədir və gizli razılaşmalara uyğun hərəkət edir.

"Milli Assambleyanın spikeri Rubinyanın xarici işlər nazirinin nümayəndə heyətinin tərkibində Vaşinqtona göndərilməsinə dair qərar imzalayıb. Rubinyan həm də Ermənistanın Türkiyə ilə danışıqlar üzrə xüsusi nümayəndəsidir. Mənə maraqlıdır ki, o, Ermənistan və Azərbaycanın xarici işlər nazirləri arasında aparılan danışıqlarda hansı statusda və nə məqsədlə iştirak edir? Bu (iştirak), o deməkdirmi ki, Ermənistan–Azərbaycan danışıqlarının gündəliyinə Ermənistan–Türkiyə münasibətləri də daxildir və bu iki proses bir-biri ilə bağlıdır?" – deyə müxalif "Ermənistan" fraksiyasının üzvü Qeqam Manukyan soruşur.

Ümumən, Ermənistan müxalifəti bu fikirdədir ki, Vaşinqtonda xarici işlər nazirlərinin görüşünün keçiriləcəyi ilə bağlı məlumat gözlənilmədən meydana çıxıb. Eyni zamanda, görüşün gözlənilmədən bir neçə mərhələdə keçiriləcəyinin və günlərlə davam edəcəyinin açıqlanması da erməni müxalifləri əndişəyə salıb. Onlar spiker Alen Simonyanın qərarında Rubinyanın aprelin 28-dən mayın 5-dək ABŞ-a göndərilməsinin əksini tapdığına da diqqət çəkirlər. Belə rəyə gəlirlər ki, görüşün ssenarisinin indiki kimi olacağı əvvəldən məlum idi. Bu isə Ermənistanın parlament müxalifətinin fikrincə, xalqın arxasından gizli iş çevirməkdir, ölkənin və Qarabağın təhlükəsizliyini və maraqlarını şübhə altına almaqdır.

***

Nəzərə alaq ki, Ermənistan cəmiyyətində sülhün ölkə üçün sərfəli olmadığını düşünənlər də var. Onların arqumentləri daha tutarlıdır. Ona görə ki, 44 günlük müharibədən ötən müddətdə İrəvanın sülhdən aşkar yayındığını görürük. Bu məqamı dəfələrlə Azərbaycan Prezidenti də vurğulayıb. Dövlətimizin başçısının A.Blinkenlə sonuncu telefon danışığında sülh təklifinin Azərbaycandan gəldiyini xüsusi vurğulaması adi məsələ deyil. Çünki müharibədə qalib Azərbaycan ola-ola bunu etməyə də bilər.

Ermənistan üçün sülhün sərfəli olmamasına gəlincə, məsələ ilə bağlı şərh verən politoloq Suren Surenyantsın fikrincə, Paşinyan administrasiyası danışıqlar prosesini qəsdən yubadır və sülh müqaviləsini imzalamağa tələsmir, çünki hansı ölkənin moderator kimi çıxış etməsindən asılı olmayaraq, istənilən halda, yekun qərar Ermənistanın xeyrinə olmayacaq.

Surenyants, həmçinin bildirir ki, hazırda Qərbin regionda sülh sazişinin həyata keçirilməsinin etibarlı təminatçısı olmaq üçün kifayət qədər imkanları yoxdur. Ona görə İrəvan və Bakı daha çox həm hərbi mövcudluğu, həm də iqtisadi rıçaqları olan Moskvaya arxalanmalıdır.

Əlbəttə, erməni politoloqun haqqında söz açdığı arxalanma var. Bu, Ermənistan üçün danışıqlarda sırf manevr yoludur və belə bir yolun tutulması Moskvanın da maraqlarına uyğundur. Hərçənd, Azərbaycan danışıqlar prosesinin uzanması ilə barışmadığını ortaya qoyur, iradə nümayiş etdirir. Bu yerdə ölkəmizin XİN rəhbəri Ceyhun Bayramovun ABŞ-a İrəvanı danışıqlar masası arxasında əyləşməyə razı saldığı üçün təşəkkür bildirməsini xatırlayaq. Deməli, İrəvan razılaşmırmış...

***

Məlumdur ki, Azərbaycanın və Ermənistanın XİN rəhbərlərinin Moskvada da bir araya gələcəyinə dair məlumatlar var. Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bununla əlaqədar fikirlər səsləndirib. Belə qənaət formalaşır ki, nazirlər Vaşinqtondan birbaşa Moskvaya yollanacaqlar. Ancaq nəzərə alsaq ki, ABŞ-da danışıqlar uzanacaq, belə düşünməyə əsas yaranır ki, sülh prosesinin bütün tərəfləri razılaşdırılacaqdır. Elə isə meydana sual çıxır: Moskvaya getməyə ehtiyac qalacaqmı?

Ancaq görünən budur ki, ehtiyac var. Həm də ona görə var ki, nazirlərin müəyyən fasilədən sonra Vaşinqtonda danışıqlar masası arxasına əyləşmələri Birləşmiş Ştatların Cənubi Qafqazdakı vəziyyətin nizamlanması üçün vasitəçilik səyləri yolunda hələ də ruslara təzyiq göstərə bildiyinin nəticəsi kimi qiymətləndirilməkdədir. Hər halda ekspertlər bu qənaətdədirlər. Deməli, necəsə Moskvanı da razı salmaq, ona da dividend qazandırmaq lazımdır. Axı bölgəyə yaxın olan Rusiyadır.

Digər tərəfdən, regionda vasitəçilik uğrunda qlobal güclərin yarışı gedir. Bir məqamı da vurğulayaq ki, Rusiya XİN sözçüsü M.Zaxarova tərəflərin Moskvada danışıqlar aparmağa razılaşdıqlarını daha əvvəl bildirmişdi. Yəni, nazirlərin Vaşinqtondakı görüşü rəsmən təsdiqlənməmişdən əvvəl. Zaxarova belə bir təmasın yaxın gələcəkdə baş tutacağını da iddia etmişdi. Burada sual yaranır: dialoq iştirakçıları Rusiyanı deyil, ABŞ-ı üstün tutdular? Bəs haqqında söz açdığımız ehtiyac?

***

Onu da vurğulayaq ki, Rusiya bir ildən çoxdur Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin iştirakı ilə üçtərəfli danışıqlar təşkil edə bilmir. Sonuncu belə görüş hələ ötən ilin dekabrında keçirilməli idi. Lakin o zaman Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Moskvaya yollanmaqdan qətiyyətlə imtina etdi. Qərarını Moskva üçün müəyyən mənada alçaldıcı sayılacaq məntiqlə əsaslandırdı. O bildirdi ki, Laçın-Xankəndi yolundakı problemi həll etmək üçün səylər göstərdiyindən, Rusiyaya getməyə vaxtı yoxdur. Bu, sanki, Moskvanın tənzimləmə prosesində olmadığının vurğulanması effekti yaratdı. Rusiya Prezidenti Vladimir Putinin iştirakı ilə ən yüksək səviyyədə üçtərəfli danışıqlara gəlincə, sonuncu belə təmas 2022-ci ilin oktyabrında Moskvada gerçəkləşib və heç bir ciddi razılaşma əldə olunmadan başa çatıb.

Maraqlıdır ki, həmin görüşdən cəmi bir neçə gün sonra Azərbaycan və Ermənistan liderləri Avropa İttifaqı Şurasının sədri və Fransa prezidentinin iştirakı ilə Praqa sammitində mühüm razılaşmalar əldə etdilər. Çexiyanın paytaxtında tərəflər MDB-nin yaradılması haqqında 1991-ci il Almatı sazişinə söykənərək, bir-birilərinin ərazi bütövlüyünü tanıdıqlarını bildirdilər. Nəticədə Ermənistan, faktiki olaraq, keçmiş Dağlıq Qarabağ bölgəsini Azərbaycanın tərkibində rəsmən tanıdı. Əlbəttə, sonra İrəvan tərəfindən spekulyasiyalar da baş verdi ki, bu da ayrıca müzakirə mövzusudur. Ancaq Rusiyanın siyasi və diplomatik dairələrinin Praqa sazişinə reaksiyası da vurğulanmalıdır. Məlum olduğu ki, münasibət kifayət qədər aqressiv idi. Hərçənd, bu aqressivliyin daha da körüklənməsi Fransa Prezidenti Emmanuel Makronun Azərbaycan və Rusiya əleyhinə səsləndirdiyi qəbuledilməz fikirləri ilə də bağlıdır.

***

Necə deyərlər, olanlar keçmişdə qalıb. Bəs indi? Nəzərə alaq ki, Bayramov və Mirzoyan Vaşinqtondadırlar və ABŞ öz nizamlama missiyasının əlahiddəliyi görüntüsü yaratmaqdadır. Konkret olmasa da, cəmiyyətə danışıqların detalları ilə əlaqədar bilgilər sızdırmaqdadır. Ekspertlər isə bildirirlər ki, hər şey bu ssenari üzrə getsə, Cənubi Qafqazda uzunmüddətli sülhün təmin olunması üçün bütün məsuliyyəti Rusiya deyil, Qərb öz üzərinə götürəcək.

Belədə Rusiyanın regiondakı rolu Ermənistandakı hərbi mövcudluğu və Qarabağdakı sülhməramlı kontingenti ilə məhdudlaşacaq. Üstəlik, Bakı ilə İrəvan arasında sülh yaransa, bu, Ermənistan-Türkiyə münasibətlərin normallaşmasına mane olan bütün maneələrin aradan qalxması olacaqdır. Onu da nəzərə alaq ki, bu, Rusiyanın 102-ci hərbi bazasının Ermənistanın Gümrü şəhərindən çıxarılmasının qaçılmazlığı anlamına da gələ bilər.

***

Sonda yenidən Azərbaycan və Ermənistan XİN rəhbərlərinin Vaşinqton görüşü üzərinə gələk. Belə gözləmək mümkündür ki, nazirlər sülh sazişinin mətnini yekunlaşdırmağa çalışacaqlar. Mövcud xüsusda "yol xəritəsi"nin müzakirə ediləcəyi də bildirilməkdədir. Diplomatik mənbələr, həmçinin tərəflərin, xüsusən, sərhədlərin delimitasiyasını özündə əks etdirən daha əhatəli sülh sazişi layihəsi üzərində artıq işlədiklərini də bildirirlər.

O da məlumdur ki, sözügedən "yol xəritəsi"nin razılaşdırılması Azərbaycan və Ermənistan liderlərinin yekun sülh sazişinin imzalamaları üçün daha münbit perspektiv doğuracaqdır. Bütün qeyd etdiklərimizi nəzərə alsaq, hər zamankı kimi, bir sual yenə də gündəmə gəlməkdədir: Ermənistan hökumətinin regionda yekun sülhə nail olmaq üçün siyasi iradəsi çatacaqmı?

***Ə.CAHANGİROĞLU, "Xalq qəzeti"***

# Bakı daha bir nüfuzlu beynəlxalq platforma qazanır

DEVELOPING 8 COUNTRIES
D-8

**Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu Azərbaycanın inkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) üzv olmaq üçün müraciət etdiyini bildirib. "Haber Türk" telekanalına müsahibə verən M.Çavuşoğlu deyib ki, qardaş ölkələrlə, xüsusilə də Azərbaycanla əlaqələrin inkişafı həyati əhəmiyyət kəsb edir: "Türk Dövlətləri Təşkilatını qlobal aktora çevirməliyik. Bizə D-8 təşkilatını D-20 etmək lazımdır. İndi Azərbaycan da müraciət edib. Təsisçisi və mühüm aktorları olduğumuz bütün regional təşkilatları qlobal aktora çevirəcəyik".**

***

Qeyd edək ki, D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının yaranması ideyası İslam Əməkdaşlıq Təşkilatının 1996-cı ilin oktyabrın 22-də İstanbulda keçirilmiş toplantısında Türkiyənin sabiq Baş naziri Nəcməddin Ərbakanın təşəbbüsü ilə irəli sürülüb. Toplantıda bununla bağlı qərar qəbul olunub. Təşkilat 1997-ci il iyunun 15-də ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə keçirilən zirvə görüşündə İstanbulda, Türkiyənin dönəm sədrliyi altında rəsmi olaraq fəaliyyətə başlayıb.

Öz ətrafında 8 müsəlman ölkəsini birləşdirdiyi üçün təşkilatın adındakı "8" rəqəmi buna işarədir. Yarandığı dövrdən bəri dəyişməyən həmin üzvlər bunlardır: Türkiyə, Pakistan, Banqladeş, Malayziya, İndoneziya, İran, Misir və Nigeriya. Təşkilatın üzvlərindən ikisi – Türkiyə və İndoneziya "Böyük İyirmilər"in (G-20) üzvüdür. Onu da qeyd edək ki, Türkiyənin sədrliyi dövründə Azərbaycan "Böyük iyirmilər"in toplantılarında, o cümlədən 2015-ci ilin noyabr ayında Antalya şəhərində keçirilən zirvə görüşündə xüsusi statuslu qonaq kimi iştirak edib.

Üzvlərinin hamısı müsəlman ölkəsi olduğundan bu təşkilatı "İslam İttifaqı" adlandıranlar da var. Təsadüfi deyil ki, təşkilatın üzvləri həm də İslam Əməkdaşlıq Təşkilatında təmsil olunurlar. Adındakı "D" hərfi isə ingilis dilindəki "developing" (inkişaf etməkdə olan) sözündən götürülüb və onun qısaldılmış formasıdır. D-8-in fəaliyyətinin əsas məqsədi üzv ölkələr arasında iqtisadiyyat, ticarət, nəqliyyat, turizm və mədəni-humanitar əməkdaşlığı inkişaf etdirməkdir.

Dünyanın inkişaf etməkdə olan müsəlman ölkələrinin bir araya gəlməsindən yaranan D-8-in qarşıya qoyduğu başlıca hədəf imperializmin istismarına qarşı dirəniş göstərmək, əl-ələ verib müasir dünyanın amansız rəqabətindən üzüağ çıxmaqdır. Bu, D-8-in bayrağındakı ulduzlarla simvollaşdırılmış prinsiplərində də öz əksini tapıb: təşkilatın bayrağında 6 ulduz var. Hər ulduz bir prinsipi əks etdirir. D-8-in qarşıya qoyduğu əsas prinsiplər isə bunlardır:

***Münaqişələr əvəzinə sülh;***
***Mübahisələr əvəzinə dialoq;***
***İstismar əvəzinə kooperasiyalar;***
***İkili standartlar əvəzinə hüquq;***
***Zülm əvəzinə demokratiya;***
***Diskriminasiya əvəzinə hüquqi bərabərlik.***

D-8 üzvləri inkişaf etməkdə olan ölkələr sayılsalar da, onların birgə böyük iqtisadi potensialı və siyasi gücü mövcuddur. Təşkilatda yer alan ölkələrin ümumilikdə 1 miyarda yaxın əhalisi var. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ittifaq üzvlərinin sayını 20-yə çatdırmaq hədəfi baş tutarsa, bu rəqəmin xeyli artacağını və dünya əhalisinin önəmli hissəsini ətrafında toplayacağını güman etmək olar. Bu isə perspektivdə iqtisadi əməkdaşlığın arzuolunan səviyyədə qurulması nəticəsində böyük işçi potensialı deməkdir. Bəzi müsəlman ölkələrinin demokratikləşməsi, insan hüquq və azadlıqlarının tam təmin olunması iqtisadi böyüməyə yol aça bilər ki, D-8-in başlıca prinsipləri arasında bu da var.

Yeri gəlmişkən, qeyd edək ki, Pakistan təşkilata sədrliyi dövründə (2014-cü ildə) D-8 BMT-də müşahidəçi status əldə edərək beynəlxalq səviyyədə mövqeyini gücləndirib. 2017-ci ilin iyunun 15-də İstanbulda – Çırağan Sarayında təşkilatın 20 illiyi qeyd edilib.

***

Onu da bildirək ki, 2017-ci ilin oktyabrın 20-də İstanbulda D-8-in "Əməkdaşlıq yolu ilə imkanları artırmaq" devizi altında IX Zirvə görüşü keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidentinin dəvəti ilə xüsusi qonaq qismində həmin görüşdə iştirak edib. Cənab İlham Əliyev hər beynəlxalq tədbirdə olduğu kimi bu zirvə görüşünün tribunasından da Azərbaycan həqiqətlərinin çatdırılması üçün istifadə edib. Həmçinin qeyd edib ki, Azərbaycan İslam həmrəyliyinə xüsusi əhəmiyyət və öz töhfəsini verir: "2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi ili" elan olunub. Eyni zamanda, bu il Azərbaycanda 54 müsəlman ölkəsindən gələn 3 minə yaxın idmançının iştirak etdiyi IV İslam Həmrəyliyi Oyunları keçirilib. Biz bu gün dünyada ən ciddi təhlükələrdən biri olan islamofobiyaya qarşı fəal mübarizə aparırıq. Özünü müsəlman ölkələrinin dostu kimi qələmə verməyə çalışan Ermənistan Qarabağ və ətraf bölgələrdə məscidləri və dini abidələri dağıdıb. Məscidləri dağıdan ölkə heç vaxt müsəlman ölkələrinin dostu ola bilməz".

***

Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycan dünyəvi, demokratik dövlət olmaqla bərabər, öz dini və milli ənənələrinə hər zaman sadiqliyi ilə seçilib. Azərbaycan xalqı İslam dünyasının ayrılmaz parçasıdır. Ölkəmizdə milli-mənəvi dəyərlər İslam dəyərləri əsasında formalaşıb. Prezident İlham Əliyev 2017-ildə keçirilən "İslam Həmrəyliyi ili: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransın açılış mərasimindəki nitqində İslam dəyərlərinin milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olduğunu vurğulayıb. Azərbaycan Avropa Şurasının, ATƏT-in, UNESCO-nun üzvü olmaqla bərabər, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və İSESCO kimi nüfuzlu beynəlxalq təşkilatların da üzvüdür. Müsəlman ölkələri arasında həmrəylik və əməkdaşlıq Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Hazırda müsəlman dünyasının əvvəlki dövrlərdə heç olmadığı qədər daha çox birliyə və həmrəyliyə ehtiyacı var. Bu baxımdan Azərbaycanın bu təşkilatda təmsil olunması həm təşkilatın özünün güclənməsi, resurslarının daha artması, həm Azərbaycanın yeni tribuna əldə etmək və təşkilata üzv ölkələrlə əlaqələri möhkəmləndirmək, həm də bütövlükdə İslam həmrəyliyinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

***Səxavət HƏMİD, "Xalq qəzeti"***

*Ekspert rəyi*



**Asim MOLLAZADƏ,**
**Milli Məclisin deputatı**

Azərbaycan İslam ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli formatda əməkdaşlığı inkişaf etdirir. Yaradılması Türkiyənin adı ilə bağlı olan D-8 təşkilatına daxil olmaq üçün Azərbaycan da müraciət edib. Bu təşkilatda təmsil olunmaq Azərbaycana öz həqiqətlərini çatdırmağa imkan verəcək. Ölkəmiz yeni beynəlxalq platformada iştirakçı ölkələrdən dəstək qazanacaq. Məqsəd bundan ibarətdir. Azərbaycan geniş, çoxşaxəli əməkdaşlığa hazırdır. Bir məsələ də ölkəmiz üçün xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın İslam dəyərlərini dünyaya yaymaqda böyük təcrübəsi var. Bakı 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının ev sahibi olub, bir sıra beynəlxalq muzeylərdə ölkəmiz İslam mədəniyyətini təşviq edib. İslam ölkələri ilə iqtisadi, siyasi sahələrlə yanaşı, mədəni-humanitar əməkdaşlığın da Azərbaycan üçün böyük önəmi var.

# Naxçıvanda Zərifə xanım Əliyevanın xatirəsinə ehtiram



**Dünya şöhrətli oftalmoloq, akademik, Əməkdar elm xadimi Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi münasibətilə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında, ayrı-ayrı qurumlarında rəngarəng tədbirlər keçirilib.**

**Mədəniyyət Nazirliyinin Heydər Əliyev Muzeyində təşkil etdiyi toplantını giriş sözü ilə açan muxtar respublikanın mədəniyyət naziri Natəvan Qədimova akademik Zərifə xanım Əliyevanın mənalı həyat yoluna, zəngin elmi fəaliyyətinə nəzər salaraq onun milli təbabətimizin inkişafındakı xidmətlərindən, ölkəmizdə oftalmoloqlar nəslinin yetişməsinə töhfəsindən danışıb.**

"Əsl Azərbaycan qadını nümunəsi – akademik Zərifə xanım Əliyeva" mövzusunda məruzə ilə çıxış edən Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova bildirib ki, Zərifə xanım mənsub olduğu ailədən mənimsədiyi dəyərləri qoruyub, sədaqətli ömür-gün yoldaşı, qayğıkeş ana olmaq missiyasını ən yüksək səviyyədə yerinə yetirib.

Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev ümummilli lider Heydər Əliyevin Zərifə xanım Əliyeva ilə bağlı xatirələrindən söz açıb. Qeyd olunub ki, ulu öndər vəfalı həyat yoldaşı barədə həmişə yüksək fikirlər səsləndirib, onun çox istedadlı, xeyirxah, səmimi insan olduğunu vurğulayıb və evdə yaratdığı yüksək mənəvi mühit, qayğıkeşlik və böyük sevgi ilə ailəyə həmişə xoşbəxtlik gətirdiyini bildirib.

Tədbir rejissor Vaqif Mustafayevin "Əsl məhəbbət haqqında" filminin nümayişi ilə davam edib. Sonda muzeyin ekspozisiyasına baxış keçirilib.

***

**Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında da görkəmli oftalmoloq alimin anadan olmasının 100-cü ildönümü münasibətilə mərasim keçirilib.**

"İnsanlara nur bəxş edən ləyaqət rəmzi – Zərifə xanım Əliyeva" mövzusunda tədbirin iştirakçıları Zərifə xanım Əliyevanın tibb ocağının foyesindəki büstü önünə tər çiçəklər düzüblər, alimin həyat və fəaliyyətini əks etdirən materiallarla tanış olublar.

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini Samiq Sadıxov bildirib ki, Naxçıvanda dünyaya göz açmış Zərifə xanım Əliyevanın şərəfinə bu gündən diyarda ən çox yayılan göz xəstəliklərindən olan keratokonusun müəyyən edilməsi üçün skrininq layihəsinə start verilir.

Poliklinikanın baş həkimi Səadət İbrahimova isə bildirib ki, şəhərin nümunəvi tibb müəssisəsi 1990-cı ildən görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın adını daşıyır. Ümummilli lider Heydər Əliyev 1990-cı və 1999-cu illərdə poliklinikada olub.



2012-ci ilin mayında ölkə Prezidenti İlham Əliyev poliklinikanın yeni binasının açılışında iştirak edib. Zərifə xanımın adını daşıyan səhiyyə müəssisəsində işləmək hər bir tibb işçisi üçün böyük şərəf və yüksək məsuliyyətdir.

Mərasimdə vurğulanıb ki, milli oftalmologiyamızı dünyada tanıtmış akademik Zərifə xanım Əliyevanın keçdiyi həyat yolu, sanballı xidmətləri, apardığı tədqiqatlar əsl təcrübə məktəbidir.

Naxçıvan Qızlar Liseyinin şagirdləri görkəmli alimə həsr olunmuş şeirləri səsləndiriblər.

Tədbir Zərifə xanım Əliyevaya həsr edilmiş sənədli filmin nümayişi və yubiley fləşmobunun təqdimatı ilə yekunlaşıb.

***

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı, şəhər və rayon mərkəzi xəstəxanalarının rəhbərlərinin, həkim-oftalmoloqların və Naxçıvan Dövlət Universiteti tibb fakültəsi rezident-həkimlərinin iştirakı ilə keçirilən konfransda da görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın xatirəsi dərin ehtiramla yad edilib, akademikin tibb elminə verdiyi töhfələrdən ətraflı söhbət açılıb.**

Bildirilib ki, anadan olmasının 100 illiyini dövlət səviyyəsində qeyd etdiyimiz görkəmli alim Zərifə xanım Əliyeva oftalmologiyanın aktual problemlərinə dair çoxsaylı tədqiqatlar aparıb, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf edib. Akademik Zərifə Əliyevanın çoxşaxəli elmi fəaliyyəti hələ sağlığında öz qiymətini alıb.

Muxtar Respublika Xəstəxanasının baş həkimi Zəbur Bağırov, oftalmoloqlar Kamilə Orucəliyeva, Kəmalə Əliyeva, Aynur Rzayeva, terapevt Aytən Kotan bildiriblər ki, Zərifə xanımın yazdığı əsərlər göz xəstəliklərinin müalicəsində xüsusi yer tutur, həm oftalmoloqlar, həm də digər ixtisas həkimləri üçün qiymətli mənbədir.

Konfrans çərçivəsində Bakı şəhərindən dəvət olunmuş oftalmoloq-cərrah Ruslan Məmmədov və cərrah-oftalmoloq Kəmalə Əliyeva 10 nəfər imkansız xəstənin pulsuz katarakt əməliyyatını icra ediblər. 20 aztəminatlı ailə üzvünə isə pulsuz eynəklər hədiyyə olunub.

Tədbir iştirakçıları Zərifə xanım Əliyevanın həyat və fəaliyyətini əks etdirən videofilmə baxıblar.

Sonda 100 könüllü gəncin iştirakı ilə yubileyə həsr olunmuş "100" və "Göz" kompozisiyası nümayiş etdirilib.

***

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi isə görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi ilə əlaqədar Kəngərli Rayon Mədəniyyət Sarayında tədbir keçirib.**

Əvvəlcə iştirakçıları Şaxtaxtı kəndində görkəmli akademikin adını daşıyan məktəbin foyesindəki büstü önünə gül dəstələri qoyublar, alimin həyat və fəaliyyətini əks etdirən muzeylə yaxından tanış olublar. Sonra Zərifə xanım Əliyevanın şərəfli həyat yolundan, elmi nailiyyətlərindən, ictimai xadim kimi fədakar fəaliyyətlərindən bəhs edən film nümayiş olunub.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov bildirib ki, Əməkdar elm xadimi, akademik Zərifə Əliyevanın tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələrini təşkil edir. 1981-ci ildə Zərifə Əliyevaya keçmiş ittifaqın oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatı verilib. Zərifə xanım həmin mükafata layiq görülən ilk qadın alim idi.

Yeni Azərbaycan Partiyası Kəngərli rayon təşkilatının sədri Sevda Quliyeva, Kəngərli Rayon Təhsil Şöbəsinin müdiri Emin Məmmədxanlı, Şahtaxtı kənd tam orta məktəbinin direktoru Etimad Məmmədov dünya şöhrətli alimin Azərbaycan tibb elminin inkişafındakı xidmətlərindən və oftalmologiya sahəsində qazandığı nailiyyətlərdən danışıblar.

Bədii sonluqda rayon şagirdləri Zərifə xanım Əliyevaya həsr olunan şeirlər söyləyiblər, musiqi nömrələri ifa ediblər.

*Səbuhi HƏSƏNOV,*
*"Xalq qəzeti"*

**Naxçıvan**

# "Heydər zirvəsi"nə yürüş




**Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Dövlət Təhlükəsizliyi Xidmətinin bir qrup əməkdaşı ulu öndərin adını daşıyan, Böyük Qafqaz sıra dağlarının Başdağ silsiləsinin Qızıl Qaya massivində, dəniz səviyyəsindən 3751 metr hündürlükdə yerləşən "Heydər zirvəsi"nə növbəti yürüş təşkil edib.**



Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, yürüş iştirakçıları relyef və iqlim şəraitinin sərt və mürəkkəb olmasına baxmayaraq, müəyyən olunmuş yerə vaxtında çatıb, dahi şəxsiyyətin xatirəsini dərin ehtiramla anıblar. Onlar Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldaraq, Dövlət Təhlükəsizliyi Xidmətinin adı və emblemi olan plakatı, həmçinin işğaldan azad olunmuş ərazilərdəki təbii yataqlardan götürülən qaya parçasından hazırlanmış və üzərində ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünü əks etdirən xatirə daş lövhəsini zirvəyə yerləşdiriblər.

# Baş Prokurorluqda yubiley tədbiri



**Azərbaycanın görkəmli alimi, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi münasibətilə aprelin 28-də Baş Prokurorluqda tədbir keçirilib.**

Tədbirdən öncə Baş Prokurorluğun rəhbərliyi Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın xatirəsini dərin ehtiramla yad edib, məzarları önünə gül dəstələri qoyublar.

Açılış nitqi ilə çıxış edən Baş Prokuror Kamran Əliyev əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermiş akademik Zərifə xanım Əliyevanın gələcək nəsillərə nümunə olacaq elmi fəaliyyəti və mənalı həyat yolundan bəhs edib, insanlara nur və həyat bəxş edən görkəmli alimin zəngin irsinin yeni elmi zirvələri inamla fəth edəcəyini vurğulayıb.

Tədbirdə çıxış edən Baş Prokurorluğun idarə rəisi Aynur Osmanova Zərifə xanım Əliyevanın peşəkar oftalmoloq-həkim kimi fədakarlığından, tədqiqatları ilə tibb elminin inkişafına mühüm töhfələrindən və yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında əvəzsiz rolundan danışıb.

Tədbirin sonunda akademik Zərifə xanım Əliyevanın keçdiyi həyat yolundan bəhs edən "Elegiya" adlı sənədli filmə baxılıb.

# Ulu öndərin insan amilinə yüksək dəyər verən hüquq sistemi





**Qax Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunan tədbir keçirilib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Şəki regional qrupundan redaksiyamıza verilən məlumata görə, əvvəlcə ulu öndərin şəhərin mərkəzində ucaldılan abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Heydər Əliyev Mərkəzində davam edən tədbirdə iştirakçılar əvvəlcə ulu öndərin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin əziz xatirələrini bir dəqiqəlik sükutla anıblar. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən rayon polis şöbəsinin rəisi, polis polkovniki Vidadi Qurbanov ümummilli liderin şərəfli və mənalı ömür yolundan, zəngin dövlətçilik təcrübəsindən, Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən söz açıb. Məhz ulu öndərin səyləri nəticəsində insan amilinə yüksək dəyər verən hüquq sisteminin, yerli qanunvericilik bazasının təkmilləşdirilərək mükəmməl formaya salındığını diqqətə çatdırıb.

Daha sonra çıxış edənlər Heydər Əliyevin çoxşaxəli fəaliyyətindən, Azərbaycanın inkişafı istiqamətində həyata keçirdiyi layihələrdən, böyük xilaskarlıq missiyasından danışıblar.

Sonda ulu öndərin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.

**Yeni nəşrlər**

# "Heydər Əliyev Azərbaycanda milli qanunvericiliyin və hüquqi dövlətin yaradıcısıdır"

**AMEA-nın Azad Həmkarlar İttifaqının sədri, hüquq elmləri doktoru, professor Habil Qurbanovun "Heydər Əliyev Azərbaycanda milli qanunvericiliyin və hüquqi dövlətin yaradıcısıdır" adlı kitabı işıq üzü görüb.**




"Heydər Əliyev İli"nə ithaf edilən kitabda müstəqil Azərbaycanda ulu öndərin formalaşdırdığı hüquqi dövlətin milli qanunvericiliyində prosedur, nizamlanma və tənzimlənmə kontekstində dövlət, cəmiyyət və sosiosiyasi problemlərə dair elmi-nəzəri hüquqi baxışlar işıqlandırılır.

Kitabda müəllifin apardığı araşdırmalara əsasən, son illər ərzində beynəlxalq və respublika konfranslarındakı məruzələri, həmçinin ölkə qəzet və jurnallarında dərc edilmiş məqalələri də təkmilləşdirilərək işıqlandırılıb.

Kitab geniş oxucu kütləsi, bakalavr, magistr, doktorant, elmi tədqiqatçılar, QHT mənsubları və digərləri üçün hüquq sahəsində sanballı maarifləndirici vasitə ola bilər.

*"Xalq qəzeti"*

*Milli Məclisin plenar iclasında*

# İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının yeni tərkibi təsdiqləndi



**Mayın 2-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasının növbəti plenar iclas keçirildi. Milli Məclis Sədrinin rəhbərliyi ilə nümayəndə heyətinin aprelin 27-28-də Ankara şəhərinə işgüzar səfəri zamanı Türk Dövlətləri Parlament Assambleyasının on ikinci plenar iclasında iştirakı barədə məlumat verildi. İclasda bir sıra zəruri məsələlərin diqqətə çatdırıldığını deyən S.Qafarova Qoşulmama Hərəkatının Parlament Şəbəkəsində TÜRKPA-nın müşahidəçi statusu alması ilə bağlı müraciətinin nəzərdən keçirildiyini və dəstəkləndiyini bildirdi. Bununla yanaşı, TÜRKPA-da Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin müşahidəçi statusu əldə etməsi ilə bağlı müraciətinə də baxıldığı və Parlament Şəbəkəsinə assambleyada müşahidəçi statusu verildiyi diqqətə çatdırıldı.**

Sonra cari məsələlər müzakirə olundu. Çıxış edən deputatlar aprelin 29-da dövlətimizin başçısı İlham Əliyevin qardaş ölkəyə işgüzar səfəri çərçivəsində türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan ilə İstanbulda keçirilən "TEKNOFEST" festivalında iştirakından söhbət açdılar. Qeyd edildi ki, bu festival qardaş ölkənin digər sahələrdə olduğu kimi, kosmos, aviasiya və texnologiya sahələrində də necə sürətlə inkişaf etdiyinin göstəricisidir. Diqqətə çatdırıldı ki, Prezident İlham Əliyev çıxışında Türkiyə xalqının, dövlətinin və Prezidentinin 44 günlük Vətən müharibəsi zamanı Azərbaycanın yanında olduğunu, Şuşa Bəyannaməsini xatırlatması iki qardaş ölkə arasındakı münasibətlərin çox yüksək səviyyədə inkişaf etdiyinin göstəricisidir. Deputatlar, həmçinin Laçın-Xankəndi yolunun başlanğıcında qurulan sərhəd-buraxılış məntəqəsinin əhəmiyyətindən də söhbət açdılar.

Sonra Parlamentin sədri iclasda 17 qanun layihəsinin müzakirə olunacağını bildirdi.

Birinci məsələ – İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının tərkibində dəyişiklik edilməsi haqqında parlamentin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva məlumat verdi. Komitə sədri dedi ki, Milli Məclisin iclasında İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının 3 üzvünün səlahiyyət müddəti başa çatdığından onların əvəzinə yeniləri seçilməlidir. O, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Həsən Cəfərov və Əzim Talıbovun, Azərbaycan Milli Elmlər Akademiyasının Teymur Kərimli və Sərxan Xavərinin, Azərbaycan Mətbuat Şurasının Azər Həsrət və Aqil Ələsgərin İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlüyünə namizədliyini irəli sürdüklərini bildirdi.

Müzakirələrdən sonra keçirilən səsvermə nəticəsində Həsən Cəfərov, Teymur Kərimli və Azər Həsrətin İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlüyünə namizədlikləri təsdiqləndi.

S.Qafarova gündəlikdəki növbəti beş məsələnin üçüncü oxunuşda müzakirəyə çıxarıldığını bildirdi. Həmin məsələlər barəsində məlumat verən komitə sədrləri Hicran Hüseynova, Əli Hüseynli və deputat Nurlan Həsənova əlavə təklif və rəylərin daxil olmadığını bildirərək qanun layihələrinin səsə qoyulmasını təklif etdilər.

Gündəlikdəki digər məsələlərin birinci oxunuşda təqdim edildiyini bildirən S.Qafarova "Minatəmizləmə sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında məlumat vermək üçün sözü Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərova verdi. O dedi ki, mina terroru, ümumilikdə, erməni terrorizmini göstərən əsas faktlardan biridir. Müharibədən sonra 55 nəfər soydaşımız ermənilərin basdırdığı minaya düşərək həlak olub. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanat qəbul edildikdən sonra döyüş əməliyyatları dayandırılandan bu günə qədər Ermənistan silahlı qüvvələrinin basdırdıqları minaların partlaması nəticəsində hərbi qulluqçu və mülki şəxs olmaqla, ümumilikdə 299 nəfər mina qurbanlarından 244-ü isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Sənəd müzakirələrdən sonra səsə qoyularaq qəbul edildi.

S.Qafarova digər qanun layihələrinin dövlət başçımızın bir məktubu ilə daxil olduğunu bildirdi və həmin məsələlər müzakirə olunaraq, birinci oxunuşda qəbul edildi.

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***

# İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının tərkibində dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*

"Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinə əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun I hissəsinin 5-ci bəndinə və "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun 17.2–17.4-cü və 17.6-cı maddələrinə əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Aşağıdakı şəxslər 6 il müddətinə İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvü seçilsinlər:

Həsən Şahhüseyn oğlu Cəfərov – namizədliyi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən irəli sürülmüşdür;

Teymur Həşim oğlu Kərimli – namizədliyi Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən irəli sürülmüşdür;

Azər Hacıqulu oğlu Həsrət – namizədliyi Azərbaycan Mətbuat Şurası tərəfindən irəli sürülmüşdür.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***

**Bakı şəhəri, 2 may 2023-cü il**

# ADA Universitetində beynəlxalq konfrans

**Mayın 2-də ADA Universitetində 30-dan çox ölkənin 60-dək nümayəndəsinin iştirakı ilə "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda beynəlxalq konfrans keçirilib. Konfrans ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilib.**



Konfransda ABŞ dövlət katibinin sabiq köməkçisinin müavini, Özbəkistanın Ali Məclisi Senatı sədrinin keçmiş birinci müavini və digər qonaqlar iştirak ediblər.

Konfransın ilk sessiyası ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə keçirilib. O vurğulayıb ki, tədbirin Avrasiya regionunda gələcək tendensiyaların müzakirəsi baxımından mühüm əhəmiyyət daşıyır.

ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev çıxışında bildirib ki, artıq 4-cü dəfədir ADA Universiteti belə bir konfransa evsahibliyi edir. Konfransın siyasət, elmi və beynəlxalq münasibətlər üzrə mühüm əhəmiyyətə malik olduğunu deyən Hafiz Paşayev qeyd edib ki, regional və qlobal gündəmdəki məsələləri müzakirə etmək üçün ADA Universiteti önəmli məkan hesab olunur. Burada bildirilən fikirlər daha sonra dünyanın bir çox ölkələrində məqalələr şəklində jurnallarda və hətta sosial mediada işıqlandırılır.

Rektor vurğulayıb ki, ulu öndər Heydər Əliyev geosiyasət sahəsində mühüm addımlar atmış şəxsiyyət idi. "O, Sovet İttifaqında siyasi yüksəkliklərə çatan yeganə azərbaycanlı idi. 1990-cı illərdə Azərbaycan böhranın ortasında idi. Müharibə, torpaqlarımızın Ermənistan tərəfindən işğalı, iqtisadi böhran – məhz bu şəraitdə ulu öndər Heydər Əliyev ölkəni idarə etməyə başlayıb. Ümummilli lider hakimiyyətə gəldikdən sonra müharibə dayandırılıb, iqtisadiyyat sabitləşdirilib", – deyə Hafiz Paşayev qeyd edib.

Konfransda Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının iqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov çıxış edərək, "Əsrin müqaviləsi"nin əhəmiyyətindən, Bakı–Tbilisi–Ceyhan layihəsindən və Azərbaycanın təşəbbüskarı olduğu nəhəng nəqliyyat dəhlizləri layihələrinin önəmindən bəhs edib. Deyib ki, ölkəmizə 300 milyard dollara yaxın investisiya qoyulub. Azərbaycan alternativ enerji resurslarını paylaşan ölkədən tranzit ölkəyə çevrilib.

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev bildirib ki, ölkəmiz bir çox beynəlxalq, əsasən də nəqliyyat və tranzit sahələrə aid layihələrin təşəbbüskarı olub. Həmçinin ulu öndər Heydər Əliyevin Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin əsasını qoyub.

Nazir vurğulayıb ki, hazırda dünyada baş verən hadisələr, müharibələr alternativ tranzit yollarına ehtiyacın olduğunu bir daha göstərir, bu da Orta Dəhlizin əhəmiyyətini artırır. "Son 10 il ərzində biz bir neçə yeni hava limanı inşa etdik. Hesablamalarımıza görə, qarşıdakı beş il ərzində ölkəmiz tərəfindən tranzit daşımaların həcmi 23 milyon ton olacaq. Onu da qeyd etmək lazımdır ki, Orta Dəhliz yalnız böhran zamanı alternativ olaraq görünməli deyil", – deyə Rəşad Nəbiyev əlavə edib.

Konfransın ikinci sessiyası ABŞ Hərbi Dəniz Donanması Ali Məktəbinin nümayəndəsi Brenda Şafferin moderatorluğu keçirilib.

Çıxış edənlər – ABŞ-ın Azərbaycandakı sabiq səfiri, ATƏT-in Minsk qrupunun keçmiş həmsədri Mətyu Brayzə, Özbəkistan Ali Məclisinin Senatı sədrinin birinci müavini Sadıq Safayev, Gürcüstanın ABŞ-da və Kanadada sabiq səfiri Tedo Caparidze, Şanxay Əməkdaşlıq Təşkilatının sabiq Baş katibi Bolat Nurqaliyev və ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə katibinin köməkçisinin keçmiş müavini David Merkel qeyd ediblər ki, gənc Azərbaycan dövlətini xaos dolu illərdən çıxararaq ayağa qaldırdığına görə Heydər Əliyevin fəaliyyəti hər zaman yüksək dəyərləndirilir.

Bildirilib ki, Heydər Əliyev sovet dövründə çox önəmli vəzifələrə yüksəlib və İttifaqda özünün siyasi müdrikliyinə görə tanınıb.

***AZƏRTAC***

# "Qaynana" özbək səhnəsində



**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) dəstəyi ilə Mukimi adına Özbəkistan Dövlət Musiqili Teatrında Məcid Şamxalovun "Qaynana" musiqili komediyasının özbək dilində təqdimatı olub.**

Tamaşadan əvvəl teatrın direktoru, Özbəkistanın və Qazaxıstanın əməkdar artisti Azim Mullaxanov Azərbaycan əsərlərinə daim Özbəkistanda böyük maraq olduğunu, "Arşın mal alan", "Leyli və Məcnun", "Qaynana" əsərlərinin özbək tamaşaçılar tərəfindən çox sevildiyini qeyd edib. O, Özbəkistanın teatr səhnələrində azərbaycanlı müəlliflərin pyeslərinin, dramlarının tamaşaya qoyulmasının mühüm hadisə kimi qarşılandığını vurğulayıb. Azim Mullaxanov əməkdaşlığa və diqqətə görə Azərbaycan Mədəniyyət Mərkəzinə öz təşəkkürünü bildirərib, gələcəkdə də bu ənənənin davam etdiriləcəyini bildirib.

AMM-nin direktoru Samir Abbasov xalqlarımız arasında dostluq, qardaşlığın tarixi haqqında danışaraq, ötən əsrin əvvəllərində azərbaycanlıların Türkistanın mədəni həyatında mühüm rol oynadıqlarını, Azərbaycan müəlliflərinin əsərlərinin Özbəkistan səhnəsində dəfələrlə nümayiş etdirildiyini deyib. O bu ənənənin davamı kimi Azərbaycanda məşhur olan "Qayınana" əsərinin Özbəkistan səhnəsində tamaşaya qoyulmasına görə Özbəkistan Mədəniyyət və Turizm Nazirliyinə, teatrın kollektivinə təşəkkürünü bildirib.

Sonra teatrın baş rejissoru Dastan Xaqverdiyevin quruluş verdiyi "Qaynana" tamaşası nümayiş etdirilib.

Tamaşada Cənnət rolunu Özbəkistanın Əməkdar artisti Muxabbat Sotvaldiyeva, Afət və Zərifə obrazlarını Gulasal Raxmanova, Ayaz rolunu Omon Yuldaşev, Sevda obrazını Arofat Erqaşova, İlqar rolunu Ravşan İbrahimov, Sədaqət obrazını Zilola Abdullayeva canlandırıblar.

Tamaşanın musiqi tərtibatçısı Özbəkistanın Fəxri mədəniyyət xadimi Karima Uzakova, dirijoru Akmal Turayevdir.

Tamaşadakı musiqilər Azərbaycan dilində ifa olunub.

Musiqili komediyanın on gün nümayiş etdirilməsi nəzərdə tutulub.

***Qulu KƏNGƏRLİ***
**Daşkənd**



# Mingəçevirdə Fövqəladə Hallar Komissiyasının iclası keçirilib

**Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı yanında Fövqəladə Hallar Komissiyasının iclası keçirilib. İclas zamanı aprelin 6-da və 30-da, eləcə də mayın 1-də yağan güclü leysan yağışlarından, dolu düşməsindən sonra şəhərdə baş verən fəsadlar müzakirə olunub.**

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov iclasda qeyd edib ki, apreldə və mayın 1-də yağan güclü leysan yağışları və dolu şəhərimizdə bir sıra fəsadlar törədib. Bununla əlaqədar olaraq şəhər icra hakimiyyətinə və ərazi xidmət sahələrinə sakinlərdən çoxsaylı müraciətlər daxil olub. Bəzi fərdi yaşayış evlərinin həyətlərini su basıb, dolunun yağması nəticəsində binaların dam örtükləri zərər çəkib. Həyətlərdəki meyvə ağacları və digər kənd təsərrüfatı sahələri sıradan çıxıb, sakinlərə çoxsaylı ziyan dəyib. Görülən tədbirlər nəticəsində yaranan fəsadların qarşısı nisbətən alınıb.

İclasda şəhər icra hakimiyyətinin başçısı yanında Fövqəladə Hallar Komissiyasının sədr müavini Məhluqə Cavadova həyata keçirilən tədbirlər barədə komissiya üzvlərinə ətraflı məlumat verib.

Qeyd edilib ki, həmin saatlarda Mingəçevirə yağan yağışların, dolunun miqdarı aylıq normadan çox olub. Buna baxmayaraq, şəhərimizin bütün kommunal xidmət sahələrinin rəhbərləri və işçiləri fəsadların qarşısının alınmasında fədakarlıq göstərib.

İclasda Sukanal idarəsinin, qaz təsərrüfatının, mənzil-kommunal təsərrüfatı idarələrinin, işıqlanma idarəsinin, yaşıllaşdırma və sanitar təmizlik idarəsinin rəhbərləri görülən işlər barədə məlumat verərək təkliflərini bildiriblər.

Sonda Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov iclasın işinə yekun vuraraq yaranmış problemlərin aradan qaldırılması yolunda tapşırıqlarını verib.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# Ölkəmiz regionun avtomobil istehsalçısına çevrilir



**Azərbaycanda avtomobil istehsalı geniş yayılmasa da, son illər bu sahədə müəyyən canlanma müşahidə olunur. Müqayisə üçün qeyd edək ki, 2017-ci ildə ölkəmizdə cəmi 30 minik avtomobili istehsal olunduğu halda, 2022-ci ildə bu rəqəm 2049 ədədə çatıb. Bu sahədə artım cari ilin birinci rübündə də davam edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-mart aylarında Azərbaycanda 925 ədəd minik avtomobili istehsal olunub ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 486 ədəd və ya 2,1 dəfə çoxdur.**

### *Ekspert rəyi*

***Eldəniz CƏFƏROV, avtomobil nəqliyyatı üzrə ekspert***



Hazırda Azərbaycanda minik avtomobillərinə olan illik tələbat təxminən 60 min ədəd təşkil edir. Bununla belə, iqtisadiyyat inkişaf etdikcə, əhali sayı çoxaldıqca nəqliyyat vasitələrinə tələbat da ildən-ilə artır. Bu səbəbdən də Azərbaycanın özünün milli avtomobil sənayesinin qurulmasına və inkişaf etdirilməsinə böyük ehtiyac var. Düzdür, hazırda Naxçıvan, Gəncə və Neftçala şəhərlərində avtomobillərin istehsalı həyata keçirilir. Bu müəssisələrdə istehsal olunan minik avtomobillərinin sayı isə məhdud olduğundan mövcud tələbatı ödəmir. Ona görə də ölkəmizdə daha iri avtomobil istehsalı müəssisələrinin yaradılmasına ehtiyac duyulur.

Bu baxımdan bizə dost və qonşu olan ölkələrin bu sahədəki təcrübəsindən yararlanmaq yaxşı olardı. Məlum olduğu kimi, bir qədər əvvəl İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyi, Azərbaycan Maşın və Avadanlıq İstehsalçıları Assosiasiyası və Özbəkistanın "Uzavtosanoat" Səhmdar Cəmiyyəti arasında ölkəmizdə avtonəqliyyat vasitələrinin istehsalının genişləndirilməsi haqqında əməkdaşlıq sənədi imzalanmışdı. Daha sonra Özbəkistan şirkətinin əməkdaşları cənab Prezident tərəfindən qəbul edildi.

Yeri gəlmişkən, son illər Özbəkistanda avtomobil sənayesi çox inkişaf edib. Elə Azərbaycanla memorandum imzalayan şirkətin özünün də bir neçə avtomobil zavodu fəaliyyət göstərir. Həmin şirkətin illik dövriyyəsi isə təqribən 4 milyard dollara yaxındır. Onu da deyim ki, Özbəkistan şirkəti kifayət qədər sanballı və istehsal etdiyi maşınları dünyanın bir sıra ölkələrinə satan tanınmış avtomobil istehsalçısıdır.

Eyni zamanda, ötən il Azərbaycanda yerli istehsal olan 2119 ədəd avtomobil satılıb. Məhz bunun nəticəsidir ki, artıq yollarımızda Naxçıvan və Neftçalada istehsal olunmuş minik avtomobillərinə də rast gəlmək mümkündür. Bununla yanaşı, hazırda Gəncə avtomobil zavodunda, əsasən, kənd təsərrüfatı texnikası istehsal olunur. Naxçıvan avtomobil zavodu isə bir qədər əvvəl istehsal prosesini dayandırıb.

Hazırda ölkəmizdə minik avtomobillərinin yeganə istehsalçısı Neftçala avtomobil zavodudur. Neftçala Sənaye Məhəlləsində 10 hektar ərazidə tikilmiş "Khazar" avtomobil zavodunda müasir texnologiyalar, avadanlıq və mexanizmlər əsasında "Runna", "Samand", "Soren", "Dena", "Peugeot-206", "Peugeot-207", "Renault-Tondar", "Renault-Pickup" kimi avtomobil modelləri istehsal olunur. Ümumi dəyəri 15 milyon dollar olan zavodun illik istehsal gücü 10 min avtomobildir. "Khazar" avtomobil zavodunda istehsal edilən avtomobillər AVRO-5 və beynəlxalq təhlükəsizlik standartlarına tam uyğundur. Bu avtomobillər yerli bazarda satılmaqla yanaşı, "Made in Azerbaijan" brendi altında xarici bazarlara da çıxarılır.

Yaxın illərdə isə Azərbaycanda avtomobil istehsalı xeyli artacaq. Bu, Hacıqabul Sənaye Məhəlləsinin ərazisində yaradılacaq Azərbaycan-Özbəkistan birgə avtomobil zavodu işə salındıqdan sonra mümkün olacaq. Mayın 1-də Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev, Özbəkistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov, Azərbaycanın iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov, eləcə də "Uzavtosanoat" Səhmdar Cəmiyyəti idarə heyətinin sədri Uluqbek Rozukulovun iştirakı ilə yeni zavodun təməlqoyma mərasimi keçirilib.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov mərasimdə bildirib ki, Prezident İlham Əliyev Özbəkistana səfəri zamanı iki ölkə arasında bir sıra sahələrdə, o cümlədən sənaye sahəsində əməkdaşlığa dair sazişlər imzalanıb. Bunun da nəticəsində Azərbaycanla Özbəkistan arasında ikitərəfli əlaqələrin inkişafı üzrə ilk uğurlu hədəfə nail olunduğunu vurğulayan nazir müavini qeyd edib ki, bu layihə təkcə Azərbaycanı inkişaf etdirməyəcək, eyni zamanda, bütün region üçün əlverişli şərait yaradacaq.

Qeyd edək ki, Azərbaycan–Özbəkistan birgə avtomobil zavodunun 2025-ci ilin mayında işə salınacağı gözlənilir. İki il ərzində zavodun inşasına və burada istehsal prosesinə başlanmasına 88 milyon manat investisiya yönəldiləcək. Müəssisədə ABŞ, İtaliya, Çin, Koreya və Özbəkistan kimi ölkələrin texnologiyalarından istifadə olunmaqla "Chevrolet", "Cobalt", "Malibu", "Tracker" və "Equinox" markalı minik avtomobillərinin istehsalı nəzərdə tutulur. Bütövlükdə isə, zavod işə salındıqdan sonra layihə çərçivəsində burada il ərzində 30 min ədəd avtomobil istehsal olunacağı gözlənilir. Həmin avtomobillərin isə daxili bazarda satışı ilə yanaşı, ixrac olunması da planlaşdırılır.

Yeri gəlmişkən, Hacıqabul Sənaye Məhəlləsi Azərbaycan Respublikası Prezidentinin "Hacıqabul Sənaye Məhəlləsinin yaradılması haqqında" 25 iyul 2017-ci il tarixli Sərəncamı ilə yaradılıb. Ərazisi 60 hektar təşkil edən sənaye məhəlləsində müxtəlif istehsal sahələrinin yaradılmasına indiyədək 51 milyon manatdan çox investisiya yönəldilib. Sənaye rayonunun rezidentlərinin sayı 13-dür. Ötən müddətdə burada 500-ə yaxın iş yeri açılıb. Yeni avtomobil zavodunun yaradılması isə əlavə olaraq 1200 iş yerinin açılmasına imkan yaradacaq.

Azərbaycan–Özbəkistan birgə avtomobil istehsalı müəssisəsində ehtiyat hissələrinin istehsal olunacağı da gözlənilir. Azərbaycan Maşın və Avadanlıq İstehsalçıları Assosiasiyasının sədri Emin Axundov bildirib ki, artıq avtomobil istehsalı üzrə birgə müəssisənin tikintisinə start verilib. Avtomobil yığımını təmin edəcək ilk addımdan sonrakı mərhələdə zavodun inkişafı və əlavə istehsalat imkanlarının işə salınmasına hazırlıq işləri görüləcək. Üçüncü mərhələdə isə ehtiyat hissələrinin istehsalı planlaşdırılır.

Bütövlükdə isə, müəssisədə istehsal olunacaq maşınların daxili tələbatın ödənilməsi ilə yanaşı, ölkəmizin avtomobil parkının yenilənməsinə də mühüm töhfələr verəcəyini güman etmək olar.

***Mirbağır YAQUBZADƏ, "Xalq qəzeti"***

**2022-ci ildə Azərbaycanın Avropanın qaz bazarında payı artaraq 2021-ci ildəki 4,9 faizdən 6,9 faizə çatıb. Bu barədə Dünya Bankının hesabatında məlumat verilib.**

# Bu il Avropaya 12 milyard kubmetr qaz ixrac ediləcək



Avropaya qaz tədarükçülərinin payında dəyişikliyin dinamikasını əks etdirən hesabata əsasən, ötən il Azərbaycanla yanaşı, ABŞ, Qətər, Norveç və digər ölkələr də bu sahədə müsbət dinamikaya nail olublar. Rusiya və Əlcəzairin isə Avropanın qaz bazarında payı müvafiq olaraq 34,1 faizdən 19,5 faizə və 20,2 faizdən 18,5 faizə enib.

Qeyd edək ki, Azərbaycan Avropaya qaz tədarükünə 2020-ci il dekabrın 31-də başlayıb. Cənub Qaz Dəhlizinin Avropa hissəsi olan Trans-Adriatik qaz kəməri vasitəsilə kommersiya istismarı başlandıqdan sonra Avropa bazarlarına, ümumilikdə, 22 milyard kubmetr qaz nəql olunub. Bu il isə Azərbaycan Avropaya 12 milyard kubmetr qaz ixrac etməyi planlaşdırır.

Yeri gəlmişkən, son məlumatlara görə, 2023-cü ilin birinci rübündə Azərbaycanda qaz hasilatı 3 faiz artaraq 12,2 milyard kubmetrə çatıb. Ölkə təbii qazın yarıdan çoxunu və ya 6,5 milyard kubmetrini xarici bazara ixrac edib.

***"Xalq qəzeti"***

# Orta Dəhliz Qərbi Şərqə qovuşdurur




**Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunan "Böyük Avrasiyanın geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" adlı beynəlxalq konfransın açılış mərasimində çıxış edən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev ötən il Azərbaycan ərazisindən Orta Dəhliz (Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi) vasitəsilə tranzit yükdaşımaların həcminin 75 faizə çatdığını, eyni zamanda, bu rəqəmin sürətlə yüksəldiyini bildirib.**

Nazir, həmçinin Orta Dəhlizin hazırda rolunun daha böyük əhəmiyyət kəsb etdiyini vurğulayaraq Azərbaycanın düşməndən təmizlənən ərazilərində istifadəyə verilən beynəlxalq hava limanlarının bu istiqamətdə önəmli rol oynadığını, Zəngəzur dəhlizinin fəaliyyətə başlamasından sonra isə regionun tranzit potensialının daha da güclənəcəyini diqqətə çatdırıb. "Zəngəzur dəhlizinin təkcə Azərbaycan üçün deyil, regionun digər ölkələri üçün də bir çox üstünlükləri var", – nazir əlavə edib. O, bu dəhlizin yüklərin daha sürətli daşınmasını təmin edəcəyini, tranzit üçün ən əlverişli yol olacağını, infrastrukturun regionun bütün ölkələrinin, o cümlədən Ermənistanın faydalana biləcəyini də söyləyib.

Qeyd edək ki, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa da qoşulub. Hazırda marşrut Çin–Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılaraq "vahid pəncərə" prinsipi tətbiq olunur.

Yeri gəlmişkən, burada bir məsələni də qeyd etmək istərdik. Azərbaycan Çinlə Avropa İttifaqı (Aİ) arasında ən önəmli nəqliyyat qovşağına çevrilməklə yanaşı, bütün bölgənin iqtisadi inkişafını şərtləndirəcək yeni layihəyə başlayıb. Belə ki, Qazaxıstandakı "Kaşağan" yatağından ilk test xam neft partiyası Xəzər dənizindən keçməklə Aktau–Bakı marşrutu ilə daşınıb. Daşınma "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-yə məxsus "Akademk Xoşbəxt Yusifzadə" tankeri ilə gerçəkləşdirilib.

Yaponiyanın "Inpex North Caspian Sea, Ltd." şirkətinin Qazaxıstandakı bölməsinin direktoru Hiroşi İkedanın sözlərinə görə, ilk test daşıma "Kaşağan" neftinin ixrac marşrutlarının sayının artırılmasının Transxəzər marşrutu istiqamətinə dəmiryol daşımaları vasitəsilə mümkünlüyünü sübut edir.

Xatırladaq ki, Qazaxıstan əvvəllər xam neftini Avropa bazarlarına Rusiya Federasiyasının ərazisindən keçməklə daşıyıb. Lakin bu marşrutda müəyyən səbəblərə görə çətinliklər yarandığından ötən ilin martında həmin istiqamət ilə qazax neftinin nəqli dayanıb.

Bu ilin yanvar-fevral aylarında isə "KazTransOil" şirkəti tərəfindən Rusiyanın Mahaçqala limanına 325 min 900 ton neft göndərilib. Həmin neft sonradan Mahaçqala–Tixoretsk–Novorossiysk neft boru kəməri vasitəsilə nəql edilib.

Ekspertlər bildirirlər ki, geosiyasi və xüsusilə də geoiqtisadi baxımdan Aktaudan Səngəçala çatdırılan neft Şərqlə Qərbi birləşdirərək nəhəng regionun iqtisadi xəritəsində yeni, səmərəli marşrutun işə düşməsi deməkdir. Həmin marşrut Orta Dəhliz ("Middle Corridor") kimi tanınan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM) layihəsidir.

Layihə çərçivəsində Azərbaycan paytaxtından 70 kilometr cənubda yerləşən Ələt Azad İqtisadi Zonasındakı (AİZ) Bakı limanının genişləndirilməsi başa çatdırılıb. Orta Asiya və Cənubi Qafqazdan keçən Orta Dəhlizin əsas funksiyası Şərqdən Qərbə enerjidaşıyıcılarının və konteyner daşımalarının intensivliyi ilə miqyasının artırılmasıdır.

Bir zamanlar çox böyük ümidlər bəslənən və az qala "yeni əsrin ən böyük, qlobal layihəsi" kimi təqdim edilən, Çinin təşəbbüsü olan "Bir kəmər, bir yol" layihəsindən fərqli olaraq Orta Dəhliz səmərəliliyi ilə diqqət çəkir. Bunu ötən ilin mayında Çindəki Tuanszesun şəhərindən Finlandiyaya göndərilmiş ilk test yük partiyasının Bakıya uğurla çatdırılması da sübut etdi. "Nurminen Logistics" şirkətinə məxsus yük sonradan dəmir yolu ilə Gürcüstanın Poti limanına, oradan da bərə ilə Rumıniyanın Konstansa limanına daşınmışdı.

Xatırladaq ki, Tuanszesundan Finlandiyanın paytaxtı Helsinkiyə olan yol 13 min kilometrdir. Orta Dəhliz, eyni zamanda, Çindən Avropaya ünvanlanan yüklər üçün Konstansaya alternativ olaraq Bolqarıstanın Varna limanını da təklif edir.

Azərbaycan, Çin, Qazaxıstan və Gürcüstan tərəfindən Orta Dəhliz marşrutunun inkişaf etdirilməsi nəzərdə tutulur. Ekspertlərin hesablamalarına görə, marşrutun illik potensialı 10 milyon metrik ton və ya 200 min konteynerdir. Dörd ölkə daxili şirkətlər üçün vahid tarifləri müəyyənləşdirmək, habelə yükdaşıma şirkətlərinin fəaliyyətini sadələşdirmək niyyətindədir.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***

### *Ekspert rəyi*

**Mirağa ƏHMƏDOV, iqtisadçı-ekspert**



Hazırda Çinlə Aİ arasındakı üç ticari marşrutdan biri məhz Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutudur (TBNM) ki, onun uzunluğu avtomobil və dəmir yolu ilə 4256 kilometr, dəniz yolları ilə 508 kilometrdir. TBNM ilə hərəkət edən standart konteyner qatarı Çindən Aİ-yə yükləri orta hesabla 20-25 sutkaya çatdırır. Müqayisə üçün deyək ki, Çindən və Cənub-Şərqi Asiya ölkələrindən Aİ-yə yüklərin əhəmiyyətli hissəsi indi Süveyş kanalından keçilməklə 35-42 sutkaya daşınır.

Xəzər dənizində ən böyük ticari donanmaya (53 gəmi) malik olan Azərbayan Avropa və Asiya qitələrinin qovşağında yerləşdiyindən beynəlxalq miqyasda nəqliyyat habına çevrilib. Belə ki, ötən il ölkəmizdən keçən tranzit yükdaşımaların həcmi 75 faiz artıb. Artım bu ilin əvvəlindən bəri sürətlə yüksəlməkdədir.

Orta Dəhlizin tam gücü ilə işə düşməsi üçün gömrük sənədləşdirilməsinin unifikasiyası, "vahid pəncərə" sistemi və tarif siyasəti çərçivəsində ümumi prinsiplərin hazırlanması da sürətlənib. Bütün bunlarsa marşrutun həm kommersiya dəyərini, həm də geosiyasi önəmini artırıb.

Marşrut Zəngəzur dəhlizi layihəsinin gerçəkləşməsini də sürətləndirəcək, çünki bu dəhliz Çin, Orta Asiya və Aİ arasındakı nəqliyyat istiqamətlərini diversifikasiya edə biləcək ən qısa tranzit yoludur.

Orta Dəhliz yalnız Azərbaycanın yox, bütün regionun iqtisadi inkişafına təkan verəcək, bölgədə sülh və sabitliyin bərqərar olması üçün əlavə təsir vasitəsinə çevriləcək, Aİ ölkələrinə yükdaşımaların fasiləsizliyini təmin edəcək.

# "Babək" tankeri Xəzərə qayıtdı



**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Dəniz Nəqliyyatı Donanmasına məxsus "Babək" gəmisi təmirdən sonra istismara qaytarılıb.**

ASCO-dan verilən məlumata görə, "Zığ" tərsanəsində aparılan təmir zamanı tankerin baş və köməkçi mühərrikləri, avar valı sazlanıb, bəzi elektrik avadanlıqları yeniləri ilə əvəzlənib, köhnələri təmir olunub. Eyni zamanda, göyərtədə və maşın şöbəsində boruqurașdırma işləri yerinə yetirilib.

Bununla yanaşı, gəmi heyətinə məxsus yaşayış otaqları da yenilənib. Təmirçilər gəminin sualtı və suüstü hissəsinin, baş göyərtə və üst qurumun, lövbər zəncirlərinin obraziv qumla təmizlənərək üç qat rənglənməsini də həyata keçiriblər. Təmirdən sonra tanker dəniz sınaq yoxlanışından uğurla keçib və yenidən istismara qaytarılıb.

Xatırladaq ki, uzunluğu 149,9, eni 17,3 metr olan "Babək" gəmisinin yükgötürmə qabiliyyəti 13 min tondur.

***"Xalq qəzeti"***

# Azərbaycandan Macarıstana "yaşıl dəhliz" layihəsi

**Macarıstanın Azərbaycandakı səfiri Tamaş Torma eksklüziv müsahibəsində ölkəsinin respublikamızla birgə "yaşıl dəhliz" layihəsini maliyyələşdirməyə maraqlı olduğunu bildirib. O, iki ölkə arasında əlaqələrin təbii qaz sahəsində özünü yüksək səviyyədə doğrultduğunu, bununla belə Azərbaycanın bərpaolunan enerji sahəsində də böyük potensialı olduğunu diqqətə çatdırıb.**

Səfir qeyd edib ki, Cənubi Qafqazdan "yaşıl elektrik" enerjisi Gürcüstan və Rumıniya vasitəsilə Macarıstanın enerji təchizatının şaxələndirilməsi və təmin edilməsi üçün əlverişli bir imkandır.

"Qara dəniz sualtı kabel layihəsinin həyata keçirilməsi ilə bağlı artıq texniki və maliyyə məsələlərinin nəzərdən keçirilməsinə başlanılıb. Bu, demək olar ki, 1200 kilometr uzunluğunda dünyanın ən uzun sualtı kəməri olacaq. Macarıstan hökuməti layihədə iştirak etməyə hazırdır", – deyə T.Torma əlavə edib.

***"Xalq qəzeti"***

# Fransada etirazlar pensiya islahatları çərçivəsindən çıxır

*Ölkə üzrə keçirilmiş 1 may nümayişlərində 2 milyon insan iştirak edib*

**Fransada yüz minlərlə insan 1 may nümayişinə çıxıb və yenidən qeyri-populyar pensiya islahatlarına etiraz bildirib. Ölkənin ayrı-ayrı yerlərində etiraz nümayişinə mane olmağa çalışan 400-dən çox polis əməkdaşı və jandarm müxtəlif dərəcəli xəsarətlər alıb. Məlumatı "Euronews" verib.**




Fransanın daxili işlər naziri Jerald Dermanen bildirib ki, təkcə Parisdə keçirilmiş nümayişdə 20 asayiş keşikçisi yaralanıb. Bundan əlavə, bütün ölkə üzrə 540, təkcə Paris üzrə 300-dən artıq nümayişçi saxlanılıb.

DİN-in məlumatında qeyd edilir ki, bütün ölkə üzrə nümayişlərdə 800 min insan iştirak edib. Müxtəlif şəhərlərdə keçirilmiş tədbirlərin təşkilatçıları isə bəyan ediblər ki, bu, ümumxalq etirazı olub və iştirakçıların sayı hökumətin elan etdiyindən dəfələrlə artıq – azı 2 milyon nəfər olub.

Qeyd edək ki, bu ilin payızında pensiya yaşının 62-dən 64-ə qaldırılmasını və bir sıra pensiya güzəştlərinin ləğvini nəzərdə tutan pensiya islahatları ilə bağlı qanun qüvvəyə minəcək. Hökumətin bununla bağlı təşəbbüsü parlamentdə səsvermə olmadan qəbul etməsi bütün Fransada etirazların alovlanmasına səbəb olub.

Nümayişdə iştirak edən qadınlardan biri bildirib: "Biz deməkdən, təkrar etməkdən yorulmayacağıq ki, bununla razı deyilik. Bəli, pensiya islahatları ilə. Mən təslim olmayacağam".

Qadın əlavə edib: "Bu, doğrudan da, qeyri-populyar islahatdır, onlar bunu güc yolu ilə qəbul etdilər. Bu isə demokratiyanın, eləcə də fransız xalqının təhqir olunması deməkdir".

Başqa bir qız da ona qoşulub: "Düşünürəm ki, hökumət bizimlə elə davranır ki, bundan hamı narazıdır".

Ölkənin həmkarlar təşkilatları isə fransızların 1 may nümayişini tarixi hadisə kimi qiymətləndirib və bəyan edib ki, xalqın qəzəbi artıq pensiya islahatlarının çərçivəsini aşaraq siyasi hakimiyyətə etimadın olmadığını nümayiş etdirir.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***

# Mardində antiterror əməliyyatı



**Türkiyənin Mardin vilayətinin Nusaybin rayonunda PKK terror təşkilatına qarşı əməliyyat keçirilib. Əməliyyat rayonun 9 məhəllə və kiçik kəndini əhatə edib. Antiterror əməliyyatı ilə əlaqədar ərazidə komendant saatı elan edilib. Məlumatı "Anadolu" verib.**

Vilayət rəhbərliyinin bununla bağlı verdiyi açıqlamaya görə, Nusaybin rayonunun sərhədləri daxilindəki çöllük ərazilərdə aralarında yüksək rütbəli təşkilat rəhbərlərinin də olduğu separatçı terror təşkilatı üzvlərinin və onlarla əməkdaşlıq edənlərin zərərsizləşdirilməsi üçün əməliyyat keçirilib. Separatçı terror təşkilatı tərəfindən istifadə edildiyi təxmin edilən bütün sığınacaq, bunker, anbar sahələri və hava hücumundan müdafiə mövqelərinin aşkarlanaraq məhv edilməsi nəzərdə tutulur.

Bununla bağlı verilən bəyanatda qeyd edilib ki, 2 may 2023-cü il saat 04:00-dan etibarən əməliyyatlar başa çatana qədər bölgə, Nusaybin rayonunun Tekağaç, Sapanlı, Mağaracık, Arpalı, Bahminin, Kaleli, Şekrin, Yol, Güneli məhəllələri və kəndlərində növbəti xəbərdarlığa qədər komendant saatı elan edilib. Vətəndaşlara öz təhlükəsizlikləri baxımından sözügedən qadağaya əməl etmələri tövsiyə olunub.

***"Xalq qəzeti"***



# Seçkilər yaxınlaşır

*"Nə mutlu türkəm deyənə!"*

**Qardaş Türkiyə dövləti və xalqı 14 may seçkilərinə hazırlaşır. Bütün ölkə bu mühüm hadisə ilə nəfəs alıb yaşayır. Bir çoxları artıq kimə səs verəcəyi barədə qəti qərar versə də, digərləri hələ də düşünüb daşınır. Bu seçkilər qardaş dövlətin, bütövlükdə türk dünyasının taleyi üçün həlledici əhəmiyyət kəsb edir.**

Hər kəs bunun fərqindədir ki, Türkiyə yol ayrıcındadır. CHP rəhbəri Kamal Kılıçdaroğlunun başçılıq etdiyi "Millət İttifaqı" bloku ölkənin siyasi kursunu Avropaya tərəf yönəltmək fikrindədir. Hazırkı iqtidarın lideri, Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin gələcəyini nə Qərblə, nə də Şərqlə inteqrasiyada görür. Bu dünya şöhrətli xarizmatik siyasətçinin baxış bucağı belədir ki, Türkiyənin özünəməxsus inkişaf və tərəqqi yolu var və bu istiqamətdə uğurlarını daha da artırmalıdır. İnşallah, belə də olacaq!

Türkiyədə hər kəs öz məsuliyyətini dərk edir. Başa düşür ki, seçim edərkən səhv etmək olmaz. Çünki çağdaş dönəmdə, qərbli siyasi texnoloqların dili ilə desək, dünyanın yenidən formatlanması baş verir. Şərqlilər bu fikri belə ifadə edirlər: dünya yenidən şəkillənir. Ankaranın isə hədəfi bəllidir: dünyanın ən güclü on iqtisadiyyatından biri olmaq!

Türkiyə yeni dünya düzənində ilkin olaraq bu statusla çıxış etmək niyyətindədir. Sonrasını necə deyərlər, yaşayarıq, görərik. Bu gün dünyanın 17-ci ən güclü iqtisadiyyatına malik olan Türkiyə niyə "Böyük yeddilər"dən biri olmasın? İnanmaq istərdik ki, bu arzu da əlçatandır.

Türkiyənin tərəfdaşları və dostları çox arzulayırlar ki, bu ölkə əsrin əvvəllərində başladığı inkişaf və tərəqqi yolunu əvvəlki şövq və əzmlə davam etdirsin. Düşmən və rəqiblər isə Türkiyənin başını daxili problemlərə qatıb onun tərəqqisinə mane olmağa cəhd edirlər. Xoşbəxtlikdən, hər şey türkiyəli seçicilərin iradəsindən asılıdır. Qoy nə arzular, nə də imkanlar tükənsin!

Məlum olduğu kimi, Türkiyə sivil, demokratik dövlətdir. Xalqın qədim və zəngin dövlətçilik ənənələri var. Türk insanı üçün dövlətin və millətin maraqları hər şeyin fövqündədir. Bu dəfə də belə olacaq. Ona görə ki, haqqa, ədalətə tapınan türk xalqı ruhən çox güclüdür. Bu toplumu tarix boyu yüksəldən, güclü və yenilməz edən də məhz budur!

Türk xalqı bunu üzərinə dünyanın iyirmidən çox böyük dövlətinin əsgərləri gələndə tarixi Çanaqqala döyüşündə hansı ruha sahib olduğunu külli-aləmə sübut edib. İki il əvvəl məhz həmin mübarizlik ruhunu Şuşanın sıldırım qayalarına əliyalın dırmaşan igid Azərbaycan əsgəri də nümayiş etdirib.

Min ildən çoxdur ki, qoca tarix qürurla deyir: Yol ver türkün bayrağına! Bəşər övladı bu bayraqla, bu bayrağın təmsil etdiyi sivilizasiya ilə, onun bəşəriyyətə bəxş etdiyi şərəf və ədalət meyarları ilə fəxr edir. Dünya "Beşdən böyükdür!" deyir bayrağın Bayraqdarı! Bu bayraq və onun daşıyıcıları məzlumların haray səsidir. Bu bayraq və onun təmsilçiləri susqun dünyanın gur səsidir! Bu, böyük tarixi missiyadır. Böyük Atatürk necə də gözəl deyib: "Nə mutlu türkəm deyənə!"

Biz, azərbaycanlılar da çox istəyirik ki, bu gur səs daha uca zirvələrdən gəlsin. Bunu təkcə biz yox, özbək, qırğız, qazax, türkmən, bir sözlə, Türkiyəni sevən, onun hər bir qeyrətli vətəndaşını özünə "abi" bilən hər kəs arzulayır. Bu qəlbdən gələn, səmimi arzudur!

Dünən Türkiyədə ingilis dilində nəşr olunan nüfuzlu "The Sabah Newspaper" qəzetində oxudum ki, hazırkı dövlət başçısı, prezidentliyə iki əsas namizəddən biri olan sayın Rəcəb Tayyib Ərdoğanın İzmirdə seçicilərlə keçirilən görüşünə yüz minlərlə insan qatılıb. Həmin insan seli bununla hazırkı iqtidarın uğurlu siyasətinə dəstək nümayiş etdirib.

İndiki dövlət başçısının izmirlilərə sözünü deməyə haqqı çatır. Sadəcə, bir faktı qeyd edək ki, son illərə kimi İstanbuldan İzmirə gedən sərnişinlər bu yolu yeddi saat yarıma qət edirdilər. İndi bu iki şəhəri birləşdirən sürətli ekspress qatarı sayəsində eyni məsafə üçün artıq iki dəfə az vaxt sərf edirlər.

Türkiyənin üçüncü böyük şəhəri olan İzmirdə bir müddət əvvəl nəhəng "Menderes" aeroportu inşa edilib ki, oradan planetin ən uzaq guşələrinə belə uçmaq mümkündür. Belə nəhəng layihələr Təkcə İzmirdəmi icra olunub? Xeyr, bütün Türkiyədə son iyirmi ildə heyrətamiz dərəcədə böyük işlər görülüb.



Türkiyədə sosial-iqtisadi problemlər yox deyil. Bəlkə də az deyil desək, daha düz olar. Amma bunlar bir çox obyektiv çətinliklərdən qaynaqlanan problemlərdir. Sirr deyil ki, turizm ölkəsi olan Türkiyəyə iki ildən artıq davam edən pandemiya çox zərər verib. Bu il fevralın 6-da ölkədə baş verən dəhşətli zəlzələlərdə onlarla şəhər, yüzlərlə, minlərlə kənd dağılıb, əlli mindən çox insan həyatını itirib. Fəlakətin yaralarını sağaltmaq üçün hökumət və xalq əl-ələ verib çalışır.

Bəs, mayın 14-də Türkiyə vətəndaşları kimə səs verəcəklər? Əlbəttə, bu, qardaş ölkənin daxili işidir. Bizim üçün müdrik türk xalqının hər hansı bir seçimi məqbuldur. Biz onların seçiminə böyük hörmətlə yanaşacağıq. Azərbaycan–Türkiyə qardaşlığı zamanın ən çətin sınaqlarından keçib. Heç bir qüvvə bu sarsılmaz birliyə kölgə sala bilməz!

Bu yerdə bir məqamı da vurğulamaq yerinə düşər. Hər il müsbət, yaxud mənfi qəbul edilməsindən asılı olmayaraq bir və ya bir neçə əlamətdar hadisə olur. Məsələn, 2022-ci il fevralın 24-də Rusiyanın Ukraynaya gözlənilməz hücumu belə tarixi hadisələrdən biri idi. Planetdə baş verən digər irili-xırdalı proseslər bu müharibənin kölgəsində qaldı.

Türkiyədəki 14 may seçkiləri ərəfəsində çox gərgin siyasi mübarizə gedir. Onun kimin qələbəsi ilə başa çatacağını bütün dünya gözləyir. Təbii ki, hər şeylə maraqlanan qlobal media da bu prosesdən kənarda qalmayıb. Son günlər elə bir mətbu nəşr yoxdur ki, Türkiyədə seçkilərə hazırlıq barədə reportaj və şərhlər hazılayıb öz oxucu auditoriyasına təqdim etməsin.

Son vaxtlar Türkiyədəki seçkilər barədə bir-birini təkzib edən çox sayda rəy sorğuları barədə xəbərlər dərc olunur. Sorğuların bir qismi "Cümhur İttifaqı"nın liderinin, digər bir qismi isə ona rəqib blokun qalib gələcəyini iddia edir. Əksər sorğulara görə, Rəcəb Tayyib Ərdoğan irəlidədir!

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

# Britaniya monarxının tacqoyma mərasimi olacaq

**Böyük Britaniyanın monarxı III Karlın tacqoyma mərasiminə bir həftədən də az vaxt qalır. Əlamətdar hadisəyə hazırlaşan kral ailəsinin pərəstişkarları artıq Londonun mərkəzində - Bukinqem sarayına gedən yol boyu çadırlar qurmağa başlayıblar. Məlumatı Britaniya mediasına istinadla TASS verib.**



Məlumata görə, XXI əsrin ilk tacqoyma mərasimini seyr etmək üçün Londona yüz minlərlə insanın gələcəyi gözlənilir.

Kral kortejinin Londonun mərkəzindən keçməsi taclanma mərasimi çərçivəsində ictimaiyyət üçün açıq olan əsas tədbirdir. Kortej Bukinqem sarayının mərkəzi qapısından çıxacaq, Mall küçəsi ilə hərəkət edərək Admirallıq tağının altından keçəcək və Westminster abbatlığına çatacaq.

Xatırladaq ki, Böyük Britaniya kraliçası II Elizabet ötən il sentyabrın 8-də 96 yaşında vəfat edib. Kraliçanın böyük oğlu III Karl sentyabrın 10-da rəsmi olaraq Böyük Britaniyanın kralı elan edilib. Yeni monarxın tacqoyma mərasimi mayın 6-da keçiriləcək.

***"Xalq qəzeti"***

# Ukraynada "azadlıq əməliyyatı"na hazırlıq davam edir

**Dünən Ukraynanın xarici işlər naziri Dmitri Kuleba bildirib ki, ölkə hərbçiləri ciddi şəkildə hazırlıqlarını davam etdirirlər. O, eyni zamanda, Qərb mətbuatının əks-hücumun iflasa uğrayacağı ilə bağlı məlumatlarına fikir verməməyə çağırıb. Odur ki, "azadlıq əməliyyatı"na hazırlıqlar sürətlə davam edir. Məlumatı UNİAN yayıb.**



Kuleba deyib: "Müharibə ilə məşğul olmaq lazımdır – bu, gündəlik işdir. Zalujnının zənglərinə baxın: dünən Milli ilə, srağagün NATO-nun Avropadakı qüvvələrinin komandanı ilə danışıb. Prezidentin beynəlxalq səfərlərinə baxın. Elə bir zəng yoxdur ki, silah məsələsini qaldırmasın, hamısı əks-hücuma hazırlaşan briqadalarımız üçündür".

Ukrayna Prezidenti Volodimir Zelenski də ölkədə hərbi vəziyyətin uzadılmasını qərara alıb. O, Ali Radaya bununla bağlı qanun layihəsini təqdim edib. Ukraynada 2022-ci il fevralın 24-də Rusiyanın xüsusi hərbi əməliyyatının başlaması ilə hərbi vəziyyət rejimi tətbiq olunub. Zelenski həm də ümumi səfərbərlik haqqında fərman imzalayıb.

Vaşinqtonda isə hesab edirlər ki, Rusiya Ukraynada, xüsusən Baxmut ətrafında çox böyük itkilər verir, strateji əhəmiyyətli şəhər uğrunda hücumlar iflasa uğrayıb. Ukrayna əsgərləri Baxmut ətrafında səngərlər qazır, ancaq iş tez-tez dayanır. Çünki qoşun faktiki olaraq Rusiya ordusunun atəşləri altında işləməli olur.

ABŞ rəsmiləri təsdiqləyirlər ki, Moskvanın Baxmuta hücumu dalana dirənib və iflasa uğrayıb. Son beş ay ərzində davam edən hərbi əməliyyatlar müddətində Rusiya ordusunun itkiləri həddən artıq çox olub.

ABŞ Milli Təhlükəsizlik Şurasının nümayəndəsi Con Kirbi bildirib: "Rusiya təkcə dekabrdan bəri, bizim hesablamamıza görə, 100 min insan itirib. Onların 20 mindən çoxu birbaşa döyüşlərdə həlak olub. Onların təxminən yarısı kifayət qədər döyüş hazırlığı keçmədən, hərbi rəhbərlik, yaxud hansısa nizami komandanlıq və idarəçilik görmədən müharibəyə atılmış "Vaqner" döyüşçüləridir".

Dünən, həm də Rusiya rəhbərliyi Bryansk vilayətində dəmir yolunu partlatmaqda günahkar olan şəxslərin axtarışı ilə məşğul olub. Hadisə nəticəsində, məlumata görə, Belarusa yanacaq və tikinti materialları daşıyan yük qatarı relsdən çıxıb. Onu da qeyd edək ki, Ukrayna ilə həmsərhəd olan region mütəmadi olaraq pilotsuz uçuş aparatlarının hücumuna məruz qalır.

***"Xalq qəzeti"***

# Afərin, “Xalq qəzeti”, əhsən, dostlar!

*Siz sonuncu oyunda da ulu öndərin yubileyinə layiq əzmkarlıq nümayiş etdirdiniz...*



**Nəsimi Rayon İcra Hakimiyyəti ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş mini-futbol idman növü üzrə rayon miqyaslı turnir təşkil edilməsi barədə elan verəndə redaksiyamızda futbol oynamağı bacaran cəmi üç nəfəri tanıyırdıq. Məsul katibin müavini Qabil Əliyev (O, jurnalistlər şəhərciyində süni örtüklü mini-futbol meydançasının yaradılması üçün mübarizə aparmış və buna nail olmuşdur), texniki direktorumuz Fikrət Əhmədov və dizaynerimiz Rövşən Atakişiyev. Ancaq adı çəkilən yarışlar barədə elanı eşidəndən dərhal sonra bu müqəddəs işi dəstəkləyən yeddi-səkkiz əməkdaşımız tapıldı.**

Bunları xatırlatmaqda məqsədim odur ki, adıçəkilən elanı eşidənə qədər bizim futbol komandamız olmayıb və heç bir yarışda iştirak etməmişik. Ancaq buna baxmayaraq, əməkdaşlarımız qısa müddətdə yarışlara hazırlaşdılar və komandanın kapitanı Fikrət Əhmədovun rəhbərliyi ilə, sözün həqiqi mənasında, yubileyə layiq mübarizə nümayiş etdirdilər.

Bu məqamda mən komandamız haqqında ağız dolusu danışmağa haqq verən bəzi məqamları da xatırlatmaq istəyirəm. **Əvvəla,** biz rəsmi dövlət qəzeti olaraq, komandamıza kənardan oyunçu gətirilməsini öz adımıza rəva görmədik. Halbuki, bəzi rəqiblərimiz bu “təcrübədən” kifayət qədər yararlandılar. **İkinci,** bizim oyunçulardan heç birinin rəqibə qarşı kobud oynadığını görmədik. Elə rəqiblərimiz də görmədilər və bu barədə onlardan dəfələrlə etiraf eşitdik. Ancaq təhsil müəssisələrinin komandasından başqa, bütün komandalarda bizə qarşı kobud oyunlar baş alıb gedirdi. Heç yıxdıqları oyunçumuzdan üzr istəmək də yox idi. Hətta mayın 2-dəki sonuncu oyunda bizim uşaqlara qarşı əlbəyaxa idman növlərinin fəndlərindən də istifadə edirdilər.

**Üçüncü,** bütün komandalarda lazım olan qədər ehtiyat oyunçular var idi. Ona görə də meydançadakıları tez-tez dəyişə bilirdilər ki, bu da qələbənin əsas sütunlarından biri idi. Bizdə isə meydana çıxan start heyət sona qədər mübarizə aparırdı ki, bunun da nə demək olduğunu izah etməyə ehtiyac yoxdur. Biz sonuncu oyuna çıxaracaq start heyəti komplektləşdirməyə çətinlik çəksək də, rəqibin meydandakı oyunçular qədər ehtiyat heyəti də var idi.

Bütün bunlara baxmayaraq, biz dövlətçiliyimizin xilaskarı, bugünkü qüdrətli Azərbaycanın qurucusu, xüsusən, gənclərin və idmanın misilsiz himayədarı olan Heydər Əliyevin yubileyinə layiq idman mübarizəsi aparmalı idik və apardıq da. Rayon ərazisindəki çoxsaylı müəssisələri təmsil edən komandalar arasında ilk dördlüyə düşmək son bir ayda texniki direktorluğu məşqçiliklə dəyişmiş kapitanımızın və onun dostlarının yorulmazlığı və prinsipiallığı nəticəsində mümkün oldu.

Bu yarışların bizə bəxş etdiyi başqa bir üstünlük isə artıq komandamızın formalaşmasıdır. Əminik ki, MEDİA Agentliyi, Mətbuat Şurası, lap elə qarşıdan 105 illik yubileyi gələn öz redaksiyamız hansısa futbol və ya mini-futbol turniri elən edərsə, onda bizim komandamız daha yaxşı göstəricilərə nail olacaq. Çünki Qabil Əliyev (o, qapıçı kimi təkcə son oyunda ona qədər real qol vəziyyətinin reallaşmasına imkan vermədi), Fikrət Əhmədov (artıq uşaqlar onu lider kimi qəbul edirlər), Rövşən Atakişiyev (o, sözün həqiq mənasında rəqiblərimiz üçün “baş ağrısı”-na çevrilmişdi, Əvəz Rüsəmov (böyük hesabla qalib gəldiyimiz oyunların hər ikisində ilk qolu məhz o vurmuşdu), Fariz Ənsərov (təəssüf ki, zədələndiyinə görə son oyuna çıxa bilmədi), Fuad Cəfərov, Anar Məmmədov və Rüfət Abdullayev bir məqsəd uğrunda mübarizə aparan səkkizlik şəklində bir-birini tamamlayırlar.

Sağ olun, uşaqlar! Böyük liderin şanlı yubileyinə “Xalq qəzeti”nin adına layiq töhfələr verdiniz. Yeni uğurlarınızı gözləyəcəyik.

***İttifaq MİRZƏBƏYLİ,***
***Elçin ABBASOV (foto),***
***“Xalq qəzeti”***

**Samboçu Mehman Xəlilovun keçirdiyi məşqdə 7 yaşlı Fərid Bakarovun aldığı xəsarətlərdən faciəli şəkildə ölməsi faktı son günlər ölkə gündəmini zəbt edib. Eyni zamanda, Mehman Xəlilovun məşq zamanı azyaşlı uşaqlarla qəddarcasına davranmasını əks etdirən videogörüntülər yayılıb və ictimaiyyətdə haqlı narazılıq doğurub.**

# Sambo ilə uşaqlar ən tez 9 yaşdan məşğul ola bilərlər

*Azyaşlının faciəli ölümündə günahkar cəzasını almalıdır*



Təbii ki, baş verən hadisələr birmənalı olaraq məşqçi məsuliyyətsizliyidir. Amma federasiya, ölüm hadisəsinin baş verdiyi Uşaq Gənclər İdman Məktəbi, müvafiq nazirliklər, eyni zamanda, valideynlər, o cümlədən cəmiyyət, elə biz KİV-in də baş verən dəhşətli hadisədə müəyyən məsuliyyəti var və onu inkar etməməliyik. Azyaşlının faciəvi ölümü ilə nəticələnən bu hadisədən hamı özü və gələcək nəsil üçün nəticə çıxarmalıdır.

**Azərbaycan Sambo Federasiyasının yeniyetmələrdən ibarət baş məşqçisi, həyatının çox hissəsini məşqçiliyə sərf etmiş Yaqub Abdullayev bütün cəmiyyəti sarsıdan hadisə ilə bağlı danışdı, suallarımızı cavablandırdı.** 1995-ci ildən məşqçi kimi çalışan, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının baş müəllimi, Əməkdar məşqçi 2016-cı il təvəllüdlü Fərid Bakarovun vəfatından çox məyus olduğunu bildirdi, onun ailəsinə hüznlə başsağlığı verdi.

7 yaşlı uşaq döyüş növü ilə məşğul ola bilərmi? sualına Y.Abdullayev belə cavab verdi: “İdman növlərində seçmə prosesi var və müvafiq olaraq uşaqlar idman bölmələrinə cəlb olunurlar. Uşaqlar 5-6-7 yaşlarından gimnastika, akrobatika, üzgüçülük və bu kimi digər idman növləri ilə məşğul ola bilərlər. İlk illər uşaqlarda elastik hərəkətlərin icrasına üstünlük verilir. Məşqçi olaraq valideynlər mənə müraciət etdikdə bir mütəxəssis kimi məsləhət görürəm ki, bu yaş qrupunda uşaqları akrobatika, gimnastika, üzgüçülüyə qoysunlar. Uşaqlarda dayaq-hərəkət sistemi formalaşdıqdan sonra digər idman növlərinə vermək olar”.

Baş məşqçi qeyd etdi ki, sambo güləşinə uşaqlar yalnız 9-10 yaşdan cəlb olunmalıdır. İbtidai hazırlıq qrupunda birinci il 9, ikinci il isə 10-11 yaşlı uşaqlar məşğul ola bilərlər. Onlara ilk illər baza texnikasının elementləri təlqin edilir. Özünü mühafizə hərəkətləri, üzü üstə, yana, arxası üstə yıxılmalar, duruşlar, ümumiyyətlə, baş verə biləcək zədələrdən qorunmaq öyrədilir. Sonra onlara yerdəyişmələr, məsafələr, tutmalar, müxtəlif fiziki keyfiyyətlərin aşılanması, elastik hərəkətlər tətbiq olunur. Bu yaş qrupunda həddən artıq hərəkətlərin icrasına icazə verilmir. Artıq təlim prosesinin sonrakı illərində müəyyən fəndlər mənimsənilir. Ümumiyyətlə, bu yaş qruplarında müəyyən fəndlərin icrasına məhdudiyyət qoyulur. Çünki bu uşaqlarda baza texnikası formalaşmalı, fiziki keyfiyyətlər möhkəmlənməlidir. Onların sürəti, çəldliyi, elastikliyi kifayət qədər olmalı, akrobatik hərəkətlər öyrədilməlidir.

Yaqub Abdullayev onu da vurğuladı ki, məşqçilik çox ciddi və çətin peşədir. Hər idmançıdan məşqçi olmaz. Avropa, dünya, hətta Olimpiya çempionu olmaq yaxşı məşqçi olmaq demək deyil. Məşqçilər bu məsələlərə xüsusilə diqqət yetirməlidirlər.

Əlbəttə, azyaşlının faciəvi ölümündə günahkar cəzasını almalıdır. Biz isə üstəlik, valideynləri, mətbuatı da diqqətli olmağa səsləyirik. Bu sahədə təbliğat, maarifləndirmə işləri genişləndirilməlidir. Uşaqlar bizim gələcəyimizdirlər. Öz gələcəyimizə biganə olmayaq.

***Leyla QURBANOVA,***
***“Xalq qəzeti”***

# İsmayıllıda leysan yağıb, dolu düşüb



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, dünən Abşeron yarımadasının bəzi yerlərində, Altıağac, Xaltan, Qusaryasaq, Ləzə, Göygöl, Daşkəsən, Gədəbəy, Şamaxı, İsmayıllı, Qobustanda arabir yağış yağıb.**

Xidmətdən mediaya verilən məlumata görə, İsmayıllıda günorta saatlarında güclü küləyin müşayiəti ilə leysan yağıb, bəzi yerlərdə diametri 5 millimetr olan dolu düşməsi qeydə alınıb. Dolu nəticəsində əkin sahələrinə, meyvə bağlarına və evlərin dam örtüyünə ziyan dəyib, elektrik verilişində fasilə yaranıb.

Dəymiş ziyanı aradan qaldırmaq, elektrik təchizatını bərpa etmək üçün təcili-təxirəsalınmaz tədbirlər həyata keçirilir.

***“Xalq qəzeti”***

# Hərbi qulluqçu odlu silahdan açılmış atəş nəticəsində ölüb

**Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsinin hərbi qulluqçusu, əsgər Məmmədov Ramil İlham oğlunun odlu silahdan atəş açmaqla özünü öldürməsi barədə Füzuli Hərbi Prokurorluğuna məlumat daxil olub.**

Hərbi Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, daxil olmuş məlumat əsasında Füzuli Hərbi Prokurorluğunun əməkdaşları tərəfindən hadisə yerinə və meyitə baxış keçirilib, iş üçün əhəmiyyət kəsb edən predmetlər maddi sübut kimi götürülüb, izahatlar alınıb və digər hərəkətlər icra edilib.

Fakt üzrə Füzuli Hərbi Prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanılaraq şahidlər dindirilib, müvafiq ekspertizalar təyin edilmiş və təxirəsalınmaz zəruri istintaq hərəkətləri həyata keçirilib.

Hazırda istintaq davam etdirilir və qanunvericiliyin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi təmin olunacaq.

***“Xalq qəzeti”***

*Sosial xəbərlər*

# 4 mindən çox şəxsə evlərdə sosial xidmət göstərilib

**Sosial Xidmətlər Agentliyi tərəfindən bu ilin ilk rübündə 6 min 335 şəxs sosial və peşə-əmək reabilitasiyası xidməti ilə təmin olunub. Onlardan 2 min 176 şəxsə agentliyin sosial xidmət müəssisələrində xidmət göstərilib. Həmin şəxslərdən 181 gənc müxtəlif peşələr üzrə hazırlıq kurslarına cəlb olunub.**



Son 3 ayda tənha ahıl və əlilliyi olan 4 min 159 şəxsə isə evlərində (səyyar) sosial-məişət xidməti göstərilib. Bu dövrdə 448 imtiyazlı şəxs agentlik tərəfindən sanatoriya-kurort yollayışı ilə təmin olunub.

## Tərtər və Ağcabədidə “Məşğulluğa Dəstək Layihəsi”

Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan “Məşğulluğa Dəstək layihəsi” çərçivəsində Tərtər və Ağcabədi rayonlarında ictimai dinləmələr keçirilib. Məqsəd məlumatlılığı artırmaq, nəzərdə tutulmuş hədəf kateqoriyalarını layihəyə cəlb etməkdir.

Öz biznesini qurmaq istəyən işaxtaran və işsiz şəxslərin iştirakı ilə keçirilən görüşlərdə layihənin hədəf və məqsədləri, əhatə dairəsi, layihənin icrası zamanı ətraf mühit və sosial məsələlərə dair tələblər barədə məlumatlar verilib. Proqramın gözlənilən faydaları, müraciət və iştirak qaydaları diqqətə çatdırılıb.

Tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb, eləcə də layihə çərçivəsində öz biznesini qurmaq istəyən şəxslərə müvafiq tövsiyələr verilib.



## Əlilliyi olanlar üçün peşə kursları təşkil edilib

Dövlət Məşğulluq Agentliyi və Əlilliyi olan Sahibkarlar Təşkilatı İctimai Birliyi tərəfindən daha 100-dək şəxs üçün 6 peşə hazırlığı kursu təşkil edilib. Ma-



sallı rayonu üzrə 25 nəfər əlil şəxsin cəlb edildiyi peşə kurslarına mediatur olub.

Masallı Sənaye Məhəlləsində yerləşən müəssisədə təşkil olunan kurslar dərzi və xalçaçılıq istiqamətləri üzrədir. Media nümayəndələri kursların təşkil olunduğu müəssisədə tədris prosesi ilə tanış olublar. Onlara agentlik tərəfindən aparılan peşə hazırlığının təşkili işləri barədə məlumat verilib. Bildirilib ki, agentlik tərəfindən əmək bazarının tələblərinə cavab verən 175 peşə və ixtisas üzrə kurslar təşkil edilib. Agentıiyin, həmçinin Bakı, Gəncə və Göyçayda üç peşə hazırlığı mərkəzi də fəaliyyət göstərir.

Peşə kurslarının səmərəli təşkili və nəticəyönümlü olması üçün sosial tərəfdaşlıq müstəvisində işəgötürənlərlə fəal əməkdaşlıq həyata keçirilir. Bu da kursları bitirənlərin yeni yiyələndikləri peşələr üzrə işlə təminatında mühüm önəm kəsb edir. Kurslara cəlb olunan müdavimlərə peşə kursu müddətində minimum aylıq əməkhaqqı məbləğində təqaüd verilir və kursları uğurla başa vuran şəxslərin işlə təminatına dəstək göstərilir.

***Zərifə BƏŞİRQIZI, “Xalq qəzeti”***

# FHN xəbərdarlıq və toplanış məşqi keçirib

**Fövqəladə Hallar Nazirliyinin Gəncə Regional Mərkəzi Göygöl rayonunda ərazi mülki müdafiə qüvvələri ilə xəbərdarlıq və toplanış üzrə məşq keçirib.**



Məşqə müvafiq idarə və təşkilatlarda yaradılmış ərazi mülki müdafiə qüvvələri, rayon kommunal xidmətlər, ərazi xilasetmə və kəşfiyyat dəstələrinin şəxsi heyət və texnikaları cəlb olunub.

Məşqin keçirilməsində əsas məqsəd fövqəladə hallardan mühafizə və mülki müdafiə sahəsində normativ sənədlərin tələblərinə əməl olunması, rabitə və xəbərdarlıq sisteminin vəziyyəti, fövqəladə hadisələr təhlükəsi yaranan və ya baş verən zaman mülki müdafiə qüvvələrinin xəbərdarlığı və toplanışı üzrə hazırlığının qiymətləndirilməsi olub.

Məşq zamanı Fövqəladə Hallar Nazirliyi Gəncə Regional Mərkəzinin rəisi polkovnik-leytenant Kənan Aşurov, Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev və rayonun aidiyyəti rəhbər şəxsləri tərəfindən qüvvələrə baxış keçirilib.

Təlim uğurla reallaşdırılıb və qarşıya qoyulan məqsədlərə nail olunub.

***Q.QASIMOV,***
***“Xalq qəzeti”***


# “Bakı Tikiş Evi” ATSC səhmdarlarının nəzərinə!

“Bakı Tikiş Evi” ATSC səhmdarlarının növbəti illik ümumi yığıncağı 16 iyun 2023-cü il saat 11.00-da cəmiyyətin yerləşdiyi inzibatı binada aşağıdakı gündəlikdə keçiriləcəkdir:

• “Bakı Tikiş Evi” Açıq Tipli Səhmdar Cəmiyyətinin icra orqanlarının seçilməsi.

• “Bakı Tikiş Evi” Açıq Tipli Səhmdar Cəmiyyətinin 2022-ci maliyyə ili üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin təsdiq olunması.

Səhmdarlar ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10.00-dan 18.00-dək, səhmdar cəmiyyətin Bakı şəhəri, Mərdanov qardaşları küçəsi 113 nömrəli ünvanda yerləşən inzibati binasında səhmdar cəmiyyətin idarə heyətinin sədrinə müraciət etməklə tanış ola bilərlər.

Yığıncaqda iştirak etmək vacibdir.

Ünvan- Bakı şəhəri, Mərdanov qardaşları küçəsi, 113.

***Müşahidə şurası***



# “Bakı Şərab-1” ATSC səhmdarlarının nəzərinə!

23 iyun 2023-cü il saat 11.00-da Bakı, Heydər Əliyev prospekti, 104 nömrəli ünvanda “Bakı Şərab-1” ATSC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Səhmdarlardan xahiş olunur ki, şəxsiyyəti təsdiqləyən sənədlə yığıncaqda iştirak etsinlər.

İllik hesabatla cəmiyyətin saytının elanlar bölməsində tanış olmaq mümkündür. web: bakuserab.az

Telefon – 566-26-86.

***“Bakı Şərab-1” ATSC-nin müşahidə şurası***

## "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin

# Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti

*Lot –2. "5 ədəd su anbarının (Qaraçay, Qudyalçay, Qusarçay, Vəlvələçay və Türyançay çaylarında) texniki-iqtisadi əsaslandırmanın hazırlanması" layihəsi çərçivəsində "4 ədəd su anbarının (Qaraçay, Qudyalçay, Qusarçay və Vəlvələçay çaylarında) texniki-iqtisadi əsaslandırmanın hazırlanması" işlərinin satın alınması məqsədilə*

## AÇIQ TENDER ELAN EDİR

Satınalan təşkilatın adı– Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti

Əlaqələndirici şəxs– Qulam Şamil oğlu Aslanov (S .A.A.).

Satınalan təşkilatın ünvanı– Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti-69a.

Əlaqələndirici şəxsin emaili– tomiobm@mst.gov.az

Əlaqə nömrəsi– (012) 431 08 64.

Satınalma predmetinin adı– "4 ədəd su anbarının (Qaraçay, Qudyalçay, Qusarçay və Vəlvələçay çaylarında) texniki-iqtisadi əsaslandırmasının hazırlanması".

Ünvanı–Quba və Qusar rayonlarının inzibati ərazisi.

İşlərin qısa təsviri: Ümumi su tutumları 159 milyon kubmetr, o cümlədən: Quba rayonuna məxsus 27900 hektar ərazinin suvarma suyu ilə təmin edilməsi üçün ümumi su tutumları 142 milyon kubmetr üç ədəd (Qaraçay, Qudyalçay və Vəlvələçay üzərində) və Qusar rayonuna məxsus 20600 hektar ərazinin suvarma suyu ilə təmin edilməsi üçün ümumi su tutumu 17 milyon kubmetr olan bir ədəd (Qusarçay üzərində) su anbarlarının texniki-iqtisadi əsaslandırmalarının hazırlanması.

İşlərin yerinə yetirilmə müddəti – 8 aydır.

Tender təkliflərinin qiymətləndirilməsi meyarları:

Texniki təklif - 10 bal, o cümlədən:

- iddiaçı bağlanacaq satınalma müqaviləsinin yerinə yetirilməsi üçün avans ödənişi tələb etmədiyi halda, bu meyar üzrə müəyyən olunmuş maksimal 10 balla qiymətləndiriləcəkdir. Əgər, iddiaçı tender təklifində 20 faizdən artıq avans ödənişi tələb edərsə, onda həmin iddiaçının tender təklifi kənarlaşdırılacaqdır. 20 faiz və daha az avans ödənişi tələb olunan tender təklifinin bu meyar üzrə alacağı bal aşağıdakı düstur əsasında hesablanacaq, (20 – X)/20x10 X - tender təklifində iddiaçı tərəfindən tələb olunan avans ödənişinin müqavilə qiymətinə nisbətdə faizi.

Ən az qiymət təklifi – 90 baldır.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi kadr və maliyyə imkanlarına malik olmaqla yanaşı, iddiaçı son 10 (on) il ərzində baş podratçı (əsas layihəçi) kimi su tutumu 40 milyon kubmetrdən az olmayaraq ən çoxu oxşar 4(dörd) iş görmə təcrübəsinə malik olmaqla bərabər ümumi su tutumları 160 milyon kubmetr və qulluq etdikləri suvarma sahəsi 50,0 min hektardan az olmamaq şərtilə su anbarlarının texniki-iqtisadi əsaslandırmalarının tərtib edilməsini əhatə etməlidir (təhvil-təslim aktları və işbitirmə sənədləri təqdim etməlidir).

İştirak haqqı– 5500 (beş min beş yüz) manat (iştirak haqqının məbləği "Dövlət Satınalmaları haqqında" Azərbaycan Respublikası Qanunun 29.1 maddəsinə müvafiq olaraq müəyyənləşdirilir).

İddiaçılar iştirak haqqını ödədikdən sonra satınalan təşkilata rəsmi müraciət etməklə tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

Tikilməkdə olan meliorasiya və irriqasiya obyektlərinin birləşmiş müdiriyyəti

VÖEN– 1300300711

H/h – AZ 10 IBAZ 380700194497 16100216

"Azərbaycan Beynəlxalq Bankı"nın Yasamal filialı

M/h –AZ03NABZ01350100000000002944

Kod– 805562

VÖEN– 9900001881

SWIFT : IBAZAZ2X (AZIPS-in üzvü)

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tender təklifi təkliflərin açıldığı gündən sonra ən azı 45 bank günü qüvvədə olmalıdır. Tender təklifi Azərbaycan dilində tərtib edilməlidir (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

2. Tender təklifi qiymətinin 1 faizi məbləğində tender təklifinin təminatı (bank zəmanəti, tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox qüvvədə olmalıdır (bank tərəfindən təqdim edilməlidir).

3. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış.

(vergi xidməti tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalı, sənədin əsli və ya notarial təsdiq edilmiş surətinin yerləşdirilməsi zəruridir);

4. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.

(son maliyyə dövrünə olan məlumatı əks etdirməsi sənədin əsli və ya notarial təsdiq edilmiş surətinin yerləşdirilməsi zəruridir);

5. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.

(bank tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalı, sənədin əslinin və ya notarial təsdiq edilmiş surətinin yerləşdirilməsi zəruridir);

6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə. (kommersiya və hüquqi şəxslərin dövlət qeydiyyatı reyestrindən çıxarış iddiaçı tərəfindən təqdim edilməli, nizamnamənin, dövlət reyestrindən çıxarışın və şəhadətnamənin notarial qaydada təsdiq olunmuş formatında yerləşdirilməsi zəruridir);

7. Rekvizitlər (iddiaçının və ya bankın imzası və möhürü ilə təsdiq edilməsi zəruridir);

8. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.

(sənədlər DİN və ya "Asan xidmət" tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalı, sənədin əslinin və ya notarial təsdiq edilmiş surəti zəruridir);

Sənədin verilmə tarixi elan verilmiş aydan etibarən olmalıdır (ay, il).

9. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması.

(sənədlər vergi xidməti tərəfindən təqdim edilməli, cari rübü əhatə etməli, sənədin əslinin və ya notarial təsdiq edilmiş surəti zəruridir).

10. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin və etibarlılığının olması.

İddiaçının ixtisas göstəriciləri əsas şərtlər toplusunun 3-cü "əsas şərtlər toplusunun məlumat xəritəsi" bölməsinin 13.3.8-ci bəndində verilmiş tələblərə uyğun gəlməlidir. İxtisas göstəriciləri haqqında məlumat əsas şərtlər toplusunun 8-ci "standart formalar" bölməsinin, 7-ci "podratçının ixtisas göstəriciləri haqqında məlumat" qoşmasında göstərilmiş forma və qaydada təqdim olunmalıdır.

İddiaçının adları qeyd olunan işçi qüvvəsi haqqında əlavə olaraq aşağıdakı sənədlər təqdim edilməlidir:

– layihənin baş mühəndisi haqqında – layihələndirdiyi bütün obyektlər üzrə siyahı cədvəli və hər bir obyekt üzrə ekspertizadan keçən təstiqedici sənəddə (ümumi izahat kitabının titul vərəqində və layihə cizgilərində künc ştampında) adı və imzası olan sənədin surəti;

- topoqraf haqqında - layihələndirdiyi bütün obyektlər üzrə siyahı cədvəli və hər bir obyekt üzrə layihənin baş mühəndisi tərəfindən verilən texniki tapşırıq sənədində adı və imzası olan sənədin surəti;

- hidroloq haqqında - layihələndirdiyi bütün obyektlər üzrə siyahı cədvəli və hər bir obyekt üzrə layihənin baş mühəndisi tərəfindən verilən texniki tapşırıq sənədində adı və imzası olan sənədin surəti;

- mühəndis-hidrogeoloq haqqında - layihələndirdiyi bütün obyektlər üzrə siyahı cədvəli və hər bir obyekt üzrə ekspertizadan keçən təstiqedici sənəddə (mühəndis-geologiya bölməsi kitabının titul vərəqində) adı və imzası olan sənədin surəti;

- ətraf mühit və iqlim dəyişmələri üzrə mütəxəssis haqqında - layihələndirdiyi bütün obyektlər üzrə siyahı cədvəli və hər bir obyekt üzrə ekspertizadan keçən təstiqedici sənəddə (ekologiya bölməsi kitabının titul vərəqində) adı və imzası olan sənədin surəti;

- iqtisadiçı-maliyyəçi (smeta üzrə mütəxəssis) haqqında - layihələndirdiyi bütün obyektlər üzrə siyahı cədvəli və hər bir obyekt üzrə ekspertizadan keçən təstiqedici sənəddə (tikintinin toplu smetası bölməsi kitabının titul vərəqində) adı və imzası olan sənədin surəti;

- meliorasiya qurğularının planlaşdırılması və layihələndirilməsi üzrə mühəndis (TTL) haqqında - layihələndirdiyi bütün obyektlər üzrə siyahı cədvəli və hər bir obyekt üzrə ekspertizadan keçən təstiqedici sənəddə (tikintinin təşkili layihəsi bölməsi kitabının titul vərəqində) adı və imzası olan sənədin surəti;

- nasos stansiyaları və mexaniki avadanlıqlar üzrə mühəndis haqqında - layihələndirdiyi bütün obyektlər üzrə siyahı cədvəli və hər bir obyekt üzrə ekspertizadan keçən təstiqedici sənəddə (nasos stansiyaları və mexaniki avadanlıqlar bölməsi kitabının titul vərəqində) adı və imzası olan sənədin surəti;

- elektrik mühəndisi haqqında - layihələndirdiyi bütün obyektlər üzrə siyahı cədvəli və hər bir obyekt üzrə layihənin baş mühəndisi tərəfindən verilən texniki tapşırıq sənədində adı və imzası olan sənədin surəti;

- avtomatika mühəndisi haqqında - layihələndirdiyi bütün obyektlər üzrə siyahı cədvəli və hər bir obyekt üzrə layihənin baş mühəndisi tərəfindən verilən texniki tapşırıq sənədində adı və imzası olan sənədin surəti;

- inşaat mühəndisi (konstruktor) haqqında - layihələndirdiyi bütün obyektlər üzrə siyahı cədvəli və hər bir obyekt üzrə ekspertizadan keçən təstiqedici sənəddə (konstruksiya bölməsi üzrə vərəqin künc ştampında) adı və imzası olan sənədin surəti;

- (iddiaçı tərəfindən təqdim edilməli).

11. İddiaçının mikro, kiçik və orta sahibkarlıq subyektlərinin meyarlarına uyğun olması.

(Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təqdim edilməli sənədin əslinin və ya notarial təsdiq edilmiş surətinin təqdimatı zəruridir);

Sənədin qüvvədə olma müddəti "Tələb olunan sənədlərin son təqdim olunma tarixini əhatə etməlidir" (gün, ay, il)

12. İddiaçının müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması. (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilməlidir).

13. Satınalma müqaviləsini bağlamaq səlahəyyətinin olması.

(imza səlahiyyəti olan şəxsin (əgər təsisçi direktor deyilsə) əmri, sənədin əslii və ya notarial təsdiqini təqdim etməsi zəruridir).

İddiaçılar tenderdə iştirak üçün yuxarıda 3 və 13-cü sıralarda göstərilən sənədləri 25 may 2023-cü il saat 17.00-a (tender təkliflərinin açılışına 7 (yeddi) bank günü qalmış) qapalı zərfdə üzərində əsli və surəti göstərilməklə Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti 69a nömrəli ünvana təqdim etməlidirlər.

İddiaçılar tender təklifi və bank təminatını isə 5 iyun 2023-cü il saat 17.00-a qədər (tender təkliflərinin açılışına 1 (bir) bank günü qalmış) ) qapalı zərfdə əsli və surəti olmaqla Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti 69a nömrəli ünvana təqdim etməlidirlər.

İddiaçıların təklifləri 6 iyun 2023-cü il saat 15.00-da açılacaqdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

# "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" PHŞ

*"Suqovuşan qəsəbəsində 5 ədəd 5 mərtəbəli 2 girişli yaşayış binasının tikintisi" işlərinin satın alınması üçün*

## AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu , Zahid Xəlilov küçəsi 53 nömrəli ünvanda yerləşən "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsindən əldə edə bilərlər.

Əlaqələndirici şəxs- satınalma şöbəsinin müdiri İntizam Novruzov – i.novruzov@qbti.gov.az və baş məsləhətçi Tural Rzayev - t.rzayev@qbti.gov.az, telefon- + 9955 489 98 20.

**İşlərin qısa təsviri:**

Ərazidə 5 ədəd 5 mərtəbəli yaşayış binası, 1 ədəd nəzarət məntəqəsi, uşaq meydançası, idman üçün meydança, futbol meydançası, 2 ədəd velosiped dayanacağı və s.

Tenderdə iştirak haqqı: **1500,00 ( bir min beş yüz) manatdır.**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**Təşkilat - "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxs**

VÖEN- 3201635961

Bank- "ABB"nin Mərkəz filialı

Kod-0 805722

VÖEN- 9900001881

H/h- AZ95İBAZ38030019443196817204

M/h- AZ03NABZ01350100000000002944

SWIFT İBAZAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

• Tenderdə iştirak etmək üçün ərizə.

• İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.

• Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 65 bank günü ərzində qüvvədə olmalıdır).

• Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

• Tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi rekvizitləri.

• Malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19).

• Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• İddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir).

• Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış.(tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı.

• Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiq edilmiş surəti təqdim edilməlidir)

• Mühasibat balansları, mənfəət və zərər haqqında hesabat.

• Kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları.

• Baş podratçı kimi son beş il (2018-ci il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək ) ərzində ümumi məbləği 5 (beş) milyon manatdan az olmayan, müraciət edənin hissəsi isə ən azı 2.5 (iki milyon beş yüz min) milyon olan (müraciət edən müqaviləni birgə müəssisənin üzvü olaraq icra etmişdirsə) və oxşar işi əhatə edən (oxşarlıq layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnoloqiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) ən azı 2 (iki) sifarişi qənaətbəxş şəkildə icra etməsi haqqında məlumat və təsdiqedici sənədlər təqdim edilməlidir;

• Son beş il (1 yanvar 2017 – ci il 31 dekabr 2021-ci il ) ərzində tikinti - quraşdırma işləri üzrə ən azı 10 milyon manat dövriyyə tələb olunur, həmçinin TMV-nin 1.6-cı bəndində tələb olunan digər tələblər.

Qeyd- tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV-nin 1-ci və 2-ci bəndlərində tələb olunan sənədlər hər bir şirkət üçün ayrılıqda təqdim edilməlidir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **13 iyun 2023-cü il** saat 16:00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **22 iyun 2023-cü il** saat 16:00-a qədər Bakı şəhəri, Yasamal rayonu Zahid Xəlilov küçəsi 53 nömrəli ünvanda yerləşən "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Yasamal rayonu, Zahid Xəlilov küçəsi 53 nömrəli ünvanda yerləşən "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin inzibati binasında 23 iyun 2023-cü il saat 16.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*balansındakı "Qarabağ" və "Balakən" bərə gəmilərinin, "MAN D2842LE301" köməkçi mühərriklərinin ehtiyat hissələrinin satın alınması məqsədilə*

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il mayın 11-i Bakı vaxtı ilə saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1071.

Ünvan-Bakı, Mikayıl Useynov küçəçi 2.

## "Şərab-Nəqliyyat" ASC səhmdarlarının nəzərinə!

23 iyun 2023-cü il saat 12.00-da Bakı, Heydər Əliyev prospekti 104 nömrəli ünvanda "Şərab-Nəqliyyat" ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Bütün səhmdarların şəxsiyyəti təsdiq edən sənədlə yığıncaqda iştirakı vacibdir.

Telefon-(012)566-26-86.

***İdarə heyəti***

## B İ L D İ R İ Ş

"Azəristiliktəchizat"ASC-nin kompüter və digər avadanlıqların satın alınması məqsədilə 2023-cü il martın 7-də elektron portal vasitəsilə keçirilmiş açıq tenderinin nəticələrinə əsasən "AE UNION" MMC qalib elan edilmiş və 2023-cü il mayın 1-də həmin MMC ilə müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

*İdman xəbərləri*

# “Qarabağ” “Neftçi”ni məğlub etdi



**Futbol üzrə Azərbaycan Premyer Liqasında XXXII tura yekun vurulub. “Bakcell Arena”da keçirilən turun son qarşılaşmasında “Neftçi” komandası lider “Qarabağ” klubunu qəbul edib.**

Matçı FIFA referisi İnqilab Məmmədov idarə edib.

Qarşılaşma Ağdam klubunun 4:2 hesablı qələbəsi ilə yekunlaşıb.

Qeyd edək ki, hazırda turnir cədvəlində lider olan “Qarabağ”ın hesabında 81 xalı var. 61 xala malik olan “Neftçi”nin sona 4 tur qalmış mövsümü bürünc medalla başa vuracağı rəsmiləşib.

Turun əvvəlki oyunlarında “Sumqayıt” Qəbələdə “Kəpəz”ə, “Sabah” evdə “Şamaxı”ya 1:0, “Qəbələ” doğma meydanda “Səbail”ə 4:2, “Turan Tovuz” isə səfərdə “Zirə”yə 3:1 hesabı ilə qalib gəlib.

# Millimiz İtaliya yığmasına qalib gəldi

**Mini-futbol üzrə Azərbaycan milli komandası Bakıda ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq turnirdə növbəti oyununu keçirib. Millimiz ikinci matçda İtaliya komandası ilə üz-üzə gəlib.**



Rəqibini iki cavabsız qolla məğlub edən Azərbaycan 4 xalla liderliyə yüksəlib.

Qeyd edək ki, yığmamızın Çexiya seçməsi ilə ilk oyununda hesab açılmayıb.

Millimiz qrup oyunları çərçivəsində mayın 3-də Gürcüstan, ayın 4-də isə Serbiya ilə üz-üzə gələcək.

Turnirə mayın 6-da yekun vurulacaq.

***L.SABİRQIZI, “Xalq qəzeti”***

# “TEKNOFEST-2023”-ün qalibi oldular




**Bakı Dövlət Universitetinin (BDU) “TEKNOFEST-2023” Aerokosmik və Texnologiya Festivalında təmsil olunan komandaları böyük uğur qazanıb.**

BDU-nun “BSU Creativity Workz” komandası “Driver’s Eye (avtomobil qəzalarını əvvəlcədən müəyyənləşdirərək sürücünü xəbərdar edən elektron sistem)” layihəsi ilə festivalda I yerə, “Humantek” komandası isə “Ağıllı damla sulama sistemi (torpağın mineral tərkibi, rütubət səviyyəsi, havanın temperaturu və təzyiqi kimi məlumatların toplanaraq mərkəzi stansiyaya naqilsiz ötürülməsi üçün əkin sahələrinin müxtəlif yerlərində günəş enerjisi ilə qidalanan kiçik stansiyalar)” layihəsi ilə III yerə layiq görülüb.

***“Xalq qəzeti”***

# Paralimpiyaçımızdan gümüş medal

**Almaniyanın Hannover şəhərində keçirilən güllə atıcılığı üzrə beynəlxalq turnirdə Azərbaycan paralimpiyaçısı Aybəniz Babayeva gümüş medala sahib olub.**



Təmsilçimiz pnevmatik tapançadan 10 metr məsafəyə atəşaçma (P2) yarışında ikinci pillədə qərarlaşıb. Yığmanın digər üzvü Yelena Taranova finala vəsiqə qazansa da, nəticədə yarışı beşinci yerdə başa vurub.

Qeyd edək ki, turnir sentyabrın 17-29-da Perunun paytaxtı Limada keçiriləcək dünya çempionatına lisenziya xarakteri daşıyır.

# NASA yeni planet kəşf edib



**ABŞ-ın Milli Aerokosmik Agentliyindən (NASA) verilən məlumata görə, TOI-733 adı verilən planet TESS teleskopu tərəfindən yerdən 245 işıq ili uzaqlıqda aşkar edilib. Bildirilir ki, sözügedən planet 1990-cı illərdə ilk kəşfdən sonra məlum olan 5 mindən çox ekzoplanetdən yalnız biridir.**

Qeyd olunub ki, planet günəşdən bir qədər kiçik bir ulduzun ətrafında cəmi 4 gün ərzində dövrə vurur. Aparılan sıxlıq ölçmələri göstərir ki, o, ya bir vaxtlar sahib olduğu atmosferi itirib, ya da tamamilə su ilə örtülmüş planetdir.

Digər nəzəriyyələr TOI-733b-nin hidrogen və heliumunu itirdiyini və bunun əvəzinə, su buxarı ilə dolu atmosferi saxladığını və ya daha ağır elementlərdən ibarət ikinci dərəcəli atmosferi bərpa etdiyini göstərir.

***“Xalq qəzeti”***

# Xədicə Qayıbovanın xatirəsi anılıb



**Xalqımızın ilk qadın pianoçularından biri, muğam variasiyalarını ilk dəfə fortepianoda ifa etmiş Xədicə Qayıbovanın anadan olmasının 130 il tamam olur. Beynəlxalq Muğam Mərkəzində (BMM) unudulmaz pianoçunun xatirəsinə həsr olunmuş musiqi gecəsi təşkil edilib.**



Bu barədə BMM-dən aldığımız xəbərdə deyilir ki, tədbirdə piano ifaçısının nakam həyat və yaradıcılığından söz açılıb. Xatırladaq ki, Xədicə Qayıbova Tiflisdə ünlü ruhanilərdən Osman bəy Müftizadənin ailəsində dünyaya gəlib. Şəhərdəki “Müqəddəs Nina” qızlar məktəbində oxuyub, burada mükəmməl musiqi dərsləri də alıb. O həm Şərq, həm də Avropa musiqisinin gözəl bilicisi kimi Azərbaycanın mədəni həyatında fəal iştirak edib. Xədicə xanımın təşəbbüsü ilə “Qısamüddətli Şərq musiqi kursları” təşkil edilib, uşaq xoru yaradılıb. Dövrünün görkəmli sənətkarları ilə çalışaraq Azərbaycan musiqi folklorunun toplanması istiqamətində də səylərini əsirgəməyən Xədicə Qayıbova repressiya qurbanı olub.

Xatirə gecəsi klassik musiqi və BMM-nin solistlərinin ifasında muğam və xalq mahnılarından ibarət proqramla davam edib.

***“Xalq qəzeti”***

# “Abşeron” qrupu milli rəqslərimizi dünyaya tanıdır

**Lap qədimdən rəqs dünyanın hər yerində gözəllik, şuxluq, çeviklik sənəti kimi yükək dəyərləndirilib, şənliklərin, milli bayramların, mədəni təqdimatların bəzəyinə çevrilib. Qobustanın qayaüstü rəsmləri bu sənətin ölkəmizdə minilliklərdən qaynaqlanıb gəlməsini sübut edir.**



Bugünlərdə dünyaya rəqs təntənəsi yaşadan Beynəlxalq Rəqs Günü Azərbaycanda da geniş qeyd edilib, populyar rəqs qruplarının çıxışları təşkil olunub. Sumqayıt Regional Mədəniyyət İdarəsinin tabeliyindəki Abşeron Rayon Mərkəzi Kitabxanasında həmin gün rayon ictimaiyyəti nümayəndələrinin tanınmış xoreoqraf Elşən Həsənlinin rəhbərlik etdiyi “Abşeron” rəqs ansamblının üzvləri ilə görüş keçirilib.

Tədbirdə qeyd edilib ki, ölkəmizdə qədim və zəngin rəqs sənəti bu gün də yüksək dəyərləndirilir, milli-mədəni dəyərlərimiz sırasında qayğı ilə qorunur, zənginləşdirilir. Gənc nəsil bu gözəl sənətə getdikcə daha böyük maraq göstərir, onun sirlərini peşəkarlardan həvəslə öyrənir.

Görüşdə milli rəqs sənətimizi bütün zənginliyi ilə mənimsəyib yaşadan “Abşeron” qrupunun ölkəmizdəki və xaricdəki uğurlu çıxışlarından məmnunluqla söhbət açılıb. Sonra rəqs ansamblının rəngarəng çıxışları izlənilib. Sonda iştirakçılar kitabxananın əməkdaşı Səbinə Məmmədovanın təqdimatında “Azərbaycan cəngi rəqsləri” adlı kitab sərgisi ilə tanış olublar.

Xatırladaq ki, “Abşeron” rəqs ansamblı bir sıra xarici ölkələrdə Azərbaycanı uğurla təmsil edib. Qrupun Türkiyə, İran və Gürcüstandakı çıxışları böyük maraqla qarşılanıb. Rəqqaslarımızın Türkiyənin Bursa şəhərində ulu öndər Heydər Əliyevin büstünün açılış mərasimində çıxışı qardaş ölkədə yüksək dəyərləndirilib. Kollektiv respublika rəqs müsabiqəsinin qalibləri sırasında yer alıb.

***L.AZAD, “Xalq qəzeti”***

# HAVA PROQNOZU

✓ ***Mayın 3-də***

✓ **Bakıda və Abşeron yarımadasında** səhər saatlarında gözlənilən yağışın gün ərzində davam edəcəyi gözlənilir. Yarımadanın bəzi yerlərində intensiv olacağı olacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək. Gecə 9-13°, gündüz 13-17° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 765 mm civə sütunu, nisbi rütubət 60-70 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Gecə 4-9°, gündüz 14-19° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Gecə 0-4°, gündüz 4-8° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Gecə 0-5° isti, dağlıq ərazilərdə 3°-dək şaxta, gündüz 5-9° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Gecə 5-10°, gündüz 12-17° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Mingəçevir, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Gecə 3-8°, gündüz 11-16° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 2-5° isti olacaq.

✓ **Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Gecə 8-12°, gündüz 13-18° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şimal-şərq əsəcək. Gecə 9-13°, gündüz 13-17°, dağlarda gecə və gündüz 2-6° isti olacaq.

*Sağlamlıq guşəsi*

# Lavanda – baş ağrısı və yuxusuzluğa çarə



**Lavanda yağının faydaları barədə çox eşitmişik. Onun sakitləşdirici təsirə malik olduğunu, dəridə iltihabı azaltdığını, əzələ spazmlarını, boyun və baş ağrılarını aradan qaldırdığını bilirik.**

Bu yağı baş ağrısı olanda alın və gicgaha sürtmək, yuxu problemində isə bir neçə damcı yastığa damcılatmaq, əzələ ağrısını azaltmaq üçünsə vannaya əlavə etmək olar.

Eyni zamanda, bu yağdan aroma lampalarında, hava nəmləndiricilərində, müalicəvi vannalarda istifadə etmək olar. Əsas odur ki, yağ təbii, keyfiyyətli olsun.

***Z.HÜSEYNOVA, “Xalq qəzeti”***

# ALLAH RƏHMƏT ELƏSİN

“Xalq qəzeti”nin kollektivi AZƏRTAC-ın İdarə Heyətinin sədr müavini Dağbəyi İsmayılova bacısı

**HƏMAYIL XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Asif Əsgərov və Nəsimi Rayon İcra Hakimiyyətinin kollektivi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, professor Mustafa Babanlıya atası

**BABA MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, professor Mustafa Babanlıya atası

**BABA BABANLININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəhbərliyi və kollektivi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, professor Mustafa Babanlıya atası

**BABA MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Pirallahı rayonundan Vasif İmanov Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, professor Mustafa Babanlıya atası

**BABA MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5048
SİFARİŞ 1074
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00